# Vaşinqton üçün itirilmiş 4 il

## Yaxud Azərbaycana dərs keçmək istəyən “qanunpərəstlər”in menyusuna

**Demokratların hakimiyyətdə olduğu dörd il ərzində Ağ ev Azərbaycanla əvvəlki ikitərəfli normal münasibətləri korlamaq üçün bütün mümkün üsullardan istifadə elədi. Bu üsulların böyük qismi diplomatik etiketdən və siyasi konyukturadan kənar idi.**

Bu zaman dövriyyəyə Konqresdə və Senatda anti-Azərbaycan yönümlü bəyanat və qətnamələrin qəbulundan tutmuş, əl altından Ermənistana hərbi-texniki, maliyyə yardımlarının göstərilməsinə kimi məkrli addımları da gördük. Hərdən Bayden administrasiyasının ölkəmizin daxili işlərinə qarışmaq cəhdlərinə də şahidlik elədik.

**(ardı 13-cü səhifədə)**



## AİB-nin ölkəmizlə bağlı proqnozları yenə nikbindir

**Asiya İnkişaf Bankı (AİB) Qafqaz və Mərkəzi Asiya regionu üçün ÜDM-in artım proqnozunu 2024-cü ildə 0,2 faiz bəndi, 2025-ci ildə isə 0,1 faiz bəndi artırıb. Bu barədə ADB-nin region üzrə proqnozunda bildirilib.**



Bank sentyabr proqnozu ilə müqayisədə regionun iqtisadi artım proqnozunu bu il üzrə 4,7 faizdən 4,9 faizə, 2025-ci il üzrə isə 5,2 faizdən 5,3 faizə yüksəldib. Qurum iqtisadi artım proqnozunun yaxşılaşdırılmasını Azərbaycan, Gürcüstan, Tacikistan və Özbəkistanda 2024-cü ilin sentyabrında gözləniləndən yüksək olan güclü iqtisadi artımla əlaqələndirib.

**(ardı 14-cü səhifədə)**


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 275 (30679) 13 dekabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Xalqımızın Ulu öndərə sevgisi sonsuz, ehtiramı əbədidir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatından 21 il ötür.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

**(ardı 2-ci səhifədə)**

# Xəritə məntiqi – “Ermənistan yoxdur” mesajı

**SSRİ dövründən qalma xəritələrdən imtina dövlətçilikdən və müstəqillikdən imtina deməkdir. Bu fikri Ermənistanın baş naziri Nikol Paşinyan özünün “Facebook” səhifəsində paylaşıb.**



N.Paşinyan ölkəsinin Azərbaycanla sərhədlərinin müəyyənləşməsində sabiq Sovet İttifaqı xəritələrinin əsas götürülməsinin yolverilməzliyinə dair tezisləri şərh edib. Yəni, onun paylaşımının məqsədi bu olub. Nikolu haqlı saymaq olar. O anlamda ki, həqiqətən keçmiş SSRİ dövrü xəritələrindən imtina Ermənistan adlı dövlətin yoxluğu anlamını verəcək. Ancaq bir məsələ var.

Ermənistan otuz ilə yaxın müddətdə həmin xəritələri heçə sayaraq ölkəmizin ərazilərini işğalda saxlayıb. Hər halda, Paşinyan keçmişi kənara qoya bilməz. Deyə bilməz ki, hadisələr onun hakimiyyəti illərində yaşanmayıb. Eyni zamanda, ona görə deyə bilməz ki, o, özü də Ermənistanın Azərbaycana qarşı ərazi iddiası ilə şərik olduğunu təsdiqləyib. Söhbət Paşinyanın 2019-cu ildə verdiyi “Qarabağ Ermənistandır və nöqtə” bəyanatından gedir. Hər sözə, hər fikrə görə isə cavabdehlik mütləqdir. Əgər bu şəxs dövlət və hökumət başçısıdırsa, deməli, cavabdehliyi birə-beş artır. Bu mənada Paşinyan məsuliyyətini dərk etməli və bilməlidir ki, Qarabağla bağlı danışıqlar prosesini pozduğuna, 44 günlük müharibəyə səbəb olmuş bəyanatına görə cavab verməlidir. Müharibə uşaq oyuncağı deyil. Burada udan tərəf olduğu kimi, uduzan tərəf də var. Ermənistan savaş məğlubudur və məğlubiyyət yeni reallıqlar formalaşdırıb. Necə deyərlər, hər keçi öz ayağından asılmalıdır.

O boyda qanlı-qadalı olaylara baiskar ol, axırda da özünü elə apar ki, sanki, heç nə baş verməyib. Bu, əsla mümkün deyil. Paşinyan anlamalıdır ki, Ermənistan həm məğlubiyyətin, həm otuz ilə yaxın müddətdə davam etmiş işğalçılığın, həm müharibədən sonrakı destruktiv addımların hesabını ödəməlidir. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın mahiyyətində də bu dayanır. Paşinyan isə müsahibələrinin birində demişdi ki, sözügedən bəyanat Ermənistana məğlub, Azərbaycana qalib tərəf kimi yanaşmaq üçün əsas vermir. Məsələyə sonda qayıdacağıq. Hələlik isə...

**(ardı 12-ci səhifədə)**

## Saxta “soyqırımı” ritorikası və Mirzoyanın ikiüzlülüyü



Səhifə ⇨ 13

## Azərbaycan neft haslilatı öhdəliklərinə sadiqdir



Səhifə ⇨ 14

# Suriya qaçqınları Avropadan qayıdacaqlarmı?



**Suriyada baş verən son hadisələr Avropa İttifaqında (Aİ) ictimai rəyi sakitləşdirdi. “Qoca qitə” sakinləri 2015-ci ildə Aİ-yə gələn suriyalı qaçqınların ölkələrinə qayıdacaqlarına ümid edirlər. Eyni zamanda, indi Bəşər Əsədin devrilməsindən sonra Suriyada vətəndaş müharibəsinin yenidən başlayacağı ilə bağlı qorxular var ki, bu da 9 il əvvəlki miqrasiya böhranının təkrarlana biləcəyi deməkdir.**

Mümkün problemləri gözləyən Aİ ölkələri qaçqın statusu almaq qaydalarını sərtləşdirir və qeyri-qanuni mühacirlərlə mübarizənin son zamanlar inkişaf etdirilən üsullarının nə dərəcədə effektiv olduğunu müzakirə edirlər.

Qərbdə Suriyada hakimiyyət dəyişikliyi müsbət qarşılanır. Eyni zamanda, Qərb ölkələri narahatlıqlarını da gizlətmirlər. Onlar 2015-ci il hadisələrinin təkrarlanmasından qorxurlar. Xatırladaq ki, Suriyada vətəndaş müharibəsi zamanı on minlərlə suriyalı Avropaya axın etmişdi. Suriyalılara afrikalıların da qoşulması Qərbi Avropada mühacirlərlə bağlı vəziyyəti daha da gərginləşdirmişdi. Doğrudur, Türkiyə bu məsələdə Aİ-yə kömək etdi: 4 milyondan çox suriyalıya qucaq açdı. Ancaq yenə də “Qoca qitə” Yaxın Şərqdən çox sayda mühaciri qəbul etməyə məcbur oldu.

**(ardı 15-ci səhifədə)**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





(əvvəli 1-ci səhifədə)

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Mehriban Əliyeva Ulu öndərin anım günü ilə əlaqədar paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə hesablarında Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar foto paylaşıb.**

# Dövlət və hökumət rəsmiləri Ulu öndər Heydər Əliyevin xatirəsini yad ediblər



**Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür.**

Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

# Azərbaycan Baş nazirinin Moskva görüşləri



### Heydər Əliyevin xatirəsinə ehtiram

Dekabrın 12-də Rusiya Federasiyasında işgüzar səfərdə olan Baş nazir Əli Əsədov Azərbaycanın Moskvadakı səfirliyinin binasında olub.

Baş nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub.

### MDB Hökumət Başçıları Şurasının iclasında

Dekabrın 12-də Rusiya Federasiyasının paytaxtı Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Azərbaycanın Baş naziri Rusiyanı cari ildə MDB-də uğurlu sədrliyi münasibətilə təbrik edib, həmçinin 2025-ci ildə quruma sədrlikdə Tacikistana uğurlar arzulayıb.

Ə.Əsədov əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, nəqliyyat və humanitar sahələr, maliyyə və büdcə mövzuları üzrə 20-yə yaxın bəndin daxil olduğu iclasın gündəliyində duran məsələlərin əhəmiyyətinə diqqət çəkib.




Xüsusilə iclasın yekunu üzrə təsdiq olunacaq 2025-2026-cı illər üçün Humanitar əməkdaşlıq sahəsində Prioritet Tədbirlər Planının əhəmiyyəti qeyd edilib.

Vurğulanıb ki, 2025-ci ildə MDB çərçivəsində mühüm mədəniyyət və idman tədbirlərinin keçirilməsi planlaşdırılır və bunlara Azərbaycanda fəal hazırlıq gedir.

“Biz “Birliyin mədəniyyət paytaxtları” dövlətlərarası proqramı çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Məlum olduğu kimi, Dövlət Başçıları Şurasının bu il oktyabrın 8-də qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikasının Laçın şəhəri 2025-ci ildə Birliyin mədəniyyət paytaxtı elan edilib”, - deyə Ə.Əsədov bildirib.

Qeyd olunub ki, işğaldan azad edilmiş Laçın şəhəri bu gün sürətlə bərpa olunur. “Möhtəşəm təbiətə və çoxəsrlik tarixə malik şəhərdə həyatın bərpasına və iqtisadi rifaha yönəlmiş irimiqyaslı infrastruktur, sosial layihələr sürətlə həyata keçirilir. “Böyük Qayıdış” proqramı çərçivəsində artıq iki mindən çox insan Laçın şəhərinə qayıdıb, gələn il isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır”, - deyə Baş nazir əlavə edib.

Ə.Əsədov Birliyin idman paytaxtı elan edilmiş Gəncə şəhərində gələn il keçiriləcək III MDB Oyunları barədə məlumat verib.

İclas iştirakçılarının diqqəti, eyni zamanda, bu il Azərbaycanın siyasi həyatında baş verən mühüm hadisələrə yönəldilib.

“Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq ölkənin ərazi bütövlüyünün bərpa edilməsindən sonra prezident və parlament seçkiləri onun bütün ərazisində keçirilib, bu isə tarixi hadisəyə çevrilib və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarında təşkil olunmuş seçki məntəqələrində səs vermələrinə imkan yaradıb”, - deyə Əli Əsədov bildirib.

Baş nazir bu yaxınlarda Bakıda başa çatmış COP29 iqlim konfransının nəticələrinə də toxunub. Diqqətə çatdırılıb ki, konfransın yekunları üzrə mühüm qərarlar, o cümlədən inkişaf etməkdə olan ölkələrə iqlim maliyyələşməsinin təqdim edilməsi, eləcə də İtki və Zərər Fondunun tətbiqi ilə bağlı qərarlar qəbul olunub.

Vurğulanıb ki, Azərbaycanın sədrliyi bir daha güclü siyasi iradənin və peşəkarlığın mövcudluğunu nümayiş etdirib, bu da Azərbaycana qarşı genişmiqyaslı, əsassız kampaniyaya, hətta dünya ictimaiyyətinə belə mühüm hadisəni boykot etməyə çağırışlara baxmayaraq, konfransın ən yüksək səviyyədə keçirilməsinə, mühüm nəticələrin əldə edilməsinə və çoxtərəfli danışıqlarda irəliləyişə nail olunmasına imkan verib.

Ə.Əsədov, həmçinin COP29 tədbirlərində fəal iştirak edən Rusiya Hökumətinin Sədri Mixail Mişustinə və MDB üzvü olan ölkələrin rəhbərliklərinə təşəkkür edib.

Sonda Ə.Əsədov MDB çərçivəsində konstruktiv dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb.

İclasın yekununda MDB-yə üzv dövlətlərin hökumət başçıları tərəfindən bir sıra sənədlər imzalanıb.

### Moskva Texniki Universitetində

Moskvaya işgüzar səfəri çərçivəsində Baş nazir Əli Əsədov və MDB-yə üzv ölkələrin digər nümayəndə heyətlərinin rəhbərləri dekabrın 12-də N.E.Bauman adına Moskva Dövlət Texniki Universitetinin kampusunda olublar.

Burada hökumət başçılarına MDB ölkələrindən Moskva universitetlərində təhsil alan tələbələrin birgə mühəndis layihələrinin təqdimatı keçirilib. Azərbaycanlı tələbə Vüsal Məhərrəmovun da daxil olduğu qrup “Xəzərin orbiti” layihəsini təqdim edib. Bu layihənin məqsədi Xəzərin ekoloji problemlərinin kosmik monitorinq texnologiyalarının işlənməsidir.

Baş nazir Əli Əsədov azərbaycanlı tələbənin daxil olduğu qrupun təqdimatını yüksək qiymətləndirib və Vüsal Məhərrəmova təhsilində uğurlar arzulayıb.

***XQ***





# Tarixi görüş

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

**(əvvəli ötən sayımızda)**

Artıq bizi gözləyən təhlükə nəinki sovuşdu, bizim respublikanın başqa ölkələr qarşısında nəyə qadir olduğu göstərildi.

Heydər Əliyev cənabları eyni zamanda, göstərdi ki, EA-nın böyük intellektual imkanları var. Bu xalq gələcək dünya sivilizasiyasına öz töhfələrini verə bilər.

Mən də 31 yanvardakı görüşün təsiri altındayam… Akademiyaya heç vaxt belə status verilməmişdi. …Elmlər Akademiyası bütün siyasi proseslərdə respublika Prezidentini dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir".

Akademik Fuad Qasımzadə Azərbaycan tarixinin Heydər Əliyev epoxasının mühüm tarixi hadisələrini nəzərə çatdırmışdır: "Sizi inandırıram, əvvəllər Moskvada deyəndə ki, biz Azərbaycandanıq, çoxusu belə bir respublikanı tanımırdı. Ancaq Bakını tanıyırdılar. Onu da nefti ilə tanıyırdılar. Hörmətli Prezidentimiz orada 5 il işləyəndən sonra Azərbaycanı şöhrətləndirdi… İndi bizim respublika ilə hesablaşırlar.

Heydər Əliyev cənabları uzun müddət Azərbaycana rəhbərlik edərkən Leonid İliç Brejnev 3 dəfə Azərbaycana gəldi. "Azərbaycan iri addımlarla addımlayır" – dedi. Bunu bütün dünya bildi.

…XIX-XX əsrlər tarixinin yazılması fikri tamamilə doğrudur…

…Əminəm ki, 31 yanvar bizim hamımız üçün dönüş nöqtəsi olmalıdır.

Hörmətli Prezidentimiz əmin ola bilər ki, Azərbaycan alimləri öz işlərində böyük dönüş yaradacaqlar".

Elmlər Akademiyasında əlamətdar tarixi günlər və dönüş nöqtəsi olan, 27 il bundan əvvəl baş vermiş, 31 yanvar və 7 fevral 1997-ci il tarixli hadisələrdə iştirak və çıxış edənlərdən bir çoxu hazırda ölkəmizin elm və ali təhsil sahəsində fəaliyyətlərini davam etdirir, ali qanunverici orqanımız olan Milli Məclisdə təmsil olunur. Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun direktoru, akademik Akif Əlizadə, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, AMEA-nın vitse-prezidenti, akademik Tofiq Nağıyev, AMEA-nın müşaviri, akademik Telman Əliyev, təqaüdçü akademik Ramiz Rizayev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kafedra müdiri, müxbir üzvü Rafiq Əliyev, Bakı Dövlət Universitetinin kafedra müdirləri, akademik Vasif Babazadə və müxbir üzv Məsumə Məlikova, Fizika İnstitutunun laboratoriya müdiri, akademik Təyyar Cəfərov ölkə maraqlarına xidmət edən elm və təhsil siyasətinin uğurla həyata keçirilməsi və Elmlər Akademiyasının yenidən qurulması yollarında uzun illər ərzində davamlı olaraq fəaliyyət göstərməklə vaxtilə Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyanın böyük inkişafa gətirib çıxardığını rəhbərlik və təmsil etdikləri sahələrdəki əməli işləri və qazandıqları nailiyyətləri ilə bir daha nümayiş etdirirlər.

Azərbaycan elminin qızıl fondunu təşkil edən bu görkəmli alimlərdən akademik Akif Əlizadənin, akademik Telman Əliyevin, akademik Vasif Babazadənin, müxbir üzv Məsumə Məlikovanın AEA-nın 7 fevral 1997-ci il tarixli ümumi yığıncağındakı çıxışlarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin irəli sürdüyü elmin və Akademiyanın inkişaf konsepsiyası dönmədən müdafiə edilmiş və təmsil olunduqları sahələrdə bacarıqla yerinə yetirilmişdir. Beləliklə, Azərbaycanda elm və təhsil müstəqillik dövrünün yüksək idealları əsasında inkişaf etdirilərək, ölkəmizin ümumi yüksəlişinə xidmət göstərmişdir.

Akademik Akif Əlizadənin çıxışından: "Azərbaycan Respublikası müstəqillik əldə edəndə ağır günlər keçirib. Şükürlər olsun ki, Heydər Əliyev cənablarının səy və bacarığı nəticəsində xalqımız böhrandan çıxa bilmişdir... Siyasi sabitlik bərqərar olmuşdur.

…Neft kontraktları ilə əlaqədar tez-tez xaricdə oluram. Orada ardıcıl olaraq şahidi oluram ki, dövlətimizin, respublikamızın böyük rəhbərinə nə qədər hörmət yüksəlmiş və get-gedə də yüksəlməkdədir.

31 yanvar 1997-ci il doğrudan da tarixi bir gündür. Möhtərəm Prezidentimiz Heydər Əliyevlə görüş zamanı onun nitqi hamımızı heyran etdi. Həmin çıxışda möhtərəm Prezidentimiz Elmlər Akademiyasına yüksək qiymət vermiş, müstəqil Azərbaycanın elmi haqqında əsaslı fikirlər irəli sürmüşdür.

…Tamamilə belə hesab edirəm ki, müstəqil Azərbaycan elmimizin strategiyası barədə düşünülməlidir… Təhsil və elm münasibətlərinə yenidən baxılmalıdır!!!"

Akademik Telman Əliyevin çıxışından:

"…Artıq 40 ildir ki, akademiyada işləyirəm. Bu 40 ilin müddətində ilk dəfə olaraq akademiyamızın, elmimizin strategiyasının belə düzgün qoyulmasının… şahidiyik… Bundan belə nəticə çıxartdım ki, əlimizi çırmayıb yeni formada işimizi qurmalıyıq… İndi akademiyada əsl işləmək şəraiti yaranıb. İndi bizim akademiya daha çox xeyir verə bilər. Biz islahat keçirməliyik… Biz gərək paylanmış informasiya sistemi yaradaq. Belə olduqda ümumdünya informasiya sistemlərinə qoşula bilərik."




Akademik Vasif Babazadənin çıxışından: "1990-cı illərin əvvəllərində Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdə olarkən akademiyanın qalıb-qalmaması haqqında söhbətlər gedirdi. Xalqın iradəsi ilə… Heydər Əliyev cənabları hakimiyyətə gələndən sonra bu cür hakimiyyətə son qoyuldu… 3 ilə yaxındır ki, cəbhə bölgələrində qan tökülmür. Azərbaycan artıq özünün müstəqil Konstitusiyasını qəbul edib. Lissabon Sammitində Azərbaycanın haqq sözü bütün dünyaya yayıldı".

Müxbir üzv Məsumə Məlikova: "31 yanvar EA-nın tarixində yeni səhifədir. Görüş bununla əlamətdardır ki, möhtərəm Prezidentimiz akademiyanın qarşısında mühüm vəzifələr irəli sürdü və elmin müxtəlif sahələri üzrə istiqamətləri müəyyən etdi.

…Hazırda respublikamız demokratik yol ilə inkişaf edir…. İlk dəfədir ki, Azərbaycan Respublikası beynəlxalq miqyasda öz yerini tutmuşdur. Hüquqi islahatlar keçirilir. Bütün bunlar Heydər Əliyev cənablarının xidmətləridir».

Göründüyü kimi, 31 yanvar 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyanın rəhbər heyəti və respublikamızın tanınmış alimləri ilə görüşü və həmin görüş zamanı dövlət başçımız tərəfindən irəli sürülmüş vəzifələr ölkə elminin və EA-nın inkişafında mühüm rol oynamışdır. Bu tarixi görüşdə və ondan sonra keçirilmiş Elmlər Akademiyasının ümumi yığıncağında aşağıdakı məsələlər həll edilmişdir:

***1. Elmlər Akademiyasının bağlanması, ləğv edilməsi haqqındakı fikirlərə son qoyulmuşdur.***

***2. Akademiyanın statusu məsələsi həll edilmişdir.***

***3. Ölkəmizin akademiya qurumuna Milli Elmlər Akademiyası statusu verilmişdir.***

***4. Müstəqillik şəraitində Akademiyanın yenidən qurulmasının zəruriliyi meydana qoyulmuş, bundan sonrakı dövr üçün əsas istiqamətləri müəyyən olunmuşdur.***

***5. Elmlər Akademiyasının müstəqil Azərbaycan dövlətimizin inkişafına xidmət etməsi xətti müəyyən olunmuşdur.***

***6. Elmlər Akademiyasının yeni inkişaf strategiyasının hazırlanması tapşırığı verilmişdir.***

***7. Azərbaycan alimlərinin müstəqil Azərbaycan dövlətinin rəhbərinin ətrafında daha sıx birləşdirilməsi təmin edilmişdir.***

***8. Nəhayət, 31 yanvar 1997-ci il tarixdə Prezident İqamətgahında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bir qrup elm adamlarının iştirakı ilə elmin və akademiyanın inkişafı ilə əlaqədar müəyyən etdiyi siyasi xətt, irəli sürdüyü müddəalar, qarşıya qoyduğu vəzifələr akademiyanın 7 fevral 1997-ci il tarixli ümumi yığıncağında ölkəmizin elmi ictimaiyyətinə, akademiya əməkdaşlarına çatdırılmışdır.***

***9. Elmlər Akademiyası yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.***

Ən nəhayət, Azərbaycan Elmlər Akademiyasının 7 fevral 1997-ci il tarixli iclasında gizli səsvermə ilə akademik Fəraməz Maqsudov EA-nın prezidenti seçilmişdir. Hesablama Komissiyasının sədri, Zoologiya İnstitutunun direktoru, akademik Musa Musayevin rəhbərliyi (üzvlər akademik Hacıbəy Sultanov, akademik Toğrul Şahtaxtinski) ilə aparılan səsvermədə iştirak edən 34 nəfər Akademiyanın həqiqi üzvündən 33 nəfəri akademik Fəraməz Maqsudovun lehinə, 1 nəfər isə əleyhinə səs vermişdir.

Elmlər Akademiyasının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə ünvanlanmış Müraciət həm dövlət başçısının ölkənin və elmin inkişafı sahəsindəki böyük xidmətlərinə verilən yüksək elmi qiymətin, həm Elmlər Akademiyasının minnətdarlıq borcunun ifadəsi və həm də alimlərimizin müstəqil Azərbaycan Respublikasının rəhbəri qarşısındakı yeni öhdəliklərinin bəyannaməsidir. Ümumi yığıncaqda akademik Bəkir Nəbiyevin səsləndirdiyi dərin məzmuna malik olan həmin tarixi müraciətdə deyilirdi:

**"Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev cənablarına Azərbaycan Elmlər Akademiyası Ümumi yığıncağı iştirakçılarının**

**M Ü R A C İ Ə T İ**

**Möhtərəm Prezident!**

Respublikamızın elmi ictimaiyyəti Sizin Elmlər Akademiyasının üzvləri ilə görüşünüzü tarixi bir hadisə kimi yüksək qiymətləndirir. Çoxdan gözlədiyimiz bu görüşdə Siz maddi sıxıntılar keçirən alimlərə yaşamaq və işləmək üçün maddi-mənəvi qarant verdiniz. Öz tarixi ənənələrini və nüfuzunu itirmək təhlükəsi altında olan, 1989-cu ildən bəri elmə dəxli olmayan bir para yarımçıq siyasətçilər, səriştəsiz rəhbərlər tərəfindən mənfi imici yaradılmış Akademiyanın cəmiyyətdə özünəməxsus rolunu və statusunu müəyyən etməklə elmimizin gələcək inkişafına zəmin yaratdınız. Sizin çox doğru olaraq qeyd etdiyiniz kimi, Azərbaycan Elmlər Akademiyası Azərbaycan dövlətinə mənsubdur və bilavasitə Respublika Prezidentinin tabeçiliyində olmalıdır.

Möhtərəm Prezident! Özünüzün dediyiniz kimi Akademiyanın 52 illik tarixinin yarısından çoxu Sizin həyatınız və rəhbərliyinizlə bağlı olmuşdur. Məhz Sizin rəhbərliyiniz dövründə Azərbaycan Elmlər Akademiyası dünya şöhrəti qazanmış, burada çalışan alimlər dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Bu gün Akademiyada çalışan istedadlı alimlərin bir çoxu Sizin xeyir-duanızla keçmiş SSRİ-nin ən nüfuzlu ali təhsil mərkəzlərində oxumuş, yüksək ixtisaslı kadrlar kimi Vətənə qayıtmışlar.

Hörmətli Prezident! Siz bu tarixi görüşdə müstəqil Azərbaycan Respublikasının Elmlər Akademiyasının strateji konsepsiyasının əsas istiqamətlərini müəyyən etdiniz. Xalqımızın müstəqillik şəraitində siyasi, iqtisadi və mənəvi sahələrdəki problemlərinin həllində alimin və elmin rolunun nədən ibarət olduğunu göstərdiniz. Sizin xalqımızın tarixinə, mənəvi mədəniyyətinə xüsusi diqqətiniz, iqtisadi çətinliklərə baxmayaraq bu sahələrin öyrənilməsinə, XIX–XX əsrlər tariximizin tədqiqinə xüsusi maddi təminat verməyiniz böyük vətəndaşlıq xidmətidir.

Elmlər Akademiyasının alimləri Sizin müdrik daxili və xarici siyasətinizi həmişə dəstəkləmişlər və bundan sonra da dəstəkləyəcəklər. Onlar bunu Respublikamızın həyatının ən çətin anlarında sübut etmişlər. Bütün Azərbaycan xalqı kimi alimlər də mövcud hakimiyyətə zidd qüvvələrin qanunsuz hərəkətlərini pisləmiş, xalqımızın seçdiyi Prezidenti qətiyyətlə dəstəkləmişlər.

Möhtərəm Prezident!

Elmlər Akademiyasının alimləri Sizin qayğı və diqqətinizdən ruhlanaraq Azərbaycan elminin inkişaf etdirilməsi və suveren, müstəqil Azərbaycan Respublikasının tərəqqisi üçün əllərindən gələni edəcəklər.

Sizə Azərbaycan xalqının rifahı naminə gərgin, yorulmaz fəaliyyətinizdə daha böyük uğurlar arzulayırıq!

AEA Ümumi Yığıncağının iştirakçıları, 7 fevral 1997-ci il".




Göründüyü kimi, Elmlər Akademiyası rəhbərliyi və elmi heyətinin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə 31 yanvar 1997-ci il görüşü akademiyanın inkişafında yeni tarixi mərhələnin – müstəqillik dövrünün əsaslarını, gələcək fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmişdir. Ona görə 31 yanvar 1997-ci il görüşü, yaxud müşavirəsi müstəqil Azərbaycan dövlətinin elm siyasətinin prioritetlərini meydana qoymuş mühüm hadisədir. Prezident Heydər Əliyevin sədrliyi ilə aparılan müzakirələr, qarşıya qoyulan vəzifələr Azərbaycan Elmlər Akademiyasının müstəqillik dərsləri kimi xüsusi əhəmiyyətə malikdir.

Bundan sonra Heydər Əliyevin imzaladığı 15 may 2001-ci il tarixli fərmanla akademiyaya Milli Elmlər Akademiyası statusu verilməsi ilə bu ali dövlət elmi təşkilatının Azərbaycan elminin keçmiş sovet ideologiyasının təsirlərindən ayrılaraq, xalqımızın milli maraqlarına və ölkəmizin dövlətçilik mənafelərinə xidmət etmək vəzifəsinə doğru istiqamətləndirilməsi məsələsi rəsmi şəkildə həll edilmişdir. Bu mənada Prezident Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyası haqqındakı 15 may 2001-ci il tarixli, 4844 saylı fərmanı Elmlər Akademiyasının tarixində və taleyində dönüş yaratmış dövlət qərarı kimi mühüm elmi və siyasi əhəmiyyətə malikdir. Məhz həmin fərmanla müstəqil Azərbaycan Respublikasında ölkəmizin və xalqımızın milli və dövlətçilik mənafelərinə xidmət edən akademiya yaratmaq quruculuğu başa çatdırılmışdır.

Ulu öndər Heydər Əliyev 15 may 2001-ci il tarixdə imzaladığı fərmanla bundan əvvəlki rəhbərliyin təsdiq etdiyi "Azərbaycan Elmlər Akademiyasının statusu haqqında" 15 may 1991-ci il tarixli sərəncamın mətnində qeyd edilmiş akademiyanı ölkədən təcrid edilməyə aparan, müstəqillik dövrünün dərk olunmamış eyforiyasından doğan "müstəqil" ifadəsini "milli" sözü ilə əvəz etməklə və "ali dövlət elmi təşkilatı" ifadələrini dövlət sənədi səviyyəsində rəsmiləşdirməklə Elmlər Akademiyasının müstəqillik dövründəki strategiyasını müəyyən etmişdir.

Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyası haqqında"kı 15 may 2001-ci il tarixli fərmanın preambula hissəsində öz əksini tapmış müddəalar və əsas istiqaməti müəyyən edən ayrıca maddə də ifadə olunan mətləblər Azərbaycan elminin və Elmlər Akademiyasının müstəqillik dövründəki gələcək inkişafının əsas mahiyyətini və istiqamətlərini özündə əks etdirir. Fərmanda deyilirdi: "Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanılması, gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyəti ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi tədqiqatların əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin həyata keçirilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə qərara alıram:

***1. Azərbaycan Elmlər Akademiyasının ali dövlət elmi təşkilatı olduğunu nəzərə almaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırılsın.***

***2. Azərbaycan Elmlər Akademiyası bir ay müddətində Akademiyanın Nizamnaməsinin layihəsini, onun strukturu ilə, habelə elmi potensialından və tərkibindəki müəssisələrin maddi-texniki bazasından istifadə olunmasının effektivliyinin artırılması ilə bağlı təkliflərin hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.***

***3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.***

***4. Bu fərman imzalandığı gündən qüvvəyə minir.***

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 may 2001-ci il, №4844".**

Bütün bunlara görə Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyası haqqında" 15 may 2001-ci il tarixli fərman Milli Elmlər Akademiyasının müstəqillik dövrünün fəaliyyət proqramı və yol xəritəsidir. Bundan sonra görkəmli dövlət xadimi Heydər Əliyev 4 yanvar 2002-ci il tarixdə "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" fərmanı imzalamaqla "ali dövlət elmi təşkilatı" statusu verdiyi akademik qurumun müstəqillik epoxasındakı fəaliyyətini yeni üfüqlərə çıxarmışdır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurub-yaratdığı möhtəşəm Azərbaycanda cəmiyyət həyatının bütün sahələri ilə yanaşı, Milli Elmlər Akademiyasının və ölkə elminin qarşılıqlı surətdə yeni tarixi mərhələdə müasir tələblər səviyyəsində inkişafı üçün geniş perspektivlər açılmış, müasir dövrün reallıqlarından doğan məsul vəzifələr müəyyən edilmişdir. Hazırda Milli Elmlər Akademiyası öz fəaliyyətinin yeniləşmə dövrünün reallıqları mərhələsini yaşayır. Prezident İlham Əliyevin müəyyən etdiyi yeni tarixi mərhələnin ümummilli idealları və dünyaya inteqrasiya prosesinin prioritetləri Milli Elmlər Akademiyasının fəaliyyətini istqamətləndirən əsas prinsiplərdir. Azərbaycan alimləri, Milli Elmlər Akademiyasının kollektivi Prezident İlham Əliyevin rəhbərliyi ilə elmimizin və ictimai fikrimizin ölkəmizin inkişafına daha fəal surətdə xidmət göstərmələri üçün məsuliyyətlə çalışmaqda davam edirlər.

# Dünya siyasətində iz qoymuş şəxsiyyət

**Tarixin hər anı öz şəxsiyyətləri və onların fəaliyyətləri ilə yadda qalır. Bir sıra hallarda dahi şəxsiyyətlər öz cahanşümul fəaliyyətləri ilə cərəyan edən proseslərə, ictimai-siyasi hadisələrə təsir göstərərək, tarixin gedişatını dəyişdirməyə belə müvəffəq olurlar. İstər demokratik cəmiyyətlərdə, istərsə də totalitar mahiyyət daşıyan sistemlərdə məhz dahi şəxsiyyətlər öz liderlik keyfiyyətləri ilə önə çıxaraq, zəmanəsinin çətin anlarında xalqın tale yükünü öz çiyinlərinə alır və fədakar fəaliyyətləri sayəsində cəmiyyəti ağır sınaqlardan çıxararaq onu tərəqqiyə doğru aparırlar.**

Azərbaycan xalqının bəxti onda gətirib ki, Tanrı onun qismətinə dünyanın ən güclü şəxsiyyətlərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevi bəxş edib. Heydər Əliyev istər totalitar sovet rejiminin sərt qadağaları çərçivəsində, istərsə də müstəqil Azərbaycan dövlətinin ağır sınaqlarla üzləşdiyi bir şəraitdə millətin lideri kimi ona rəhbərlik yükünü öz üzərinə götürərək, ümummilli lider statusuna və adına layiq olduğunu təsdiq etmiş və xalqın yaddaşında əbədi qalmaq hüququ qazanmışdı.

Hələ sovet Azərbaycanına rəhbərlik etdiyi zaman bir çox xarici tarixçilər, siyasətçilər, analitiklər onun başqa sovet rəhbərlərindən fərqli mübarizliyi, kreativliyi, rejimin mahiyyətindən irəli gələn məhdudiyyətləri dəf edərək qarşıya qoyduğu məqsədlərə necə nail olmağın strategiya və taktikasına malik bir lider olduğunu sezmişlər. Düzdür, o zamanlar hansısa liderin qeyri-adi idarəçilik keyfiyyətləri haqqında açıq danışmaq qəbul edilməsə də, siyasi kuluarlarda onun gələcəyin əsas fiqurlarından biri olacağı haqqında söhbətlər gedirdi. Bir sovet respublikası çərçivəsində xalqın sosial-iqtisadi problemlərini uğurla həll etməsi, korrupsiya, rüşvətxorluq, tayfabazlıq və bu kimi digər qanunsuz əməllərə qarşı mübarizə aparması qısa müddət ərzində öz respublikasını sovet respublikaları arasında öncüllər sırasına çıxarması onun liderlik keyfiyyətlərinin heç də tam olmayan təzahürü idi. Bəziləri Heydər Əliyevin əldə etdiyi müvəffəqiyyətləri sovet rəhbərliyi, xüsusən Brejnev və Andropovla şəxsi yaxınlığı ilə izah etməyə çalışsalar da, əslində, onun liderliyini dolayı yolla da olsa etiraf etməyə məcbur idilər. Yüksək natiqlik qabiliyyəti, siyasi opponentlərlə dil tapmaq bacarığı, hamı ilə söhbətə körpü salmaq məharəti onu bir siyasətçi kimi başqalarından fərqləndirirdi. Heydər Əliyevin Meksikaya, Suriyaya, Vyetnama sovet nümayəndə heyətinin rəhbəri kimi səfərləri, keçirdiyi çoxsaylı görüşləri bu gün də bir çoxlarının yaddaşında silinməz izlər buraxmışdır.

Sovet rəhbərləri arasında o, təkcə tükənməz enerjisi, işgüzarlığı və iş görmək bacarığı ilə deyil, həm də müasir siyasətçilər üçün mühüm əhəmiyyət kəsb edən səliqəli geyimi, təbəssümü, dinləmək və öz fikrini lakonik formada çatdırmaq qabiliyyəti ilə də fərqlənirdi.

1982-ci ildə Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsini bir çox xarici kütləvi informasiya vasitələri və analitikləri, əslində, çox təbii və qanunauyğun bir hadisə kimi qarşıladılar. Dünya siyasi fikrində Brejnev, Andropov və Çernenko kimi qoca və əldən düşmüş liderlər fonunda Heydər Əliyev, doğrudan da, Sovet dövlətinin gələcək rəhbəri kimi nəzərdən keçirilirdi. Lakin sovet sisteminin yazılmamış qanunlarını da onlar yaxşı bilirdilər. Heydər Əliyev kimi bir müsəlman türkünün rəhbərliyə gətirilməsi bu yazılmamış qanunlara meydan oxumaq demək idi. Biz bunu M.Qorbaçov, M.Rıjkov, E. Liqaçov, P.Romanov, M.Qrişin kimi o dövrün ehkamçı liderlərinin Heydər Əliyevə münasibətlərində sezirik. Lakin belə bir ziddiyətli və mürəkkəb siyasi şəraitin yaratdığı məhrumiyyətlərə baxmayaraq Heydər Əliyev yeni vəzifəsində də qeyri-adi keyfiyyətlərini göstərə bilmiş, o vaxt sovet sistemi daxilində ayrı-ayrı sahələrdə həyata keçirilmiş, islahatların təşəbbüskarı və icraçısı olmuşdur. O, təhsil, mədəniyyət, tibb, nəqliyyat və digər sahələrdə mövcud olmuş problemləri açıq şəkildə dilə gətirərək planlı iqtisadiyyatın prinsiplərinə uyğun olaraq bu məsələlərin həllinin konkret yollarını müəyyənləşdirmişdir.

Həmin dövrdə bir sıra dünya kütləvi informasiya vasitələrində Heydər Əliyevin fəaliyyəti təqdir edilir və o, sovet sisteminin ən bacarıqlı rəhbərindən biri kimi qiymətləndirilirdi. Bu isə təbii ki, köhnə təfəkkürlü sovet rəhbərləri arasında çox qısqanclıqla qarşılanırdı.

Heydər Əliyevin sovet rəhbəri kimi fəaliyyətinin müəyyən mərhələsi (1985-1987) M.Qorbaçovun elan etdiyi "yenidənqurma" illərinə təsadüf edir. Heydər Əliyev dəfələrlə özünün də etiraf etdiyi kimi M.Qorbaçovun sovet rəhbərliyinə gətirilməsini, onun yeni siyasi xəttini dəstəkləmiş, müdafiə etmişdir. Yenidənqurmanın ilk illərində Heydər Əliyev bütün bilik və bacarığını "Yeni siyasi təfəkkürün və aşkarlığın" gerçəkləşdirilməsinə sərf etmiş, lakin tezliklə irəli sürülən kursun avantürist mahiyyət kəsb etdiyini, ölkədə və cəmiyyətdə ciddi böhrana gətirib çıxardığını dərk edərək bu siyasətin yanlışlığını açıq ifadə etmişdi. Əvəzində M.Qorbaçov və onun tərəfdarları Heydər Əliyevin bu prinsipial mövqeyini "köhnələrin müqaviməti" kimi cəmiyyətə və dünya ictimaiyyətinə sırıyaraq, onların yeniliklərə qarşı çıxdıqlarını bəhanə gətirərək onu rəhbərlikdən uzaqlaşdırmağa nail oldular.

Yeri gəlmişkən bu işdə, heç şübhəsiz, dünya erməni lobbisi də az rol oynamadı. Məhz Fransada və digər ölkələrdə yaşayan nüfuzlu ermənilər Raisa Qorbaçovanın vasitəsilə M.Qorbaçova təsir göstərərək, Heydər Əliyevi siyasi rəhbərlikdən uzaqlaşdırmağa müvəffəq oldular.

1987-ci ilin oktyabrında Heydər Əliyev



istefaya göndərildikdən sonra dünya erməni lobbisinin və sovet rəhbərliyində təmsil olunan ermənilərin əl-qolu açıldı və onlar dərhal Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün açıq fəaliyyətə başladılar. Eyni zamanda, dünya ermənilərinin təsiri altında olan M.Qorbaçov və onun ətrafı Heydər Əliyevə qarşı müxtəlif təzyiqlər göstərir, onun fiziki məhvinə çalışırdılar. Belə çətin şəraitdə Heydər Əliyevi labüd ölüm təhlükəsindən onun öz xalqına sevgisi və xalqın rəhbərə olan etimadı xilas etdi.



1991-1992-ci illərdə müstəqillik əldə etmiş Azərbaycanda bəlkə də ən ağır vəziyyət Naxçıvan Muxtar Respublikasında yaranmışdır. Bu qədim türk diyarı Ermənistanın işğalı və real məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır şəraitdə Naxçıvan bölgəsini Heydər Əliyev dühası, dünya səviyyəsində etiraf olunan diplomatik və siyasi qabiliyyəti xilas etdi. Muxtar respublikanın ağır günlərində ona rəhbərliyi öz üzərinə götürmüş Heydər Əliyevin dünya liderləri ilə təmasları, istər Naxçıvanda, istər Bakıda xarici ölkələrin diplomatları ilə keçirdiyi çoxsaylı görüşlər, qonşu Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası ilə yaratdığı qarşılıqlı əlaqələr Ulu öndərin yüksək diplomatik qabiliyyətini üzə çıxardı.

Naxçıvan MR-ə rəhbərlik etdiyi qısa müddət ərzində (təqribən 22 ay) bütün siyasi, diplomatik imkan və vasitələrdən istifadə edərək yerli və xarici müxbirlərə verdiyi çoxsaylı müsahibələrində Azərbaycanın bu kiçik torpağının yaşadığı problemləri bütün dünya ictimaiyyətinə məharətlə çatdırmağa nail olmuşdu. O, Ermənistan rəhbərliyini Naxçıvana təcavüzün elə Ermənistan üçün ağır nəticələrə gətirib çıxaracağını müdrikcəsinə anlatmağa nail olmuşdur.

Beləliklə, Heydər Əliyevin yüksək siyasi, diplomatik keyfiyyətləri bu müqəddəs diyarı real işğal təhlükəsindən xilas etmişdi. Yeri gəlmişkən 1991-1993-cü illərdə nəinki Rusiya, Türkiyə və İranın eləcə də, başqa ölkələrin kütləvi informasiya vasitələrində Heydər Əliyevin Naxçıvana məharətlə rəhbərlik etdiyini , onun çoxşaxəli fəaliyyətinin bu kiçik diyara sığmadığını etiraf edirdilər. Ölkədə baş verən sonrakı proseslər bu fikrin həqiqiliyini bir daha sübuta yetirdi.

1993-cü ilin yayında Azərbaycanda yaranmış siyasi böhran müstəqil dövlətçiliyin süqutu təhlükəsini yaratmışdır. Yenə də bu şəraitdə Azərbaycan xalqı öz dahi xilaskarına müraciət edərək onu köməyə çağırdı. Məhz belə ağır şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda sabitliyi təmin etməyə nail oldu, ölkəmiz qarşısında duran taleyüklü dövlət quruculuğu məsələlərini uğurla həyata keçirdi.

Ümumiyyətlə, 1993-cü ildən sonra Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə göstərdiyi çoxşaxəli fəaliyyət, müstəqil dövlətin xilası üçün atdığı addımlar dünya siyasətşünaslığının mühüm səhifəsini təşkil edir. Heç bir siyasi və hərbi qüvvəyə malik olmayan Heydər Əliyev yalnız və yalnız diplomatik və siyasi istedadı, qeyri-adi rəhbərlik qabiliyyəti, təcrübəsi və müdrikliyi sayəsində öz ölkəsini onu gözləyən təhlükələrdən xilas etdi. Respublikaya rəhbərliyi dövründə Heydər Əliyev dünya siyasətinin və beynəlxalq münasibətlərin ən nüfuzlu nümayəndələrindən birinə çevrildi. O, öz nüfuzu sayəsində dünyanın iri dövlətləri və güc mərkəzlərinin maraqlarını öz ölkəsinin maraqları ilə uzlaşdırmağa müvəffəq oldu, dünya birliyində Azərbaycanla bağlı mövcud olmuş yanlışlıqları aradan qaldıraraq, Azərbaycanı dünyaya tanıtdı. Buna birinci növbədə Heydər Əliyevin dünya siyasətini və beynəlxalq münasibətləri yaxından bilməsi, "dünyanın üzünü" yaxşı tanıması, eyni zamanda dünya liderləri ilə ünsiyyət qurmaq bacarığı sayəsində nail olmuşdu. Təsadüfi deyil ki, 90-cı illərdə dünyanın aparıcı dövlətlərinə rəhbərlik etmiş C.Buş, F.Mitteran, J.Şirak, S.Dəmirəl, Ə.Rəfsəncani və başqaları Ulu öndər haqqında xoş sözlər danışır, onunla tanışlıqdan, söhbət etməkdən məmnun olduqlarını etiraf edirdilər.

Dünyanın aparıcı dövlət rəhbərləri ilə çoxsaylı görüşləri, BMT, ATƏT, AŞ, MDB, İKT və sair beynəlxalq təşkilatların tribunalarından çıxışları zamanı Heydər Əliyev Azərbaycanın başlıca problemi olan Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və tarixindən bəhs edərək dünya ictimaiyyətini münaqişənin dinc yolla, beynəlxalq hüquq normaları əsasında həllinə çağırırdı. Məhz Heydər Əliyevin dünya miqyaslı fəaliyyəti nəticəsində Azərbaycan həqiqətlərini, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərini dünya ictimaiyyəti daha dərindən dərk etməyə başlamış, bir çox beynəlxalq və regional təşkilatlar ölkəmizin ərazi bütövlüyünü təsdiqləyən bəyanat və sənədlər qəbul etmişlər.

Ulu öndər öz siyasi bacarığı ilə dünyanın ermənipərəst mövqeyini heç zaman gizlətməyən bir sıra liderlərinin mövqelərini dəyişdirməyə, onları Azərbaycanı tam dəstəkləməsələr də Dağlıq Qarabağ münaqişəsində, heç olmasa, neytral mövqe tutmağa vadar etmişdir.

Bu gün Azərbaycanın Qarabağ münaqişəsini birdəfəlik həll etməsi, öz ərazi bütövlüyünü təmin etməsini Heydər Əliyevin həmin illərdə beynəlxalq səviyyədə apardığı gərgin fəaliyyətin nəticəsi kimi də qəbul etmək olar. Hazırda bu dahi insanın öz zəmanəsinin böyük siyasətçisi və diplomatı olması hamı tərəfindən qəbul edilən aksiomdur. Bu baxımdan, zənnimizcə, Heydər Əliyev bəşər tarixinin görkəmli simaları sırasında ön yerlərdən birini tutmağa layiqdir.

2020-ci ildə Azərbaycanın Qarabağ müharibəsində qazandığı hərbi zəfər sonrakı illərdə siyasi və diplomatiya sahəsində əldə etdiyi uğurlar, eyni zamanda, Heydər Əliyevin vaxtında hərbi və müdafiə sahəsində atdığı addımların müdrikliyinin və uzaqgörənliyinin təzahürüdür. Bu həm də onun simasında siyasi liderliyin, diplomatiyanın və sərkərdəliyin sintezinin təcəssümü kimi qeyd oluna bilər. Əslində, dünya tarixi üç keyfiyyəti özündə birləşdirən tək-tək lideri və xadimi bizə nümunə göstərə bilər.

Doğrudur, dünya tarixində Makedoniyalı İskəndər, Əmir Teymur, Çingiz xan və ölkələr fəth etmiş digər sərkərdələr, hökmdarlar da iz qoymuşlar. Amma onların mütləq əksəriyyəti öz uğurlarına silah gücünə, böyük ordular yaratmaqla nail olmuşlar. Heydər Əliyevin fenomenliyi isə ondadır ki, o Azərbaycanı üzləşdiyi bəlalardan yalnız öz siyasi müdrikliyi və diplomatik məharəti sayəsində xilas etmişdir.

Heydər Əliyev dünyanın ən müxtəlif kürsülərindən sülhü və əmin-amanlığı təmin etmək, münaqişələri dinc yolla nizamlamaq haqqında çağırışlar etmiş, bu zaman böyüklüyündən və kiçikliyindən, hərbi gücündən və iqtisadi qüdrətindən asılı olmayaraq, bütün ölkələrin hüquqlarına hörmət edilməsini beynəlxalq gündəliyin əsas vəzifəsi kimi dəfələrlə vurğulamışdır. Bu mənada onun yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətini təkcə öz xalqına deyil, bütün dünyaya ünvanlanmış qlobal manifest kimi də dəyərləndirmək olar.

Heydər Əliyev dünya şöhrətli siyasətçi kimi təkcə qlobal problemlərlə bağlı çağırışlar etməklə kifayətlənməyərək, bu problemlərin əməli həlli istiqamətində konkret təşəbbüslərlə də çıxış etmişdir. Bu baxımdan dahi liderin "Ümumqafqaz evi"nin yaradılması Qərb və Şərq arasında mədəniyyətlər və sivilizasiyalararası dialoq təşəbbüsləri türk birliyi ideyası və s. bu gün də əhəmiyyətini saxlamaqdadır.

Dünyamiqyaslı siyasətçi bəşəri problemlərin həllini xalqlar arasında təmasların genişlənməsində görür, öz fəaliyyəti ilə bu missiyanı gerçəkləşməsinə çalışırdı. Bu baxımdan onun Azərbaycanın unikal geosiyasi və tarixi mənəvi mövqeyi haqqında mülahizələri ümumbəşəri əhəmiyyət kəsb edir. O, daim Azərbaycanın mədəni və mənəvi dəyərlərinin dünyada tanıdılmasına, eyni zamanda, ümumbəşəri dəyərlərin Azərbaycan xalqı tərəfindən əxz edilməsinə mühüm vəzifə kimi baxırdı. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizdə keçirilmiş çoxsaylı beynəlxalq tədbirlər məhz bu məramın gerçəkləşməsinə xidmət edirdi. Bu gün ölkə prezidenti İlham Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda keçirilən beynəlxalq səviyyəli müxtəlif mədəni və humanitar forumlar, o cümlədən "Bakı forumu" ölkəmizin bu missiyanı ləyaqətlə yerinə yetirdiyini bir daha təsdiq edir.

Heydər Əliyevi dünya siyasətçisi kimi səciyyələndirən digər mühüm amil onun beynəlxalq iqtisadi münasibətlər sisteminin inkişafı istiqamətində atdığı addımlardır. O, prezidentliyinin ilk günlərindən başlayaraq qarşılıqlı iqtisadi münasibətlərin inkişaf etdirilməsi, dünyanın aparıcı dövlətləri, transmilli şirkətləri ilə əlaqələrin yaradılması, Azərbaycana xarici investisiyaların cəlb edilməsi ilə bağlı genişmiqyaslı təşəbbüs və layihələrin icrasına nail olmuşdur. Bu baxımdan onun ölkəmizin enerji ehtiyatlarının Azərbaycan xalqının mənafeyi naminə istifadə edilməsi üçün gördüyü işlər – "Əsrin müqaviləsi"nin imzalanması, Bakı – Tbilisi – Ceyhan neft kəmərinin çəkilməsi, Azərbaycan neft-qazının dünya bazarına çıxarılması üçün konsorsiumların yaradılması öz mahiyyəti etibarilə milli sərhədləri aşan dünyamiqyaslı beynəlxalq iqtisadi layihələr idi. Əslində, Azərbaycan bu layihələri əməli şəkildə həyata keçirməklə nəinki öz iqtisadi problemlərinin həllinə nail olmuş və iqtisadi təhlükəsizliyini təmin etmiş, həm də özünün əsas problemi olan Dağlıq Qarabağ probleminin həllinin zəminini yaratmışdır.

Ulu öndərin rəhbərliyi altında həyata keçirilmiş bu iqtisadi lahiyələr, eyni zamanda, regional və beynəlxalq təhlükəsizliyin, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm amil olmuşdur. Bunu, bu gün Rusiya – Ukrayna müharibəsi fonunda Avropa liderlərinin Azərbaycanın qitənin enerji təhlükəsizliyində böyük rol oynaması ilə bağlı etirafları təsdiq edir.

Bütün bunlar Heydər Əliyevin ümumdünya iqtisadi fikrinin ən parlaq simalarından biri olmasının təcəssümüdür. Artıq hər kəsə bəllidir ki, bu gün Cənubi Qafqaz bölgəsində heç bir qlobal problem Azərbaycanın iştirakı olmadan öz həllini tapa bilməz.

Azərbaycanın nüfuzu, getdikcə artan iqtisadi və siyasi gücü hamı tərəfindən etiraf olunur. Artıq Azərbaycan bir çox dünya və beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edir, həm də bu layihələrin həyata keçirilməsinə öz töhfələrini verir. Bu il Azərbaycan dünyanın ən böyük və mühüm tədbirlərindən biri olan COP29-a ev sahibliyi etdi və bu tədbir uğurla reallaşdırıldı. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Konfransda qəbul edilmiş qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna əhəmiyyət daşımaqla yanaşı, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha dünyaya göstərdi. Eyni zamanda, son vaxtlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavab oldu.

Bütün bunlar Heydər Əliyev siyasi irsinə sadiqliyin, onun siyasi strategiyasının uğurla həyata keçirilməsinin bariz nümunəsidir. Artıq bu strategiya öz əhəmiyyəti və miqyası etibarilə milli çərçivələri aşaraq, ümumbəşəri qlobal mahiyyət daşıyır.

***Ədalət QASIMOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru***

*İlk dəfə XQ-də*

**Ötən sayımızda ABŞ-ın Los-Anceles şəhərində işıq üzü görən “Azerbaijan International” jurnalının baş redaktoru, ölkəmizin dostu Betti Bleyerin 5 dekabr 1999-cu ildə Azərbaycan Prezidenti Heydər Əliyevdən aldığı və həmin nəşrin 1999-cu il saylarında ingilis dilində dərc edilmiş “İyirminci əsrdə geriyə baxış: şəxsiyyət və peşəkarlıq” adlı müsahibənin tərcüməsini oxucularımıza təqdim etdik. Tarixi çap materialının böyük maraqla qarşılandığını nəzərə alıb xanım Betti Bleyerin Azərbaycanın Ümummilli liderindən 1996-cı il aprelin 4-də aldığı müsahibənin də ana dilimizdə mətnini ilk dəfə dərc edirik.**

# *Heydər Əliyev:* “Mən istəyirəm ki, bizim ölkəmiz güclü və müstəqil olsun!”

## *Heydər Əliyevin birinci prezidentlik dövrü*

**Betti Bleyer:** Azərbaycanla maraqlanan hər kəs bilir ki, siz prezident seçildikdən sonra ölkədə çox böyük və əhəmiyyətli dəyişikliklər baş verib. Azərbaycan beynəlxalq neft şirkətləri ilə zəruri müqavilələr imzalayıb, yeni Konstitusiya qəbul edib, yeni Parlament seçib və Bakıda nəzərəçarpacaq dərəcədə böyük tikinti və bərpa işləri vardır. Sizin fikrinizcə, prezidentlik dövrünüzün ilk üç ili ərzində başqa hansı mühüm hadisələr baş vermişdir?

**Heydər Əliyev:** Sizin qeyd etdiyiniz kimi, Azərbaycanda böyük dəyişikliklər baş vermişdir. Ancaq mən deməliyəm ki, bütün bu dəyişikliklərin ən mühüm nəticəsi bizim respublikada yaratdığımız sabitlikdir. Sabitlik həyati vacib bir nailiyyətdir. Ermənilərlə faktiki olaraq atəşkəsə nail olunub. Hal-hazırda biz müharibə vəziyyətində deyilik. Biz altı il ərzində ərazimizi müdafiə etməyə məcbur edildiyimiz bir vaxtda - qantökülmənin kulminasiya nöqtəsinə çatdığı vaxtda atəşkəsə nail olmuşuq. İki ildir ki bu davam edir. Bütün döyüşlər, bütövlükdə Azərbaycan torpağında baş verib. İnsanlar hər gün müharibədə ölürdü. Beləliklə, atəşkəs bizim üçün böyük nailiyyətdir.

Əlbəttə, 20 faiz torpaqlarımız erməni silahlı qüvvələri tərəfindən indiyədək işğal olunub. Əhalimizin bir milyonu hələ də qaçqındır, onlar məhz öz vətənlərində öz evlərindən köçürüldülər. Həmin faciəvi faktlar bu gün mövcuddur, doğrudur, onlar bu hadisələri mən prezident seçilməzdən əvvəl etdilər. Ancaq bu keçmişdə üçqat faciə idi: bizim köçürülən əhalimizin faciəsi, işğal altında olan ərazimizin faciəsi və həqiqətdə qurtarmayan müharibənin faciəsi. Öz torpağımızda erməni təcavüzü ilə üzləşəndən, 1988-ci ildən bəri bizim vəziyyətimiz bu cür olmuşdu.

Müharibənin gətirdiyi mürəkkəbliklərlə yanaşı, respublikada bir-biri ilə hakimiyyət uğrunda mübarizə aparan müəyyən qruplar var idi. Və təkcə bu fakt ixtişaşa və sabitliyin pozulmasına səbəb oldu. Soyğunçuluq, qətl və oğurluq halları artdı. 1994-cü ildə müəyyən silahlı qruplar dövlət çevrilişinə cəhd etdi və 1995-ci ildə hakimiyyəti ələ keçirmək üçün başqa bir çevriliş cəhdi bir qrup polis tərəfindən təşkil edildi. Dövləti qorumağın əvəzinə, onlar silahlarını dövlətə qarşı çevirdilər. Baxmayaraq ki, bu şəxslər polis sistemində idi, bu insanların özlərinin əksəriyyəti cinayətkarlar idi. Onlar qarət edirdilər və pula görə insanları öldürürdülər, uşaqları oğurlayır və girov götürülmüş şəxsi geri qaytarmaq üçün hədələyib pul alırdılar.

Siz iki il əvvəl burada idiniz, beləliklə, siz o vaxt mövcud olan vəziyyətlə bugünkü vəziyyəti müqayisə edə bilərsiniz. Silahlanmış cinayətkarlar küçələri gəzirdi. İndi insanların istədikləri vaxtda küçədə gəzməsi üçün tamamilə əmin-amanlıqdır. Beləliklə, biz respublikada siyasi və sosial sabitliyi pozmağa cəhd etmiş o qüvvələrin qarşısını almağı bacardıq.

Sabah (aprelin 5-də) biz son iki il ərzində Azərbaycanda baş vermiş sosial və siyasi hadisələrin səbəblərini təhlil etmək məqsədilə Respublika Sarayında ümumi yığıncaq keçirməyə hazırlaşırıq. Biz gələcəkdə belə hadisələrin təkrar olunmaması üçün tədbirlər müəyyən etmək istəyirik. Cəmiyyətin bütün təbəqələrini təmsil edən 2500-dən çox nümayəndə görüşdə iştirak edəcək. Müxalifət də daxil olmaqla, bütün siyasi partiyalar iclasda iştirak edəcək.

Sabitlik çox vacibdir. Sabitlik olmadan, ölkə xarici şirkəti cəlb edə bilməz. Mən Azərbaycana xarici investisiyanı



gətirmək istəyirəm. Azərbaycanda yaratdığımız sabitlik xarici sərmayədarlara bizimlə bağlı maraqlarını ifadə etməyə imkan vermişdir. Əgər biz sabitliyə nail olmasaydıq, yeni Konstitusiyamızı qəbul edə bilməzdik və yeni demokratik Parlamenti seçə bilməzdik. Bunlar bizim üçün yeni müstəqil respublikamızda ilk nailiyyətlərin bəziləridir. Sabitlik ötən iki ildə bizim ən böyük nailiyyətlərimizə səbəb olub.

**Betti Bleyer:** Bizim jurnalımızda bu ötən dörd ildə müxtəlif mədəni və ziyalılarla bağlı buraxılışlarda məsələn, ədəbiyyat, incəsənət və musiqini sistemli şəkildə öyrənmişik. İndi biz elmdəki əsas töhfələrin bəzilərini tədqiq edirik. Mən həmişə azərbaycanlıların bu sahələrdə nailiyyətlərinin səviyyəsindən heyrətlənmişəm. Belə yüksək səviyyələr Sovet dövründə əldə edilib.

Bu gün intellektual töhfələr verən insanlar ciddi iqtisadi çətinliklərlə üzləşir. Əlbəttə, siz məndən daha yaxşı bilirsiniz ki, bir çoxları ölkəni tərk etməli olmuşdur və sadəcə ailələrini dolandırmaq məqsədilə, hətta daha çox öz sənətlərilə deyil, müxtəlif başqa fəaliyyətlərlə məşğul olmuşdular. Sizə sualım budur ki, respublikada intellektual və mədəni resursların bu xəzinələrini qorumaq üçün bu gün nəzərdən keçirilən konkret strategiyalar varmı?

**Heydər Əliyev:** Azərbaycanlılar çox istedadlıdır. Bizim bəzi çox istedadlı insanlarımız var. Elmin, ədəbiyyatın və incəsənətin inkişafına Azərbaycanda həmişə böyük diqqət göstərilmişdir. İstedadlı insanlar yaxşı ali təhsil almışlar və onlara qabiliyyətlərini nümayiş etdirmək üçün şərait yaradılmışdır. Mən əvvəl, 70-ci illərdə burada işləyəndə bu məsələlərə böyük diqqət göstərirdim. Biz o illər ərzində universitetləri, teatrları və konsert zallarını tikdik. İşləmək üçün sənətkarlara və ziyalılara əlverişli şərait yaradıldı.

Ancaq bu həqiqətdir ki, keçid dövründə bu istedadlı insanların potensialını optimallaşdırmaq çox çətin olmuşdur, çünki iqtisadi vəziyyət çətindir. Digər tərəfdən də 1989-1993 illərdə bu problemlərə çox diqqət göstərilmədi.

Əgər bu yaxınlarda mətbuatı izləmisinizsə, siz görə bilərsiniz ki, biz bu günlərdə nə qədər yubileylər keçirmişik. Azərbaycanda yubileylər bir şəxsin əldə etdiyi nailiyyətlərini qeyd etmək üçün çoxlu nitqlər, ziyafət və musiqi ilə təşkil edilən təntənəli tədbirlərdir. Yubileylər, adətən, şəxsin 50, 60 və 70 yaşı münasibətilə keçirilir. Əgər şəxsin nailiyyətləri böyükdürsə, cəmiyyət, adətən onun ölümündən çox sonralar yubileylərini qeyd etməyə davam edir.

Məsələn, mən şairlərin–mərhum Səməd Vurğunun və mərhum Süleyman Rüstəmin 90 illik yubileylərinin qeyd edilməsi haqqında fərmanlar imzaladım. Biz bu yaxınlarda mərhum müğənni Rəşid Behbudovun 80 illik yubileyini keçirmişik. Mərhum bəstəkar Üzeyir Hacıbəyovun xatirəsini böyük hörmətlə yad etdik. Biz iyirminci əsrin əvvəllərində “Molla Nəsrəddin” jurnalının redaktoru, böyük ədib Cəlil Məmmədquluzadənin 125 illik yubileyini dövlət səviyyəsində qeyd etdik. Sonra tarixçi Sara Aşurbəyli var idi, bu keçən yanvar 90 illiyində özü də iştirak etdi. Həmçinin biz mərhum rəssam Səttar Bəhlulzadənin anadan olmasının 85 illik və mərhum cərrah Mustafa Topçubaşovun 100 illik yubileylərini qeyd etdik. Üç il əvvəl heç kim xalqımıza belə güclü mədəni və intellektual töhfələri bəxş edən bu böyük şəxsiyyətlərə, ümumiyyətlə diqqət yetirmirdi.

Siz strategiyalar haqqında soruşdunuz. İki, yaxud üç il sonra mən əminəm ki, biz respublikada böyük iqtisadi müvəffəqiyyətə nail olacağıq. Biz iqtisadi cəhətdən güclü olan kimi, bu sahələrdə çalışan insanların iqtisadi vəziyyətini gücləndirmək üçün əlimizdən gələni edəcəyik. Bu gün mənim məqsədim onları mənəvi cəhətdən dəstəkləməkdir. Dövlət səviyyəsində kiminsə yubileyini qeyd etmək unudulmaz hadisə olur və o şəxsi qəhrəman səviyyəsinə yüksəldir, bir növ onun əməyi bir daha şərəfə və ehtirama layiq görülür. Yubileylər cəmiyyətimizə ən böyük və gözəl töhfələri bəxş etmiş insanların bəzilərinin yada salınmasına kömək edir.

**Betti Bleyer:** Bu il hər ikisi, Rusiya və Amerika Birləşmiş Ştatları prezident seçkiləri keçirirlər. Mənə elə gəlir ki, prezidentlərin hər ikisi, Yeltsin və Klinton Azərbaycandan “kiçik mənfəət əldə etmək” və təkrar seçilməyə nail olmaq üçün özlərinə kömək məqsədilə siyasi baxımdan istifadə etməyə cəhd edə bilərlər. Onların hər ikisi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh prosesində vasitəçilər kimi görünürlər. Siz onların, sadəcə öz siyasi məqsədləri üçün vəziyyətdən istifadə etməyə cəhd etdiklərinin və regionda uzunmüddətli sülhü təmin etməyi əslində istəmədiklərinin mümkünlüyünü düşünürsünüzmü? Bu haqda nə deyə bilərsiniz?

**Heydər Əliyev:** Siyasi məqsədləri başa düşmək həmişə çox çətindir. Hər ikisi–Rusiya və Amerika Birləşmiş Ştatları böyük dövlətlərdir və bu təbiidir ki, təkrar seçilmək istəyən hər bir kəs hamı tərəfindən tanınmağa və bəyənilməyə nail olmağa cəhd edərdi.

Hər şeydən əvvəl, deyə bilərəm ki, ümid edirəm prezident seçkiləri bu ölkələrin hər ikisində demokratik qaydada keçiriləcək. İkincisi, əgər kimsə fikirləşir ki, o, öz siyasi məqsədləri və gündəmdə qalması üçün Azərbaycandan istifadə edə bilər, o, səhv edir. Azərbaycan müstəqil ölkədir və biz kiminsə siyasi məqsədlərinə xalqımızı qurban verməyəcəyik.

**Betti Bleyer:** Xarici investisiya baxımından vacib qanunvericilik var ki, ya xarici investisiyanı qorumaq üçün tamamilə mövcud deyil, ya da o, hələ çox effektiv işləmir. Məsələn, verginin miqdarı. Beynəlxalq şirkətlərin bu ölkədə çoxlu problemləri və narahatlıqları var. Bu islahatlarla bağlı sizin planlarınız nədir?

**Heydər Əliyev:** 1996-cı ildə biz bu problemlərlə bağlı iclas keçirməyi planlaşdırırıq. Hər şeydən əvvəl, biz özəlləşdirmə prosesini sürətləndirmək niyyətindəyik. Bir neçə gün əvvəl biz kənd təsərrüfatında islahatlarla bağlı iclas keçirdik. Kənd təsərrüfatı azad bazar iqtisadiyyatı ilə əlaqəli olduğuna görə tezliklə kənd təsərrüfatı qurumlarında böyük dəyişikliklər müşahidə olunacaq. Biz yaxın gələcəkdə mülkiyyətin özəlləşdirilməsini şərtləndirən torpaq islahatları haqqında yeni qanun qəbul etməyi nəzərdə tuturuq. Bu, çox əhəmiyyətli qanun olacaq. Nəhayət, bu proseslər və tapşırıqlar həll edilir, verginin miqdarı kimi problemlər qaydasına düşəcək və həll etmək tamamilə asan olacaq.

Güclü, sabit bir ölkəni idarə etmək çox çətin deyildir. Ancaq kiçik və çoxlu problemləri olan ölkəni idarə etmək son dərəcə çətindir. Əgər daha az problem olsaydı, biz onları daha tez həll edərdik.



**Betti Bleyer:** Azərbaycanın Prezidenti kimi sizə ən böyük məmnunluğu gətirən şeylər hansılardır?

**Heydər Əliyev:** Həqiqətən, mən prezident olmaq istəmirdim. İnsanlar məndən prezident olmağımı ölkəni idarə etməyimi istədi. Mənim ən böyük narahatlığım, ən böyük marağım xalqdır. Mənim həqiqətən heç bir başqa narahatlığım yoxdur. Mənim heç bir başqa şəxsi marağım yoxdur. Mən istəyirəm ki, bizim ölkəmiz güclü müstəqil ölkə olsun! Mən özümə və Azərbaycana inanıram və bu inam məni əmin edir ki, indi üzləşdiyimiz çətinliklərin çoxuna xalq olaraq qalib gələcəyik.

***İngilis dilindən tərcümə etdi:***
***Süsənbər AĞAMALIYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Əbədiyaşar liderin ölməz məfkurə irsi

**AMEA Naxçıvan Bölməsində Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş elmi konfrans keçirilib.**

AMEA Naxçıvan Bölməsinin mətbuat xidmətindən “Xalq qəzeti”nə verilən məlumata görə, konfransdan öncə Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

“Əbədi yaşar lider” adlı konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Akademik çıxışında bildirib ki, Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi və qurucusudur. Xalqın yaddaşına əsl xilaskar kimi həkk olmuş Heydər Əliyev Ümummilli lider statusunu gərgin və uzaqgörən siyasi fəaliyyəti, Azərbaycanın sabahı üçün gördüyü mühüm işlərlə qazanmışdır.

Bölmə sədri Ümummilli liderin yüksək idarəçilik bacarığından, yürütdüyü uzaqgörən siyasətdən və həmin siyasətin bu gün ölkənin inkişafına bəxş etdiyi töhfələrdən söz açıb.

Məruzələrin təqdimatı ilə öz işinə davam edən konfransda İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev “Ümummilli lider Heydər Əliyev və Türk dünyasının inkişaf strategiyası”, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Vətənə və xalqa xidmətin nümunəsi”, Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov “Ulu öndər Heydər Əliyev və klassik irs” mövzusunda məruzə ediblər.

AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev Ümummilli liderin fəaliyyətində Türk dünyasının birliyi məsələsinin yerindən, türk dövlətləri arasında mədəni əlaqələrin genişləndirilməsi və türk xalqlarının mədəni-mənəvi birliyi məsələsi ilə bağlı həyata keçirdiyi işlərdən bəhs edib. Ulu öndərin İstanbul Bəyannaməsinin imza mərasimində söylədiyi nitqdən gətirdiyi nümunələr əsasında Heydər Əliyevin türk dövlətləri qarşısında müəyyənləşdirdiyi vəzifələri diqqətə çatdırıb. Bu gün daha da güclənən Türk dünyasının timsalında reallaşan Heydər Əliyev ideyalarından söz açıb.



AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev məruzəsində Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci və ikinci dövründə ölkədə baş verən inkişaf və yeniliklərdən danışıb.

Alim Heydər Əliyevin qanlı 20 Yanvar hadisəsinə verdiyi obyektiv qiyməti, nümayiş etdirdiyi qətiyyətli mövqeyi onun Azərbaycanın xilaskarı missiyasını uğurla yerinə yetirəcəyinə işarə kimi səciyyələndirib. Parçalanmaq təhlükəsi ilə üzləşən ölkənin xilası, Ermənistanla atəşkəsin imzalanması, neft strategiyası sahəsində görülən işlər, beynəlxalq investorların ölkəyə cəlb olunması, dünya dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artmasında Ulu öndərin mühüm rolunu vurğulayıb. Ömrünü xalqın gələcəyinə həsr etmiş dahi liderin azad, müstəqil Azərbaycanın işıqlı sabahı üçün gördüyü işlərdən bəhs edib. Heydər Əliyev ideyalarının bu gün də uğurla davam etdirildiyini dilə gətirib.

Filologiya elmləri doktoru Fərman Xəlilov “Ulu öndər Heydər Əliyev və klassik irs” mövzulu məruzəsində Ümummilli liderin mədəniyyətimizə, ədəbiyyatımıza qayğısından danışıb.

Məruzə Heydər Əliyevin “Kitabi – Dədə Qorqud” irsinin gələcək nəsillərə daha dolğun çatdırılmasını və tədqiqatçıların əsərdən istifadəsini təmin etmək məqsədilə imzaladığı sərəncam, dahi Azərbaycan şairi Nizami Gəncəvi irsinin tədqiqi, təbliği və mühafizəsi, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılması ilə bağlı görülən işlər və dahi şair Hüseyn Cavidin nəşinin Vətənə gətirilməsi kimi 4 mühüm məsələni əhatə edib. Fakt və mənbələrdən gətirdiyi nümunələr əsasında fikirlərini izah edən alim sonda Heydər Əliyev ideyaları əsasında irəliləyən Azərbaycanın müasir inkişafına nəzər yetirib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Milli varlığımızın misilsiz himayədarı

*Müsahibimiz Borçalının tanınmış ziyalısı, filoloq-alim Mahmud Kamaloğludur*

**Onunla Tbilisidə soydaşlarımızın sıx məskunlaşdığı məhəllədə Ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş parkda görüşdük. Mahmud müəllim bildirdi ki, Ulu öndərin özü kimi, adı və xatirə ünvanlı büstü də bu gün azərbaycanlıları eyni məramda birləşdirir:**



– Hər gün yolum buradan keçir və hər dəfə Heydər Əliyevin büstü önünə qoyulan tər gülləri görəndə bu ehtiramın xalqımızın Azərbaycan sevgisi qədər əbədi olacağına bir daha inanıram. Bura Tiflisdə soydaşlarımızın əsrlər boyu məskunlaşdığı tarixi məkandır. Ulu öndərin büstünün burada qoyulması da bu baxımdan rəmzi məna daşıyır və ərazi Heydər Əliyev parkı kimi tanınır. Burada başını qaldırıb hansı səmtə baxsan, ötən tariximizin silinməyən izlərinə şahid olursan. Qafqazın ən qaynar ticarət mərkəzi olmuş "Şeytanbazar", "Göy məscid"in qalıqları, "Narınqala" səmtində "Cümə məscidi", 150 illik tarixi olan Tiflis Azərbaycan Teatrı bu ərazidədir. "Nəbatat bağı"nda isə azərbaycanlıların qədim məzarlığı təkcə dünənimiz deyil, həm də şərəf duyduğumuz bir tarixin yadigarlarıdır.

Ulu öndər Heydər Əliyevin Gürcüstandakı zəngin tarixi irsimizə diqqət və qayğısı olmasaydı, bunlar da unudulub məhv edilərdi. Hələ sovet zamanı Moskvadakı və regiondakı nüfuzu ilə Ümummilli lider bu dağıdıcı prosesin qarşısını almışdı. Bu tarixi zənginliyin bu günümüzə gəlib çatması Ulu öndərin keçmişimizə sayğı-sevgisi ilə bağlıdır. Heydər Əliyev sovet rəhbərliyindən gedəndən sonra, Azərbaycanda 2-ci dəfə hakimiyyətə gələnədək Tbilisidə millətçi ünsürlər bir sıra milli abidələrimizi məhv etmişdilər.

**– Elə buna görə də dünyada yaşayan soydaşlarımız bu böyük insanı Ümummilli lider kimi qəbul ediblər.**

– 50 milyonluq xalqımızın qədim tarixi və sonrakı taleyi həmişə Ulu öndəri ciddi narahat edib. Bu tarixi yadigarların qorunub saxlanılması, eləcə də tanıdılmasının



tarixi önəmi var və Ulu öndər bunu və bu dəyərlərə sahib çıxmağın yollarını hamıdan yaxşı bilirdi. Vaxtilə dahi ədiblərimizin əsərlərində, tarixçilərin qeydlərində bu abidələr barədə bizə əhatəli məlumat çatıb. Amma bu zəngin irsin lazımi səviyyədə qorunması mümkün olmayıb. Ötən əsrin 50-ci illərində Metex qalası önündəki karvansaralar, Qafqazın ən gözəl camelərindən olan "Şah Abbas məscidi" Lavrenti Beriyanın əmri ilə dağıdılanda bunun qarşısını almaq mümkün olmayıb.

Tiflisdə salamat qalmış yeganə müsəlman ibadətgahı "Cümə məscidi" XVIII əsrin əvvəllərində osmanlılar dövründə inşa edilib, 3 əsr fəaliyyət göstərib, sonradan dağıdılıb. Şəhərin "Narınqala" səmtində qırmızı kərpicdən tikilmiş məscid iki mehrabı və 2 minbəri olan memarlıq abidəsidir. 1864-cü ildə Hacı Zeynalabdin Tağıyevin təmir etdirdiyi məscid son dəfə Ulu öndərin göstərişi ilə 1998-ci ildə bərpa olunub.

"Şeytanbazar" məhəlləsində əsrlər boyu Azərbaycan mədəni mühiti formalaşmışdır. A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, F.Köçərli, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyli, H.Cavid, A.Şaiq, M.Kirmanşahlı, Ə.Salahlı, M.Mərdanov, Z.Hacıbəyov, M.Şahtaxtlı, İ.İsfahanlı kimi onlarca görkəmli şəxsiyyətin, H.Ərəblinski, S.Ruhulla, E.Sultanov, Ü.Rəcəb, Ö.F.Nemanzadə, H.Minasazov kimi qeyrətli soydaşdaşlarımız bu mühiti sivil axarda zənginləşdirmişlər.

Bu mühitin milli mətbuatımızın və təhsilimizin formalaşmasında və inkişafında da xüsusi yeri olmuşdur. "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Molla Nəsrəddin" milli mətbuatımızın dəyərli nümunələri olmaqla, həm də Tiflis mühitinin yetişdirmələri idi. Milli tariximizi dərindən bilən Heydər Əliyev bütün bunlara yüksək dəyər verir və bu mühitin yadigarlarının qazanıb saxlanmasına çalışırdı. Bu missiya Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti olduğu illərdə də yenidən gündəmə gətirildi və dövlət siyasəti səviyyəsində həyata keçirildi.

**– Ulu öndərin Gürcüstan azərbaycanlıları qarşısında xidmətləri onun həyat və mübarizəsinin taleyüklü yönüdür.**

– Əlbəttə, bu işlər o qədər ardıcıl və böyük olub ki, onları görməmək və dəyərləndirməmək mümkün deyil. Heydər Əliyevin bu missiyası da xalqın məhəbbəti oldu. Ulu öndərin Gürcüstan azərbaycanlıları qarşısında xidmətləri unudulası tarix deyil. Bu onun hakimiyyətinin həm 1-ci, həm də 2-ci dövründə özünü birmənalı təsdiqləyib. Hələ sovetlər dövründə Azərbaycan KP MK-nın 1-ci katibi olanda Heydər Əliyev Gürcüstanda yaşayan azərbaycanlılar haqqında daim düşünüb, onlara hər cür diqqət və qayğı göstərib, onların milli haqlarından istifadə etmələri, vəzifə pillələrində irəli çəkilmələri, əmin-amanlıqla yaşamaları üçün daim dəstəyini verib.

Təbii ki, o dövrdə Moskvanın icazəsi olmadan nələrisə həyata keçirmək, milli ruhu oyatmaq nə qədər çətin olsa da, Ulu öndər həm qonşuluq, həm də Gürcüstanın rəhbərləri ilə dostluq münasibətlərindən istifadə edərək azərbaycanlılara qayğı göstərirdi. Şəxsi həyatımda olan bir faktı yada salmaq istərdim. Mən elmi işimi 1989-cu ildə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda müdafiə etmişəm. Elmi işim toponimlərlə əlaqəli olduğundan AMEA-nın Coğrafiya İnstitutunda da tez-tez olurdum. Rəhmətlik Budaq Budaqovun vasitəsi ilə akademik Həsən Əliyevlə də tanış olmuşdum və hər dəfə akademiyaya gələndə onlarla da görüşürdüm. Bu dəyərli alimlər saatlarla Gürcüstanda yaşayan azərbaycanlıların problemləri ilə maraqlanırdılar. Ümumiyyətlə, münasibətim olan Azərbaycan ziyalılarının hər birində belə milli təəssübkeşlik görünürdü. Sonralar gördüm ki, bu, ilk növbədə, Heydər Əliyevin kənarda yaşayan azərbaycanlılarla bağlı apardığı milli siyasətin və tələbin bəhrəsi idi.

Tarixdən bilirik ki, Stalin diktaturasından sonra tariximizə, milli ənənələrə, digər maddi və mənəvi dəyərlərə sahib çıxmağın yolları axtarılmışdı. Hətta vaxtı ilə bir qrup ziyalımız Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in dövlət dilidir" bəndinin əlavə edilməsi təklifi ilə "Kommunist" qəzetində ("Xalq qəzeti"-red) "Azərbaycan dili dövlət idarələrində" adlı məqalə ilə çıxış edərək respublikada dövlət dilinin Azərbaycan dili olmasını, dövlət idarələrində ana dilinin işlədilməsi təklifi ilə çıxış etmişdilər. Amma bu ideya təklif olmaqdan yuxarı qalxa bilməmişdi və bu təşəbbüsü qaldıranlar cəzalandırılmışdı. Sonralar Heydər Əliyev bu məsələni elə məharətlə qaldırdı ki, müsbət nəticəsi olsun. O, tədricən və təmkinlə, sovetlər birliyinin tərkibində olan Azərbaycanın siyasi və iqtisadi mövqeyini gücləndirməklə bu milli hədəfi uğurla həyata keçirdi. Heydər Əliyevin siyasi uzaqgörənliyi ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasına belə bir bənd maneəsiz əlavə edildi.

**– Həqiqi milli lider Heydər Əliyevin siyasi fəaliyyətində Azərbaycanın milli varlığı, azərbaycanlıların taleyi xüsusi önəm daşıyıb.**

– Tariximizin Heydər Əliyev dövründə azərbaycanlıların nüfuz və yüksəlişi Gürcüstanda, Ermənistanda, eləcə də SSRİ məkanında açıq-aşkar görünürdü. Erməni daşnaqları da Qarabağ iddialarını Heydər Əliyev hakimiyyətdən gedəndən sonra qaldırdılar. Onlar yaxşı bilirdilər ki, Heydər Əliyev onların fitnə-fəsadlarına imkan verməyəcək. Ulu öndərin yaxın dostlarından olan Eduard Şevardnadze deyirdi ki, XX əsrin ikinci yarısında Azərbaycanın varlığı, Azərbaycan xalqının həyatı, başlıca uğurları və mühüm nailiyyətləri Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Əslində, bu fikrin mahiyyətində Heydər Əliyevin təkcə Azərbaycan Respublikasının yox, bütün azərbaycanlıların Prezidenti olması mahiyəti dayanır.

Ümummilli liderin 2-ci dəfə hakimiyyətə qayıdışı isə deyilənlərin bir daha təsdiqi oldu. O cümlədən Gürcüstandakı azərbaycanlıların doğma yurd-yuvalarından didərgin salınmasının qarşısı alındı. Gürcüstanda tarixi dəyərlərimiz yenidən özümüzə qaytarıldı. Mədəniyyət abidələrinin kütləvi şəkildə dağıdılmasının qarşısı alındı. Azərbaycan dövlətinin mənəvi və maddi dəstəyi ilə bu zəngin irsə sahib çıxıldı. Ən önəmlisi, bu ənənə Heydər Əliyevdən gələn möhtəşəm bir missiya olaraq sonrakı illərdə uğurla davam etdirilməkdədir.

**– Ulu öndərlə bağlı iştirakçısı olduğunuz hansısa hadisə və ya görüşü illər sonra necə xatırlayırsınız?**

– Heydər Əliyevin Azərbaycanın və Gürcüstanın müstəqilliyini möhkəmləndirmək üçün gördüyü tarixi işlərin şahidiyəm. Sevimli rəhbərin Gürcüstana səfər və görüşlərində yaxından iştirak etmişəm. Düzdür, bu böyük şəxsiyyətlə şəxsən görüşməsəm də, onun Gürcüstan azərbaycanlılarının həyatında, onların problemlərinin həllində fəaliyyəti misilsiz bir xidmətdir. Burada yaşayan hər bir azərbaycanlı onun əhatəli himayəsinin siyasi və iqtisadi bəhrəsini gördü və görməkdədir. Ən önəmlisi odur ki, Ulu öndər Gürcüstandan başlanan köçün qarşısını ağıllı siyasəti ilə aldı. Heydər Əliyev Gürcüstana ilk rəsmi səfərində (8–10 mart 1996-cı il) Tbilisi Nəbatət bağında Fətəli Xan Xoyskinin abidəsinin açılış mərasimində iştirak etdi, Mirzə Fətəli Axundzadə və Mirzə Şəfi Vazehin məzarlarını ziyarət etməklə bu torpaqdakı tariximizə və milli haqlarımıza sahib çıxdı.

O, Tbilisi Cümə məscidində mömin azərbaycanlılarla, Z.Paliaşvili adına Dövlət Akademik Opera və Balet Teatrında azərbaycanlıların nümayəndələri ilə görüşdü. Prezident Heydər Əliyev Gürcüstan Televiziyasına azərbaycanlıların problemlərinin həlli yollarını göstərən müsahibə verdi. Gürcüstan parlamentinin xüsusi iclasındakı çıxışında isə o, Azərbaycan və Gürcüstan əlaqələrinin tarixindən, müstəqillik dövründə üzləşdikləri çətinlikdən, separatizmə qarşı mübarizəsindən, münasibətlərin perspektivindən ətraflı bəhs etdi.

Yaqin, onun bu səfərdə söylədiyi məşhur deyim hər kəsin yadındadır: "Gürcüstanda yaşayan azərbaycanlılar diaspor deyil. Onlar aborigen xalqdır. Ona görə də onları diaspor adlandırmaq düzgün deyil. Onlar bizim soydaşlarımızdırlar".

**– Özü də Azərbaycan Prezidenti Heydər Əliyev bu sözləri Gürcüstan Prezidenti Şevardnadzenin natamam məzmunlu ifadəsini gücləndirərək demişdi...**

– Söhbət belə olmuşdu. Z.Paliaşvili adına Gürcüstan Akademik Dövlət Dram Teatrında Prezident Heydər Əliyevlə soydaşlarımızın görüşü təşkil edilmişdi. Gürcüstan prezidenti Şevardnadze də iştirak edirdi və giriş sözü ilə çıxış etdi, Azərbaycanlıların Gürcüstan cəmiyyətindəki fəaliyyətlərindən də ətraflı danışdı. Gürcüstan Prezidenti Edurd Şevardnadze çıxışı zamanı bu ölkədə yaşayan azərbaycanlıları diaspor adlandırdı.

Ulu öndər isə həmişə olduğu kimi, azərbaycanlıların həyat və fəaliyyətindən, onların Gürcüstan cəmiyyətinə verdiyi töhfələrdən geniş danışmaqla, çox böyük bir məharət və diplomatik məharətlə azərbaycanlıların dispor yox, aboregen xalq olduğunu söylədi. Heydər Əliyevdən sonra söz alan E.Şevardnadze diaspor ifadəsini, sadəcə olaraq dilinə yaxşı yatdığı üçün işlətdiyini bildirdi. O, bununla Ulu öndərlə razılaşdığını ifadə etdi. Heydər Əliyev elə böyük siyasi xadim idi ki, onun hər bir sözü siyasi gerçəkliyə çevrilirdi.

**– Buna görə də Gürcüstan azərbaycanlıları da Heydər Əliyevi özlərinin milli lideri sayaraq onunla öyünürlər.**

– Bütün Dünya azərbaycanlıları Heydər Əliyevi milli lider kimi sevirlər. Xalqımız çox xoşbəxtdir, 30 illik işğala son qoyduğu tarixi qələbəsi ilə, qazandığı süverenliyi ilə! Onun Heydər Əliyev kimi Ulu öndəri, fövqəl bir dünya görüşlü tarixi şəxsiyyəti, indi də bu tarixi şəxsiyyətin siyasi məktəbini uğurla davam etdirən praqmatik Prezidenti var.

Heydər Əliyev soydaşlarımıza müraciətlərində deyirdi: "Gürcüstanda yaşayan azərbaycanlılar! Sizin ulu babalarınız, Azərbaycan və gürcü xalqları yadellilərə qarşı birgə mübarizə aparıblar. Öz torpaqlarını müdafiə ediblər. Bu dostluq bu gün də davam edir. Ona görə də əziz bacılar, qardaşlar, bu, sizin doğma vətəninizdir, bu, sizin doğma torpaqlarınızdır. Siz öz doğma vətəninizdə, torpaqlarınızda yaşayırsınız".

Ulu öndərin bu mövqeyinə Azərbaycan dövlətinin Gürcüstana verdiyi iqtisadi dəstək azərbaycanlıların Gürcüstanda milli haqlarına qovuşmasına, Qafqazın bu qədim ölkəsində möhkəmlənməsinə imkan verdi. Bu gün Azərbaycanla Gürcüstan arasında daim genişlənən dostluq əlaqələri var. Tbilisinin mərkəzində və Rustavi şəhərində Heydər Əliyev parkının salınması, paytaxtın tarixi yerində Ulu öndərin büstünün ucaldılması ölkələrimiz arasındakı möhkəm və sarsılmaz dostluğun bariz nümunəsidir. Paytaxt Tbilisidə M.F.Axundzadənin, Nəriman Nərimanovun, eləcə də Cəlil Məmmədquluzadənin ev muzeyləri fəaliyyət göstərir. Tbilisidəki küçələrin birinə Bakı, digər küçələrə isə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adları verilib.

Tarixi qələbədən sonra suverenliyinə nail olan Azərbaycan uzun illərdən bəri arzu edilən sülhün Cənubi Qafqazda bərqərar olmasına çalışır. Azərbaycan Prezidenti İlham Əliyev keçən il Tbilisidə səfərdə olarkən mətbuata bəyanatında dedi: "Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb". Təbii ki, 2-ci Qarabağ savaşında işğalçı Ermənistana ərazisindən silah daşınmasına imkan verməyən Gürcüstan dövləti də bu amallara xidmət edir. Son günlərdə Gürcüstanda baş verən hadisələrdən ən çox narahatlıq keçirən də Azərbaycan xalqıdır. Azərbaycanın Gürcüstankla dostluğu regionda sülhün və tərəqqinin qarantıdır.

**– Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

***Söhbəti hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

---

Yaddaş

# Xatirələrin kədərini öyüncümüz silir

**O hadisənin üstündən 37 il keçib. 1987-ci ilin payızı idi. Oktyabr ayında Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən azad edilmişdi. O vaxt, demək olar ki, bütün müəssisələrdə, idarə və təşkilatlarda Siyasi Büro üzvlərinin və büro üzvlüyünə namizədlərin şəkilləri saxlanırdı. Adətən, bayramlarda, mədəni-kütləvi tədbirlərdə həmin portretlər klubların, konfrans salonlarının divarlarını bəzəyirdi.**

Moskvanın mərkəzində Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının (komsomolun – red.) adını daşıyan məşhur "Lenkom" Teatrının yaxınlığında bir tikinti idarəsinin, indiki təbirlə desək, baş ofisi yerləşirdi. Bir həmyerlimiz orada işlədiyindən hərdən bir yolumu həmin ofisdən salırdım. Növbəti gedişim oktyabrın sonlarına, ya da noyabrın əvvəllərinə təsadüf etdi.

"Həmyerlimiz" Heydər Əliyevin portretini otağında pəncərənin önünə endirmişdi. Ondan şəkli bura qoymasının səbəbini soruşdum. İndiyə qədər söhbətlərində Heydər Əliyevi ağızdolusu tərifləyən "Əməkdar inşaatçı" laqeydliklə "artıq onun dövranı keçdi, indi bu şəkil heç kimə lazım deyil" – deyərək qımışdı. O an içimdən "Ey gidi dünya, sən nə qədər də vəfasızsan" fikri keçdi. Cəmi bir ay bundan əvvəl bu adam öz otağında tək qalanda belə Ulu öndərimiz haqqında bu cür "cəsarətlə" danışa bilməzdi.

Sovet dövründə "verxuşka"dakı partiya rəhbərlərinin əksəriyyəti nə qədər yaşlı və əldən düşmüş vəziyyətdə olsalar da onların barəsində heç kəs artıq-əskik, ağlına gələni danışa bilməzdi. Heydər Əliyev isə Siyasi Büro üzvləri arasında ən gümrah, işgüzar rəhbərlərdən biri idi. Bir də ki, ötən illərin xofu hələ tam çəkilib getməsə də, artıq zaman yavaş-yavaş dəyişirdi.

– Mənə lazımdır, – deyib şəkli götürmək istədim.

Keçmiş komsomolçu portreti tez qapıb dedi:

– Yox, elə-belə verməram.

– Axı indicə dedin ki, sənə lazım deyil...

– Əgər sənə lazımdırsa, haqqını ver, al!

Söhbətin təfərrüatını yazmaq niyyətində deyiləm. Mən o şəkli indi evimdə xalqımızın ən dəyərli övladlarından birinin xatirəsi kimi saxlayıram.

Heydər Əliyevlə yeganə şəxsi görüşüm barədə xatirələrimi vaxtilə oxucularla paylaşmışam. İndi, sadəcə, təkrar xatırlatmağa ehtiyac duydum.

Ulu öndərin ruhu şad olsun!

***Cəfər SADIQ***

**Moskva**



# Şəxsiyyətin bütövlüyü



## I MƏQALƏ

### Milli ideya

Elə siyasi liderlər vardır ki, onların şəxsiyyəti və fəaliyyəti bütövlük təşkil edir. Ümummilli liderlik bunun ən yüksək və genişmiqyaslı təsdiqidir. Dünya tarixində ümummilli liderlik səviyyəsinə yüksəliş şəxsiyyətin zəkası və həyat tərzinin qarşılıqlı əlaqəsində politoloji dərk edilməyə çalışılmışdır. Burada şəxsiyyətin zəka və intellektual qabiliyyəti həmişə çox ciddi qiymətləndirilmişdir.

Eyni zamanda, siyasi liderliyin inkaredilməz təsdiqi kriteriyaları mövcuddur. Onlar birbaşa fəaliyyətin nəticələri, əldə edilən uğurların məzmunu prizmasında qiymətləndirilir. Lider bu zaman ölümsüzləşə bilər. Əgər onun şəxsiyyəti ilə fəaliyyəti harmoniya təşkil edirsə və millət üçün faydalıdırsa, hər anım günü xüsusi məna kəsb edəcəkdir. Anım günləri bir-birinə bənzəməyəcək. Çünki hər dəfə fəaliyyətinin hansısa cəhəti anım günü üçün aktual olacaq. Onun dərk edilməsi, təhlili və yaddaşlarda qalması ümummilli liderliyin əbədi və faydalı naxışlarından olacaqdır.

Buna görə ümummilli liderlər həm də əbədiyaşar şəxsiyyətlərdir! Onların fəaliyyətinə həm yaşadıqları zamanın işığında, həm də bu gündən baxmaq lazım gəlir. Bu iki yanaşmanın məntiqi sahəsində lideri anmaq onun yaddaşdakı haqlı "məkanını" düzgün müəyyən etməyə imkan verir.

Heydər Əliyevi anmaq bütün bunlara görə həm şərəfli, həm də çox məsuliyyətli bir işdir. Ölkənin, regionun və bütövlükdə, dünyanın geosiyasi, siyasi və diplomatik gedişatını dərindən bilən, onları dəqiq proqnozlaşdıran, uzaqgörənliyi ilə hər kəsə nümunə ola bilən bir siyasi liderin Ümummilli lider statusunda fəaliyyətini dərk etmək asan məsələ deyil. Öncə, Heydər Əliyevin fəaliyyətinə 1993–2003-cü illər müddətində qazandığı nəticələr prizmasından baxaq.

1993-cü il dövlətçilik baxımından olduqca çətin bir dönəm idi. Ölkə, demək olar ki, mürəkkəb problemlər içindəydi. Belə bir şəraitdə Azərbaycanı yalnız liderin xarizması, zəkası və iradəsi kursu qurtara bilərdi. Heydər Əliyev çox qısa bir zamanda bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəldi. Ulu öndər nəinki Azərbaycanı xilas etdi, hətta onun nəticəverici inkişaf kursunu zamanın tələblərinə uyğun dəqiqliklə müəyyənləşdirdi.

Bunu sübut edən kifayət qədər fakt vardır. Onları əsas istiqamətlər üzrə qruplaşdırmaq olar. Daxili sabitliyin təmini, azərbaycançılığın bərqərar olması, enerji strategiyasının müəyyən edilməsi, idarəetmə institutlarının təkmilləşdirilməsi, müstəqil dövlət quruculuğunun əsas prinsiplərinin, milli ideyanın müəyyən edilməsi və multikulturalizm həmin sıradandır.

Bütün bunların fonunda Heydər Əliyev Azərbaycan lideri kimi dövlətin identikliyi məsələsini BMT tribunasından dünyaya bəyan etdi. Belə bir fəaliyyətin dünya miqyasında müstəqil dövlət quruculuğu nümunəsi olmasını indi hər kəs qəbul edir. Çünki postsovet məkanında yalnız Azərbaycan həmin dövrdə strateji səmərəsi olan siyasi kurs müəyyən edə bilmişdi. Və bu zaman Avrasiyanın dövlətçilik tarixində ilk dəfə idi ki, müstəqil dövlət quruculuğu kursunun təməlinə iqtisadi və ya sırf sosial deyil, ideya faktoru qoyulurdu. Həmin ideya Azərbaycanın milli ideyası idi.

Milli ideya Avrasiya məkanında ilk dəfə olaraq etnik və dini baza əsasında deyil, müasir dövlətçiliyin başlıca atributları olan ərazi bütövlüyü və suverenlik kontekstində müəyyən edilirdi.

Deməli, Heydər Əliyevi Avrasiyada müstəqil dövlət quruculuğunu müasirləşməyə xidmət edən milli ideya kontekstinə gətirən dahi şəxsiyyət kimi qəbul etmək lazımdır!

Çünki söhbət faktiki olaraq müasir mərhələdə olduqca mürəkkəb vəziyyətdə olan və bir sıra böyük güclər tərəfindən yox edilməyə çalışılan dövlətin möhtəşəm dirçəlişinin bazasına ideyanın "yerləşdirilməsindən" gedir. Hətta deyərdim ki, fəlsəfədə Kant inqilabı nədirsə, postsovet məkanında müstəqil dövlət quruculuğu kursunun müəyyən edilməsində siyasi, ideoloji, geosiyasi, iqtisadi və sosial yeniliyin adı "müstəqil dövlətçiliyin Heydər Əliyev inqilabı"dır!

Anım günündə bu tezisi önə çıxarmağımız təsdüfi deyildir. Burada vacib həsab etdiyimiz politoloji məna yükü vardır. Məsələ onunla əlaqəlidir ki, müasir fəlsəfə və politologiyada ümummilli liderliyin əsas göstəriciləri sırasında liderin missiyası ilə fəaliyyət miqyasının harmoniyası böyük əhəmiyyət kəsb edir.

Biz indiki proseslərə Heydər Əliyevin siyasi liderliyinin inklüzivlik aspektindən baxsaq, onda vurğulanan tezisin əhəmiyyətini anlamış olarıq. O mənada ki, Heydər Əliyev yalnız Azərbaycanda deyil, Avrasiya miqyasında müasir mərhələdə müstəqil dövlət quruculuğunun mükəmməl və konkret müsbət nəticəverici konsepsiyasını hazırlamışdır. Buna görə də Heydər Əliyevin ümummilli liderliyi milli, regional və regionlararası miqyası aşaraq, bütövlükdə, qlobal səviyyədə müstəqil dövlət quruculuğu kursunun uğurlu təmsilçisi kimi qəbul edilməlidir.

Əlbəttə, belə bir nəhəng və inqilabi yeniliyin Azərbaycan liderinin fəaliyyətində təcəssüm etməsi tarixi hadisədir! Anım gününün əbədi qürur duyulacaq anlarından biri də bununla bağlıdır!

İndi Ulu öndərin 1993–2003-cü illərdəki fəaliyyətinə 2003-cü ildən sonrakı müddətin əsas faktları prizmasından baxaq!

### Dahiyanə proqnozlar

Əlbəttə, hər bir milli liderin missiyası və fəaliyyət miqyası arasındakı münasibətlərdə onun gələcəyi necə görməsi ayrıca yer tutur. Əgər Anım gününə bu aspektdən baxsaq, bu o deməkdir ki, 2024-cü ilin dekabr ayında mövcud olan vəziyyəti Heydər Əliyevin necə proqnozlaşdırması çox maraqlı və əhəmiyyətli görünür. Bu, zamanı geriyə döndərmək deyil, artıq mövcud olan dövlət quruculuğu təcrübəsinə yenidən politoloji nəzər salmaq deməkdir.

Heydər Əliyevi bu kontekstdə çox məqamlarda anmaq mümkündür. Çünki faktiki olaraq Ulu öndər Azərbaycanda XXI əsrdə də müstəqil dövlət quruculuğunun əsas istiqamətlərini dəqiq müəyyən etmişdir.

Prezident İlham Əliyev yaradıcı surətdə həmin istiqamətləri qarşıya çıxan gözlənilməz proseslərin, risklərin labirintindən məharətlə keçirərək, müstəqil dövlətçiliyi yeni mərhələyə yüksəltmişdir. Bu məqam liderin fəaliyyətinin missiyası ilə miqyasının XXI əsrdə ən uyğun nisbətindən xəbər verir.

Onun özəlliyi həm də strateji aspektdə proqnozlaşdırmanın çox uğurlu olmasından ibarətdir. Onu da deyək ki, müasir Qərb politoloqları strateji aspektdə liderliyin uğurlu nümunəsini universal kriteriyalarla müəyyən edə bilməmişlər. Onlar bunun üçün yetərli faktlara malik olmadıqlarını və fərqli liderlik nümunələri üçün ortaq ola biləcək kriteriyaları aydınlaşdırmaqda çətinlik çəkdiklərini açıq etiraf edirlər. Bu baxımdan Heydər Əliyev nümunəsi nəzəri politologiyaya kifayət qədər zəngin faktlar verir.

Məsələnin müstəqil dövlət quruculuğu kursunun strateji səmərəsi kontekstində qoyulması ayrıca əhəmiyyət daşıyır. Heydər Əliyev vurğulanan bağlılıqda liderin missiyası ilə fəaliyyət miqyasını strateji müstəviyə gətirib, ona konkret məzmun verən siyasi liderdir. Bu transformasiya faktiki olaraq uzun müddətdə Azərbaycanda müstəqil dövlət quruculuğunun ana xəttini təşkil etməkdədir. Deməli, Heydər Əliyevi 2024-cü ildə anmaq həm də dövlətçiliyin uğurlarını bir daha göz önünə gətirmək və ona yeni şərtlər daxilində politoloji məna vermək deməkdir. Heydər Əliyev dövlətçilikdə bu günlə gələcəyi müasirlik kontekstində ortaq ritmə gətirə bilən kursun müəllifidir. Anım gününün qürur verən çox əhəmiyyəli başqa məqamı da bu tezislə bağlıdır!

Mühüm hesab etdiyimiz bir məqamı da vurğulamaq istərdik. O, intellekual və duyğusal xarakterli, lakin dövlətçiliklə bağlı xüsusiyyətlə əlaqəlidir.

### Vətəndaşın dövlət tərbiyəsi

Heydər Əliyevi ananda bu məqamı vurğulamamaq mümkün deyildir. Ulu öndər fəaliyyəti zamanı həmişə vətəndaşın dövlət tərbiyəsinə aid olan fikirləri fərqli mövzularda vurğulayırdı. Onları ümumiləşdirəndə isə vahid mənzərə alınırdı: azərbaycanlı olmaq həm də intellektual və emosional şəkildə yüksək dövlətçilik tərbiyəsinə yiyələnmək deməkdir.

Məsələnin bu tərəfi çoxaspektli və çoxfunksiyalı prosesləri nəzərdə tutur. O cümlədən, vətəndaşın daxili intizamı, məsuliyyətli ailə üzvü, çalışqan, dövlətçi, vətənsevər ictimai fəaliyyəti və yüksək dövlətçilik şüuru vacib faktorlar kimi qəbul edilməlidir!

Heydər Əliyev təlimində bunun iki istiqaməti praktikada özünü aydın göstərirdi. Birincisi, vətəndaşın intellektual cəhətdən vətənsevər və dövlətçi olması ilə bağlı idi. Ona sahib olmanın yolunu isə Ulu öndər elm və təhsildə görürdü. Ulu öndər bu məqamı dəfələrlə vurğulamışdır.

Bununla yanaşı, Heydər Əliyev vətəndaşın həm intellektual, həm də emosional olaraq azərbaycançılığı qəbul etməsi zərurətini aydınlaşdırırdı. Onu əsasən mədəniyyət kontekstində azərbaycanlının Vətənə bağlılığı təşkil edir. Vətənə bağlılıq ənənə ilə müasirliyin vəhdətində məzmun almalıdır. Bu iki istiqamət praktikada intellektual və emosional fəzilətlilikdə birləşməlidir. Heydər Əliyev vətəndaşın duyğusal fəzilətliliyi ilə yanaşı, intellektual fəzilətliliyini də zəruri sayırdı. Onlar konkret təcəssümlərini azərbaycançılıq məfkurəsində tapa bilərlər. Bu isə birbaşa azərbaycançılığın müstəqil dövlətçilik şüurunun mərkəzinə gətirilməsi deməkdir.

Azərbaycançılığın vurğulanan səviyyə və məzmunda dövlətçilik şüurunun mərkəzinə gətirilməsi növbəti dahiyanə tapıntıdır! Bu məqam Heydər Əliyevi anım gününün həm də bizlər üçün yenidən düşünmək, Ulu öndəri daha yaxından dərk etmək zamanı olduğunu təsdiq edir! Ayrıca, müstəqil dövlətçilik kontekstində düşünmək daha əhəmiyyətlidir.

Ulu öndərin bu tarixi fikirləri zamanın sərhədlərini aşır. Bizi dövlətçiliyə yaradıcı və sədaqətli yanaşmaq istiqamətində tərbiyə edir. Buna görə ilin hər günü bizim üçün Ulu öndəri anma zamanı olmalıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Müdriklik və sadəliyin ali timsalı

**Unudulmaz dahi şəxsiyyət Heydər Əliyevin dostluq etdiyi insanlardan olan lerikli fermer Xanış Şahəyev xatırlananda istər-istəməz çöhrələrə təbəssüm qonur. Onun Ulu öndərlə görüşləri göz önündə canlanır və şirin talış ləhcəsində, bir qədər də məzəli şəkildə söylədikləri yada düşür. Dünya şöhrətli azman siyasətçi ilə dostluğuna görə ölkənin ən məşhur simalarından birinə çevrilmişdi sadə zəhmət adamı.**



O, ilk dəfə 23 dekabr 1994-cü ildə kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş respublika müşavirəsində təkidlə söz alıb danışmışdı:

– Atam İkinci Dünya müharibəsində, bir oğlum sovet ordusunda xidmət zamanı həlak olub, ömrüm boyu təsərrüfatda çalışmışam. 22 uşağım var – 18-i oğlandır, 4-ü qız (alqışlar). İki oğlum şəhid olub. Çoxlu qoyun-quzum, meşə sahəm var. Hər şey qabarlı əllərimin bəhrəsidir. Heç bir şeydən ehtiyacım yoxdur. Şəxsən sənin məhəbbətin məni gətirib bura çıxarıb. Səni hər dəfə televiziyada görəndə təskinlik tapıraq. Sənin bu xalq qarşısında xidmətlərinə heyran qalıram. Əgər çoban dostun yoxdursa, bloknota yaz ki, Lerikdə çoban Şahəyev Xanış mənim dostumdur.

Onun ərkyana çıxışı, Ulu öndərlə səmimi dialoqu məclisdə xüsusi bir ab-hava yaratdı. Sonra neçə dəfə görüşdülər. İlk dəfə o, Lerikdən Bakıya Qurban payı gətirəndə Heydər Əliyevin "Çox sağ ol, əziyyət çəkmisən" – sözünə gülərək belə cavab verdi: "Kişi gərək kişinin yolunda əziyyət çəksin də". Daha sonra dedi ki, dünyada tanınmış, bəyənilmiş siyasətçi, ağsaqqal lidersən. Xalq yolunda əziyyət, zillət çəkirsən. Hamı sənə dua edir. Sənin işlərin bir bayatını yada salır: Tikmədim özüm qalam, tikdim ki, izim qala. Allah mənə qismət eləsin, sənin 100 yaşında da Prezident Aparatının qarşısına qurbanlar gətirim!..

Növbəti illərdə də sözünün üstündə duran Xanış kişi hər Qurban bayramında Lerikdən Bakıya maşın dolu xırdabuynuzlu heyvanlar gətirir, birini Prezidentin ayağının altında kəsir, sonra qaçqın ailələrinə pay verirdi. O, Heydər Əliyevin həm səmimi dostu, həm də qızğın dəstəkçisi idi.

Mehriban görüşləri zamanı Xanış kişinin əsl xalq diplomatiyası nümunəsi kimi dediyi sözlər yadımızdadır:

– Allah səni Azərbaycan xalqına çox görməsin. Hörmətli Prezident, sənin haqqında min dəfə də danışsam, elə bilirəm ki, birinci dəfədir, danışıram. Çünki sən sözə yaraşırsan, söz də sənə yaraşır. Sən həmişə daşıdığın vəzifələri hörmətə mindirmisən, yüksək səviyyədə aparmısan.

Ulu öndər təşəkkür edərək dedi: "Xanış kişi, mən həmişə səninlə söhbət edəndə çox təəccüblənirəm ki, sən nə qədər müdrik xalq kəlamı, atalar sözü bilirsən və nitq imkanların nə qədər böyükdür. O qədər gözəl danışırsan ki, bir dənə söz o birini təkrar etmir... Xoş sözlərə görə sağ ol. Bilirəm, çox istədiyindən deyirsən. Məni xalq seçib, mən də xalqın etimadı ilə də bu vəzifəni aparıram".

Çoban xanış Ulu öndərlə görüşlərin birinə həyat yoldaşı Səmərqənd xanımı da gətirmişdi. O, Ümummilli liderlə görüşüb-öpüşəndə Xanış kişi yenə zarafata salaraq xanımına dedi: "Heydər Əliyevi öpmək hər kəsə qismət olmur, ha"...

Dövlət televiziyasının jurnalisti kimi, mən də bu görüşlərin bəzisində şəxsən iştirak etdiyim və reportajlar hazırladığım üçün Xanış Şahıyevin paytaxta hər gəzərının necə şən əhval-ruhiyyə, səmimi aura yaratdığının canlı şahidi olmuşam. Xatırlayıram ki, Birinci Qarabağ savaşında oğlu Camal Şahıyevin şəhadətə ucaldığı dəyanətli Xanış kişi Ulu öndərlə görüşündə: "Mən şəhid atasıyam, – demişdi. – Lazım gəlsə, Vətən yolunda o biri oğullarımı da qurban verərəm". Dediyi kimi də oldu. Nəvələri Elgün və Altay İkinci Qarabağ müharibəsində Xanış babanın həmin sözünü öz şəhidlikləri ilə urvatlandırdılar.

Bir dəfə Lerikdə görüşümüz zamanı ağsaqqalın dediklərini olduğu kimi xatırlayıram: "Prezidentlə ona görə dostam ki, ürəyimdə 3 dağ var – ata dağı və 2 bala dağı. Əgər hörmətli Prezident müharibəni dayandırmasaydı, minlərlə insan, millət şəhid olacaqdı. Cavanlarımız öləcəkdi. İndi isə atəşkəs yaranıb və bizim düşmənə layiqli cavab verə biləcək nizami ordu yaratmaq imkanımız var. Bir də ki, Heydər Əliyev əliqabarlı insanlara hörmət və qayğı ilə yanaşan böyük şəxsiyyətdir.

O da yadımdadır ki, Xanış kişi Ulu öndərin 1996-cı ildə son dərəcə qətiyyətli çıxışının tarixə düşdüyü və Azərbaycanın xeyrinə qərar qəbul edilməsi ilə nəticələnmiş məlum Lissabon sammitindən sonrakı gəlişində düz Prezident Administrasiyasının qarşısında bu şərəfə gətirdiyi qurbanlardan birini kəsmək üçün yük maşınına qalxmaq istədi. Heydər Əliyev onun qolundan tutub mehriban təbəssümlə dedi: "Xanış kişi, dayan, zəhmət çəkmə. Gedək, oturub bir qədər söhbət edək, qurbanları isə tapşıracağam, aparıb qaçqınlara paylasınlar. Səxavətinə görə çox sağ ol! Bilirsən, Ukraynanın Prezidenti Leonid Kuçma Bakıya səfərə gəlib, onu qarşılamalıyıq".

Təəssüf ki, bəzi ağzıgöyçək siyasətpərdazlar Xanış Şahıyevin heç də çoban deyil, dilli-dilavər bir musiqiçi olduğunu deməklə ölkə rəhbərinin onunla dostluğuna kölgə salmaq istəyirdilər. Belələrinə əsl həqiqəti anlatmaq üçün bir gün teleoperatorumla Lerikə gedib çoban Xanışın qonağı oldum. Rayon mərkəzindən bir qədər aralıda "Veləçola" adlanan düzənlikdə qoyun sürüsünü otaran ağsaqqalla oradaca söhbət elədik. O, qoltuq cibindən çoban tütəyini çıxarıb çaldı və biz bu kadrları da efirə verərək, hər kəsə anlatdıq ki, çobanın tütək çalması heç də onun musiqiçi olması demək deyil...

Ulu öndər haqq dünyasına qovuşanda onunla vida və dəfn mərasiminə ilk gələnlərdən biri də məhz sadə əməkçi dostu Xanış Şahıyev idi. Elə hey ağlayır, dayanmayan göz yaşlarını əlindəki dəsmalla silirdi. 70 yaşında olmasına baxmayaraq, rəsmilərlə bərabər izdihamın önündə düz Fəxri xiyabana qədər getdi, kədərli səslə unudulmaz dahi insana dönə-dönə Allahdan rəhmət dilədi...

Tanınmış fermerlə səmimi dostluq ənənəsini Ulu öndərdən sonra Prezident İlham Əliyev həvəslə davam etdirdi. Lerikə hər səfərində mütləq onunla görüşdü, hal-əhval tutdu. Xanış kişiyə Ulu öndərlə görüşlərinə aid foto-albom bağışlayanda ağsaqqalın kövrəldiyi anlar isə heç yaddan çıxmır. O dedi ki, bu albom mənim üçün ən böyük hədiyyədir. Göz bəbəyim kimi qoruyacağam.

Heydər Əliyevlə dostluğu dastan olan Xanış Şahıyev 2009-cu ildə 77 yaşında vəfat edib, indi də adı çəkiləndə ilk olaraq "Heydər Əliyevin sadiq dostu" ifadəsi işlənir...

İllər keçsə də, bu dostluq ehtiramla yad olunur. Bu il oktyabrın sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lerikə səfəri zamanı babasının şəxsi dostunun – mərhum fermerin ailəsinə baş çəkib. Söhbət zamanı ümummilli lider Heydər Əliyevlə Xanış Şahıyev arasındakı səmimi dostluq, Prezident İlham Əliyevlə olan görüşlər xatırlanıb. Heydər Əliyevlə çoban Xanışın dostluğunu əks etdirən, müxtəlif görüşlərdən xatirə olan fotoalboma baxılıb. Ailənin şəhid övladlarının Vətən uğrundakı döyüşləri də xatırlanıb.

Bəli, böyük siyasi xadimin – Azərbaycan xalqının Ümummilli liderinin adi bir çobanla dostluğu, bax, beləcə, nəsillərə nümunə kimi yaddaşlarda yaşamaqdadır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Xilaskar

**Hər gün müasirləşən Azərbaycan 21 ildir dekabrın 12-də Ulu öndərin işıqlı xatirəsini böyük ehtiramla anır. Nə qədər ki, milli dövlətimiz var, Vətən qarşısında öz borcunu yerinə yetirən Heydər Əliyev Azərbaycan xalqının qəlbində daim yaşayacaq, onun işıqlı ideyaları yolumuzu işıqlandıracaqdır.**



İnsanı böyük edən onun əməlləridir. Amma böyük işlər görmək üçün gərək insanlardan yuxarıda deyil, onların yanında olmalısan. Heydər Əliyev son dərəcə çətin bir dövrdə xalqın xilası naminə misilsiz fədakarlıq göstərdi. O, Azərbaycanın müstəqillik və formalaşma yolunu xalqı ilə çiyin-çiyinə keçdi. Müasir Azərbaycanın bir qərinəlik tarixi, onun dövlət quruculuğu, iqtisadi dirçəlişi, siyasi həyatı Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Bizi Heydər Əliyev dövründən ayıran illər ərzində onun dərin zəkası, fenomenal yaddaşı, tükənməz təcrübəsi xatirələrdə yaşayır. Heydər Əliyev hər kəsin bacarmadığı işin altına cəsarətlə çiynini verməyi bacaran Ümummilli lider idi. Böyük siyasi təcrübəyə malik Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpasında, milli mənlik şüurunun oyanmasında əvəzsiz rol oynadı. Ötən əsrin 70-ci illərində onun səyləri ilə Azərbaycanın gələcək iqtisadi, ictimai-siyasi inkişafının təməl daşları qoyuldu.

Heydər Əliyevin sayəsində Azərbaycan xalqının tarixi keçmişinə marağı artdı, mənlik şüuru yüksəldi, milli-mənəvi dirçəlişi başlandı. Azərbaycan öz inkişafının yeni mərhələsinin astanasında idi. Azərbaycan hələ SSRİ-nin tərkibində olarkən azərbaycanlılar ölkədə rəhbər vəzifələrə irəli çəkilməyə, iqtisadi həyatda fəal iştirak etməyə başladılar. 1980-ci illərin əvvəllərində Heydər Əliyev Moskvada yüksək vəzifə tutanda da milli dövlətçilik maraqlarının müdafiəsini yüksək səviyyədə davam etdirdi.

Ümummilli liderin tərcümeyi-halı Azərbaycan xalqının taleyi ilə bağlı parlaq və əlamətdar hadisələrlə zəngindir. O, yüksək vəzifələrdə çalışanda da heç vaxt xalqdan yuxarıda durmayıb, onun yanında olub. Ona ümumxalq sevgisini qazandıran məhz müsbət şəxsi keyfiyyətləri idi.

1991-cı ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan vətəndaş müharibəsinin astanasında idi. Ermənistanın Azərbaycana təcavüzü durmadan genişlənir, iqtisadiyyatda, siyasətdə və digər sahələrdə böhran hökm sürürdü. Belə mürəkkəb bir zamanda o vaxt hakimiyyətdə olan rəhbərliyin təcrübəsizliyi və naşılığı ucbatından ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Bu, Azərbaycan üçün həlledici an idi: ölkə ya müstəqil olacaq, ya da daxili çəkişmələr, separatçı qüvvələrin təxribatçı fəaliyyəti nəticəsində parçalanıb məhv olacaqdı. Yəni, Azərbaycan "olum, ya ölüm" seçimi qarşısında qalmışdı...

Azərbaycan xalqı ölkəni gözlənilən fəlakətdən xilas etmək üçün o vaxt Kreml hakimiyyətinin qısqanclıqla qarşıladığı görkəmli liderini Bakıya dəvət etdi. Xalqın səsinə səs verən dahi şəxsiyyət belə taleyüklü məqamda dövlətinə və millətinə sədaqətini nümayiş etdirdi. Xalq liderinin ətrafında cəmləşərək ölkəni problemlər girdabından çıxara bildi.

1993-cü il oktyabrın 3-də Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. İkinci dəfə siyasi hakimiyyətə gələn ulu öndər Azərbaycanda daxili siyasi sabitliyə nail olmaqla yanaşı, həm də ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu.

Heydər Əliyev 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində dediyi sözləri əməli ilə təsdiqlədi: "Azərbaycan xalqı öz tarixinin ən ağır, faciəli dövrünü yaşayır. Bu çətin zamanda mənə həvalə edilmiş məsuliyyətin dərəcəsini dərindən dərk edir və sizi əmin etmək istəyirəm ki, bütün fəaliyyətimlə, bütün həyatımla xalqın yüksək etimadını və ümidlərini doğrultmağa çalışacağam".

Ümummilli lider çox qısa müddətdə Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxardı. Ölkədə istehsalın bərpası, maliyyə vəziyyətinin yaxşılaşması, investisiyaların cəlb edilməsi üçün antiböhran proqramları hazırlandı. Üstəlik, xalqın hakimiyyətə etimadını təmin etdi, hüquqi dövlət, vətəndaş cəmiyyəti qurdu.

Dünyanın istənilən yerində Heydər Əliyev haqqında danışanda dərhal Azərbaycanı xatırlayır, Azərbaycandan danışanda isə mütləq ulu öndəri yada salırlar. O, sadəcə öz dövrünün qəhrəmanı deyil, həm də zamanə adamı oldu. Onun tarixi mahiyyətli və böyük tərbiyəvi əhəmiyyətə malik ibrətamiz ömür yolunun tədqiqi keçmişimizə qiymət verməklə yanaşı, gələcəyə gedən yolumuzu da müəyyənləşdirir. Diplomatiya müstəvisində Heydər Əliyevin yaşadığı kimi yaşamaq, Vətəni Heydər Əliyev kimi sevmək siyasi kursa, istiqamətə çevrildi.

Xalq Heydər Əliyevi böyük və müdrik siyasətçi kimi tanıyır. Ümummilli liderin parlaq natiqlik istedadı, qarşıya qoyulan məqsədə doğru addım-addım getmək bacarığı sintez təşkil edirdi. Onun prinsiplərə sadiqliyi və fədakarlığı, xeyirxahlığı və nəcibliyi həyatının bütün mərhələlərində özünü göstərirdi.

Ümummilli ider həmişə Vətənə, xalqına hədsiz məhəbbət bəsləyir, onun xoşbəxt, firəvan yaşamaq arzusunu rəhbər tuturdu. Bu gün elə bir sahə yoxdur ki, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar ona toxunmasın. O, özündən sonra böyük siyasi irs qoyub, öz siyasi kursunun layiqli davamçılarını yetişdirib.

Bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı Ulu öndərin müəyyən etdiyi yolla Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə inamla addımlayır. Heydər Əliyevin ruhunun ən dəyərli rəmzi olan üçrəngli bayrağımız bu gün bütün Qarabağımızda ucalır.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli ideologiyada öz əksini tapmış dövlətçilik konsepsiyası işlənib hazırlandı. 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi aradan qaldırıldı. Bununla da Azərbaycanın inkişafında və müstəqil demokratik hüquqi dövlət kimi formalaşmasında yeni mərhələ başlandı.

Xüsusilə, Ümummilli lider Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi kimi problemin həlli istiqamətində mühüm addımlar atdı. Atəşkəsin əldə olunduğu 1994-cü ilin sentyabrında Xəzər dənizinin zəngin neft-qaz yataqlarının istismarı üçün xarici şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Bu, Azərbaycan iqtisadiyyatına töhfə verməklə yanaşı, ölkənin müstəqilliyinin təmin edilməsi istiqamətində uğurlu tədbirlərin həyata keçirilməsinə də imkan yaratdı.

Heydər Əliyevin tarixi xidmətlərindən biri də 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətin Əsas Qanununun – Konstitusiyanın qəbul edilməsi oldu.

Sağlığında Azərbaycan xalqının ümummilli lideri kimi tanınan Heydər Əliyev cismani gedişindən sonra da millətin rəğbət və sevgisini itirmədi. O, təkcə ölkənin bacarıqlı rəhbəri kimi deyil, həm də dahi şəxsiyyət kimi hər bir azərbaycanlının idealına çevrildi.

Heydər Əliyev təbiətən yorulmaz insan idi. Onun öz üzərində çalışması bütün həyatı boyu davam etdi. Tanrının verdiyi fitri istedadı yeni biliklərə yiyələnmək, zamanı qabaqlamaq səyi ilə paralel inkişaf etdi. Bəli, ümummilli lider müasir Azərbaycan dövlətçiliyinin banisidir. Onun zəngin dövləti təcrübəsi bütün dünyada yüksək qiymətləndirilir. Bu gün Azərbaycan Heydər Əliyevin göstərdiyi dövlət idarəçiliyi ideyaları ilə yolunu davam etdirir.

Ümummilli liderin uzaqgörənliyi sayəsində respublikada yeni iqtisadi münasibətlərin əsasları qoyuldu, özəl sektor yaradıldı, iri xarici investisiyalar cəlb edildi, sahibkarlar üçün geniş imkanlar açıldı. Sovet dövründən qalan fabrik və zavodlar fəaliyyətə başladı. Beləliklə, nəinki yeni sənaye sahələri yaradıldı, həm də yeni iş yerləri açıldı. "Güclü iqtisadiyyatı olan dövlət hər şey edə bilər" – deyən Heydər Əliyev bu prinsipi həmişə rəhbər tuturdu.

Neft müqavilələrinin imzalanması, ölkə daxilində sabitliyin və əmin-amanlığın bərqərar olması, mədəniyyətin yüksəlişi, nəhayət, 1994-cü ilin mayında Ermənistanla müharibədə atəşkəsin əldə olunması Heydər Əliyev diplomatiyasının zəfəri, onun titanik əməyinin bəhrəsi idi.

Heydər Əliyev siyasi və diplomatik fəaliyyətini Azərbaycan haqqında formalaşdırılmış yanlış fikirlərin dəyişdirilməsinə həsr etmişdi. 1998-ci ildə onun təşəbbüsü ilə Bakıda səkkiz ölkə rəhbərinin və otuzdan çox dövlətin nümayəndə heyətlərinin iştirakı ilə "İpək Yolunun bərpası" beynəlxalq forumu keçirildi. Bu, Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsində, Qərb və Şərq dövlətləri ilə əməkdaşlığının intensivləşməsində mühüm rol oynadı .

Müstəqil və sabit dövlət quruculuğu yolunda Heydər Əliyevin atdığı addımlar nəticəsində Azərbaycanın milli maraqlarının keşiyində dayanmağa qadir olan Milli Ordu formalaşdı, müstəqilliyin qorunub saxlanması üçün mümkün olan hər şey edildi.

Yarım əsr əvvəl xalqın qəlbini fəth edən, sonra isə dünyanın görkəmli dövlət xadimlərindən birinə çevrilən parlaq şəxsiyyət öz məqsədlərinə çatmaq üçün mətbuatın səfərbəredici və istiqamətləndirici rolunu hamıdan yaxşı anlayırdı. Ona görə də Heydər Əliyev mətbuata, jurnalistlərə özünəməxsus həssaslıqla yanaşırdı. Onun Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə Moskvada çıxan "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın!" başlığı ilə dərc olunmuş məşhur müsahibəsi bütün İttifaqda geniş rezonans doğurdu. İlk dəfə mətbuatda heç kimin danışmağa cürət etmədiyi nöqsanları birinci şəxs açıq şəkildə tənqid etdi.

Heydər Əliyev harada olmasından, hansı vəzifələrdə işləməsindən asılı olmayaraq, doğma xalqının etno-sosial, etno-siyasi və etno-mədəni xüsusiyyətlərini həmişə xatırlayıb.

1990-cı ilin Yanvar faciəsi bütün Azərbaycan xalqı və Heydər Əliyev üçün ağır sarsıntı oldu. O, çətin, faciəli günlərdə xalqının yanında idi.

Heydər Əliyev çox çətin bir zamanda Azərbaycana qayıtdı. Amma respublikanın o vaxtkı rəhbərliyi üçün Heydər Əliyevin Azərbaycanda görünməsi arzuolunmaz idi. Bir müddət Naxçıvanda yaşamağa məcbur oldu.

Bu dövr Azərbaycan üçün həlledici idi: ya müstəqil dövlət olmaq, ya da daxili çəkişmələr, separatçı qüvvələrin təxribatçı fəaliyyəti nəticəsində parçalanıb məhv olmaq. Bəli, Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. O kritik anda Azərbaycan xalqı, görkəmli ziyalılar Ulu öndəri köməyə çağırmaqla öz müdrikliyini nümayiş etdirdilər.

Qarabağ münaqişəsinin başlanması ilə əlaqədar ölkə ərazisinin erməni silahlıları tərəfindən zəbt edildiyi, iqtisadiyyatın tamamilə dağıldığı, güc strukturlarında anarxiya hökm sürdüyü Azərbaycan üçün ağır günlərdə müdrik insanlar milləti xilas etmək üçün Heydər Əliyevdən qətiyyət gözləyirdi. Hakimiyyət qarşısında respublikanı dərin siyasi və iqtisadi böhrandan çıxarmaq, düşmənin hərbi təcavüzünün qarşısını almaq, Azərbaycanı dünyada tanıtmaq, milli maraqları qorumaq kimi çətin vəzifələr dururdu.

1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin Sədri seçildi və az sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Həmin ilin oktyabrında Azərbaycan xalqı onu özünə Prezident seçdi.

(ardı var)

***Arif QULİYEV,***
***hüquq elmləri doktoru, professor,***
***Ukraynanın Əməkdar təhsil işçisi***

# Azərbaycanın tale kitabının müəllifi



**Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın müstəqilliyi, siyasi sabitliyi və iqtisadi inkişafı sahəsindəki xidmətləri ölçüyəgəlməzdir. Ulu öndərin Azərbaycan üçün elədiyi xidmətləri aşağıdakı sahələr üzrə təsnifatlandırmaq olar:**

**Azərbaycanın müstəqilliyi və siyasi sabitlik.** Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin müstəqilliyini qorumağa və siyasi sabitliyini bərpa etməyə yönəlmiş genişmiqyaslı islahatlar apardı. 1990-cı illərin əvvəllərində ölkədə baş verən daxili çaxnaşmalar və Qarabağ müharibəsi dönəmində Ulu öndər milli birliyi təmin etmək üçün önəmli addımlar atdı.

**İqtisadi inkişaf.** Ümummilli lider Azərbaycanda iqtisadi islahatların əsasını qoymuş və ölkəni böhranlı vəziyyətdən çıxarmaq üçün neft sektoru və xarici sərmayələrin cəlb edilməsi məsələlərinə xüsusi diqqət yetirmişdir. Onun siyasi qətiyyəti sayəsində "Əsrin müqaviləsi" imzalandı, xarici investorlar Azərbaycana cəlb edildi və ölkə neft ixracatçısına çevrildi. Bu strategiya ölkənin iqtisadi inkişafını sürətləndirdi və Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirdi.

**Xarici siyasət.** Azərbaycanın beynəlxalq aləmdə yerini möhkəmləndirmək üçün uğurlu xarici siyasət kursu yürütdü. Onun prezidentliyi dövründə Azərbaycan həm Rusiya, həm də Qərb dövlətləri ilə balanslı münasibət qurdu, regional və beynəlxalq təşkilatlarla əməkdaşlığa başladı.

Heydər Əliyevin xidmətləri, həmçinin Azərbaycanın milli maraqlarını müdafiə etməyə və ölkənin beynəlxalq arenada nüfuzunu artırmağa yönəlmiş uzunmüddətli strateji addımlardan ibarətdir. Məhz onun uzaqgörən siyasəti sayəsində Azərbaycan Cənubi Qafqaz regionunun mühüm aktoruna çevrildi. Heydər Əliyev həm Azərbaycanın daxili inkişafı, həm də beynəlxalq aləmdəki mövqeyinin möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətlər göstərdi.

**Yeni Azərbaycan Partiyası.** 1992-ci ildə Yeni Azərbaycan Partiyası (YAP) Heydər Əliyev tərəfindən yaradıldı. Partiyanın əsas məqsədi Azərbaycan dövlətçiliyini və müstəqilliyini gücləndirmək, ölkədə siyasi və iqtisadi sabitliyi təmin etmək idi. YAP, həmçinin Azərbaycanın müasir inkişafının və gələcəyinin təməllərinin qurulmasında əsas rol oynayan siyasi təşkilatdır. Ümummilli liderin "Dünənin, bu günün, gələcəyin partiyası" deyərək həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyənləşdirdiyi YAP-ın xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyinin daha da möhkəmlənməsinə, xalqın partiyanın ideoloji-siyasi xəttinə dəstəyinin güclənməsinə böyük imkanlar açdı. 1993-cü il oktyabrın 3-də YAP-ın sədri Heydər Əliyevin xalqın mütləq əksəriyyətinin səs çoxluğu ilə Prezident seçilməsi partiyanın həyatında yeni dövrün başlanğıcı oldu.

Ulu öndərin dühasının məhsulu olan və müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında əvəzsiz xidmətlərə imza atan Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən və dünyanın güclü liderlərindən birinin – İlham Əliyevin rəhbərliyi altında fəaliyyətini uğurla davam etdirir. Artıq 32 ildir ki, YAP Azərbaycanda demokratik inkişafın, sosial rifahın və iqtisadi yüksəlişin təmin olunmasında mühüm rol oynayır.

***Nurana DAVRİNBƏYOVA,***
***Qaradağ Rayon Heydər Əliyev Mərkəzinin elmi işçisi***

# İlmələrlə toxunmuş xalq sevgisi



**Azərbayan Milli Xalça Muzeyində Ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" adlı triptix-xalça sərgilənib.**

Əvvəlcə ulu öndərə həsr olunmuş videoçarx nümayiş olunub. Sonra muzeyin direktoru Əminə Məlikova bildirib ki, qədim xalçaçılıq sənəti Heydər Əliyevin hər zaman qayğı göstərdiyi və yüksək qiymətləndirdiyi bir sahə kimi müstəqillik illərində daha da inkişaf edib. Məhz onun hakimiyyətə qayıdışından sonra mədəniyyətin digər sahələrində olduğu kimi, xalça sənətində də böyük dirçəliş baş verib. "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" xalçası haqqında məlumat verən direktor hər naxışının, hər elementinin altında bir məna, hikmət olan bu əsərin daim dəyərli eksponat kimi saxlanıb, tədqiq ediləcəyinə inamını ifadə edib.

Mədəniyyət naziri Adil Kərimli deyib: "Bu sənətin inkişafı və dünyaya çatdırılmasında Ulu öndərin təşəbbüsü və səyləri danılmazdır. Müasir Azərbaycanın memarı Heydər Əliyev mədəniyyətimizi dünyada təbliğ etmək üçün misilsiz addımlar atıb. Bu əsər Ulu öndərin zəngin irsinin öyrənilməsində yeni mənbədir. Fikrimcə, əsərin zənginliyinin göstəricilərindən biri də xalçaya hər dəfə baxdıqda müəyyən yenilikləri görməyimizdir".

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov nümayiş olunan unikal əsərin mənəvi dəyərinə görə toxunan ən qiymətli xalça olduğunu qeyd edib. Əməkdar rəssam Rəşad Ələkbərov xalçanın İsmayıllı emalatxanasında çalışan 11 toxucunun bir ilə yaxın müddətə ərsəyə gətirdiyini diqqətə çatdırıb. Üç hissədən ibarət olan əsərdə Ulu öndərin həyat fəlsəfəsi, daim diqqətdə saxladığı məsələlər, önəm verdiyi dəyərlər ilk dəfə xalça dilində tamaşaçıya çatdırılıb.

Xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ömər Eldarov qədim sənətin özünəməxsus xüsusiyyətlərindən danışıb: "Azərbaycanda xalçaçılıq hər zaman inkişaf edib və bu sənətə aid müxtəlif məktəblər fəaliyyət göstərib. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə olduğu kimi, yenə də Azərbaycanda bu sənət növünə xüsusi diqqət yetirilir".

Çıxışlardan sonra Əməkdar artist Ramil Qasımov pianoçu, Əməkdar müəllim Zülfiyyə Sadıqovanın müşayiəti ilə Ulu öndərin çox sevdiyi nəğmələrdən ikisini - Cahangir Cahangirovun "Alagöz" mahnısını və "Küçələrə su səpmişəm" xalq mahnısını ifa edib.

Sonra qonaqlar "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" xalçası ilə tanış olublar.

***XQ***

# Paytaxtda anım mərasimləri

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 21 il ötür. Azərbaycan ictimaiyyətinin nümayəndələri hər il olduğu kimi, bu dəfə də Fəxri xiyabana gələrək ulu öndərin məzarı üzərinə gül dəstələri düzür, işıqlı xatirəsi önündə baş əyirlər. Dahi şəxsiyyət ölkəmizin bölgələrində də yad edilir, dünyaşöhrətli siyasi xadimin xatirəsinnə həsr edilən müxtəlif anım tədbirləri təşkil olunur.**











### Yeni Azərbaycan Partiyası

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar YAP-ın nümayəndələri Fəxri xiyabanda Ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

### Xarici İşlər Nazirliyi

Nazir Ceyhun Bayramovun rəhbərliyi ilə Xarici İşlər Nazirliyinin kollektivi Ulu öndər Heydər Əliyevin anım günündə Fəxri xiyabanı ziyarət edib.

Ziyarət zamanı Azərbaycanın dövlətçilik tarixində ölkəmizin müstəqilliyinin möhkəmlənməsi, xalqımızın inkişaf və rifahının yüksəldilməsi istiqamətində misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin məzarı qarşısına gül dəstələri düzülüb, əbədiyaşar xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

### Müdafiə Nazirliyi

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar nazirliyin rəhbər heyəti Fəxri xiyabanda Ulu öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad edib.

### Dövlət Təhlükəsizliyi Xidməti

Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, müasir respublikamızın banisi və xilaskarı Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Fəxri xiyabanda dahi şəxsiyyətin məzarını ziyarət ediblər. DTX-nin əməkdaşları Ulu öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüblər.

### Baş Prokurorluq

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər.

Ulu öndərin və görkəmli oftalmoloq – alim, akademik Zərifə Əliyevanın xatirəsi yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

### Daxili İşlər Nazirliyi

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə nazirliyin rəhbər heyəti və Daxili Qoşunların hərbi qulluqçuları Fəxri xiyabanda Ulu öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıblar.

### Dövlət Sərhəd Xidməti

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Xidmətin rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabanda xalqımızın dahi oğlunun əziz xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.

Xidmətin Aparatında keçirilən tədbirdə şəxsi heyət əvvəlcə Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzində Ümummilli liderin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən foto-ekspozisiya ilə tanış olublar. Mərasimdə çıxış edənlər dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən, tarixə öz adını əbədi həkk etmiş fenomen şəxsiyyətin həyat və fəaliyyətindən söz açıblar.

Tədbirin sonunda Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunan "Heydər Əliyev – Xilaskar ömrü" sənədli filmi nümayiş etdirilib.

### Səhiyyə Nazirliyi

Azərbaycanın inkişafında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar Səhiyyə Nazirliyinin rəhbər şəxsləri Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət ediblər. Nazirliyin əməkdaşları dahi şəxsiyyətin və akademik Zərifə Əliyevanın da əziz xatirəsini hörmət və ehtiramla anaraq, məzarları önünə tər çiçəklər düzüblər.

### Ombudsman Aparatı

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar keçirilən tədbirdə əvvəlcə ombudsman Səbinə Əliyeva və Aparatın kollektivi Fəxri xiyabana gələrək, dahi şəxsiyyət Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə tər çiçəklər düzüblər.

Daha sonra ombudsman Səbinə Əliyeva Aparatın əməkdaşları ilə Hökumət evində Ulu öndərin əziz xatirəsini əbədiləşdirmək üçün ucaldılmış büstü ziyarət etməklə, dahi şəxsiyyətin xalqımız qarşısında göstərdiyi əvəzsiz xidmətləri barədə danışıb.

### Bakı Dövlət Universiteti

Bu ali təhsil müəssisəsinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət edib. Ümummilli liderin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

### Memarlıq və İnşaat Universiteti

Universitetdə ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib. Tədbir Ulu öndərin ölməz xatirəsinə hörmət və minnətdarlıq hissinin ifadəsi olaraq təşkil edilib.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu öndərin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rektor Gülçöhrə Məmmədova çıxışında ulu öndər Heydər Əliyevin fenomenal liderliyi, Azərbaycanın istiqlaliyyətinin qorunması və inkişafı üçün tarixi əhəmiyyətli addımlarından bəhs edib. Rektor, həmçinin Heydər Əliyevin təhsil sahəsinə olan diqqəti və bu sahəyə yönəlik uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini vurğulayıb. Çıxışlardan sonra "Heydər Əliyev və Azərbaycan mədəni irsi" adlı sənədli film nümayiş olunub.

### "Ədibin Evi"

"Ədibin Evi"ndə ümummilli lider Heydər Əliyevin anım günü münasibəti ilə Balaxanı neftçilərinin siyasi xadim, alim və tədqiqatçı Həsən Həsənovla görüşü keçirilib. Ulu öndərin zəngin irsinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi məqsədi ilə təşkil edilən tədbirdə Heydər Əliyevin neft strategiyası və xüsusilə bu il imzalanmasından 30 il ötən, onun imza əsəri "Əsrin müqaviləsi"nin müstəqil Azərbaycanın inkişaf sütununa çevrilməsi tarixinə nəzər salınıb.

Ulu öndərin dövlətçilik məktəbinin yetirməsi olan Həsən Həsənov Heydər Əliyevin rəhbərliyi altında tutduğu müxtəlif vəzifələrdə onunla iş prosesindən xatirələrini bölüşüb. O, hələ Sovet dövründə dahi şəxsiyyətin respublikada çevik və uğurlu idarəçiliyinin əks-sədasının ümumittifaq miqyasında yayıldığını xatırladıb. Həsən Həsənov hazırda idarəçilik məktəbində tez-tez istifadə olunan "yaradıcı yanaşma"nın o zaman Heydər Əliyev tərəfindən tam tətbiq edildiyini vurğulayıb. Balaxanı neftçilərinə müraciətində isə Ulu öndərin vaxtilə böyük uzaqgörənliklə işlədiyi və bu gün Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi neft strategiyasının Azərbaycanın gələcək nəsillərinə hələ çox nailiyyətlər qazandıracağını bildirib.

### Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar "Əbədi ömrün ikinci əsri" mövzusunda elmi sessiya keçirilib.

Ədəbiyyat Muzeyindən bildirilib ki, muzeyin direktoru akademik Rafael Hüseynov çıxış edərək Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə dövləti və xalqı qarşısında göstərdiyi tarixi xidmətlərindən, ölkəsinin, xalqının tərəqqisi, rifahı naminə gördüyü misilsiz işlərdən danışıb. O, Heydər Əliyevin adının tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olduğunu, müasir müstəqil Azərbaycanın isə Heydər Əliyevin şah əsəri olaraq qəbul edildiyini vurğulayıb.

Tədbirdə digər çıxış edənlər görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında gördüyü böyük işlərdən danışıb, Ulu öndərin əvəzsiz xidmətlərinin Azərbaycan xalqı tərəfindən daim uca tutulacağını bildiriblər.

### Avtomobil Yolları Dövlət Agentliyi

Agentliyində müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Mərasim iştirakçıları Ulu öndərin cəmiyyətin inzibati binasındakı büstü önünə gül dəstələri qoyaraq, Ümummilli lideri qürur hissi, dərin hörmət, sonsuz sevgi ilə anıblar.

### Bakı Metropoliteni

Bakı metrosunun rəhbərliyi və kollektivi metropolitenin inkişaf tarixində xüsusi xidmətləri olan Heydər Əliyevin 21-ci ildönümü ilə əlaqədar müəssisənin "Nərimanov" elektrik deposunda qoyulmuş büstünü ziyarət ediblər.

Mərasimdə bildirilib: "İstər Sovet dövründəki böyük çətinliklərə rəğmən, istərsə də müstəqilliyin ilk illərində keçmiş SSRİ respublikaları arasında iqtisadi əlaqələrin tənəzzülə uğradığı dövrdə məhz Heydər Əliyevin nüfuzu, zəhməti və yaxından dəstəyi ilə Bakı metropoliteni fəaliyyətini və sərnişinlərinə nümunəvi xidmətini davam etdirib. 2003-cü ilə qədər Bakı metrosunun xətlərinin uzunluğu 31,5 km idisə, bunun 21,3 kilometri məhz Heydər Əliyevin rəhbərliyi və yaxından iştirakı ilə tikilərək sərnişinlərin xidmətinə verilib".

# Bölgələrdə Ulu öndər ehtiramla anıldı

**Dünya şöhrətli ictimai-siyasi xadim, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Anım Günü bölgələrdə böyük ehtiramla qeyd olunub. Mərasimlərdə həmişəyaşar Ulu öndərin xalq qarşısında misilsiz xidmətləri qədirbilənliklə xatırlanıb.**










### Naxçıvan

Dekabrın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, deputatlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər.

Ulu öndərin abidəsi önünə güllər qoyulub, əziz xatirəsi dərin ehtiramla yad olunub.

### Gəncə

Qədim Gəncədə ümummilli lider Heydər Əliyevin xatirəsi ehtiramla anılıb. Unudulmaz dahi insanın şəhərin mərkəzi meydanındakı əzəmətli abidəsi ziyarət olunub. Şəhər icra hakimiyyətinin rəhbərliyi, buradakı diplomatik nümayəndəlcər, hüquq-mühafizə orqanlarının rəhbərləri abidə önünə tər çiçəklər düzüb, ölməz ruhu qarşısında baş əyiblər.

Şəhər ictimaiyyətinin çoxsaylı nümayəndələri də mərkəzi meydanda və Heydər Əliyev Park-Kompleksində Ulu öndərə ucaldılan abidələri gün ərzində ziyarət ediblər. Həmin gün şəhərdə ehsan süfrəsi də açılıb. Mərasimlərdə çıxış edənlər Ulu öndərin həyatı və fəaliyyəti ilə bağlı maraqlı məqamlara toxunublar.

### Sumqayıt

Anım mərasimində gənclik şəhərinin rəsmiləri, millət vəkilləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda Ulu öndərin abidəsini ziyarət edərək, önünə güllər düzüb, ruhuna hörmət və ehtiramlarını bildiriblər.

Çıxışlarda vurğulanıb ki, ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik edən Ulu öndərin başlatdığı islahatlar, inkişaf strategiyası nəticəsində Azərbaycanın bütün şəhərləri kimi, Sumqayıt da dinamik inkişaf yoluna qədəm qoyub. Müstəqillik dövründə də Heydər Əliyev Sumqayıta davamlı olaraq xüsusi diqqət və qayğı göstərib. Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyev 16 dəfə Sumqayıta səfər edib ki, bu da onun gənclik şəhərinə olan xüsusi diqqət və qayğısının göstəricisidir.

### Mingəçevir

"Nur şəhəri"ndə icra hakimiyyəti və YAP Mingəçevir şəhər təşkilatı Heydər Əliyevin Anım Gününə həsr olunmuş "Əbədiyaşar Lider" mövzusunda birgə dəyirmi masa keçiriblər.

Əvvəlcə "Heydər Əliyev: Vətənə, xalqa həsr edilən ömür" adlı sənədli film nümayiş olunub. Sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov geniş məruzə ilə çıxış edərək bildirib ki, xalqın təkidli tələbləri ilə yenidən hakimiyyətə gələn Ulu öndərin böyük dövlətçilik təcrübəsi sayəsində ölkənin iqtisadi vəziyyəti yaxşılaşdı, daxili və xarici siyasət sahəsində uğurlar əldə olundu. Ordu quruculuğuna başlandı. Cəbhədə atəşkəs elan olundu. Ulu öndər müstəqilliyimizi qoruyub saxladı və bugünkü inkişaf etmiş Azərbaycanımızın əsasını qoydu. Heydər Əliyev şəxsiyyəti Azərbaycanımızı dünyaya tanıtdı. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

Digər natiqlər dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövründə ölkənin tərəqqi etdiyini, Qarabağ Zəfərinin bünövrəsinin qoyulduğunu konkret faktlarla əsaslandırıblar.

(ardı 10-cu səhifədə)

# Dünyanı heyran qoyan azərbaycanlının nurlu xatirəsi

**Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü tamam oldu. Həyatını bütünlüklə ölkəsinə həsr edən Ulu öndərin xatirəsi hər il olduğu kimi, bu il də ölkəmizdə böyük ehtiramla yad edildi. Taleyin çətin sınaqları ilə üzləşən zaman öz həyatını təhlükəyə ataraq, heç nədən qorxmadan, çəkinmədən doğma xalqının imdadına çatan Ümummilli liderin xatirəsinə ehtiram əlaməti olaraq insanlar Fəxri xiyabana dəstə-dəstə axın etdilər. Eləcə də bütün idarə və müəssisələrdə, əmək kollektivlərində Ulu öndərlə bağlı anım mərasimləri keçirildi.**









Dünən Ulu öndərin **İstanbulun** Sarıyer rayonunda yerləşən Heydər Əliyev Parkındakı abidəsi ziyarət olunub. Tədbirdə İstanbuldakı baş konsulumuz Nərminə Mustafayeva, Sarıyer bələdiyyəsi sədrinin müavini Meltem Yücel Pir, qardaş ölkədə təhsil alan və təlimdə olan hərbçilərimiz, Azərbaycanın dövlət qurumlarının Türkiyədəki təmsilçiliyinin əməkdaşları, ziyalılar, media və QHT nümayəndələri iştirak ediblər.

Mərasimdə Ümummilli liderin Azərbaycan–Türkiyə münasibətlərinin, eləcə də Azərbaycanın inkişafındakı əvəzsiz xidmətlərindən danışıblar. Çıxış edənlər Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan Qarabağ Zəfərini də vurğulayıblar.

***

Ulu öndərin anım günü ilə bağlı daha bir tədbir **Qazaxıstandakı** səfirliyimizdə baş tutub. Səfir Ağalar Atamoğlanov bildirib ki, Heydər Əliyev beynəlxalq arenada gərgin diplomatik iş aparıb, çoxsaylı dövlətlərlə danışıqlar nəticəsində Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistanın işğalçılıq siyasətinin pislənməsi ilə bağlı qətnamələrin qəbul edilməsinə nail olub: “Heydər Əliyev Azərbaycanın iqtisadi baxımdan güclü olmasının əsaslarını yaradarkən bunu həm də Qarabağın azadlığı üçün edirdi. Çünki güclü iqtisadiyyat olmadan güclü ordu qurmaq mümkün deyildi. Onun təşəbbüsü ilə reallaşdırılan nəhəng iqtisadi layihələr ölkəyə böyük maliyyə vəsaiti gətirməklə yanaşı, güclü ordunun qurulmasına da şərait yaradıb”.

Diplomat xatırladıb ki, 2023-cü il Azərbaycanda “Heydər Əliyev ili” elan olunub və bu çərçivədə Qazaxıstanda bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib. Eyni zamanda, Astananın mərkəzi küçələrindən birinə Heydər Əliyevin adı verilib, onun haqqında Qazaxıstan TV sənədli film çəkib və “Qazpoçt” tərəfindən poçt markası buraxılıb. Bütün bunlar Heydər Əliyevin xidmətlərinin və irsinin unudulmaz olduğunu göstərir.

***

Ulu öndərin anım günü ilə bağlı **Azərbaycanın Özbəkistandakı** səfirliyinin və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşları Daşkənddəki Heydər Əliyev parkında Ulu öndərin abidəsi önünə əklil və gül dəstələri qoyublar.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti haqqında məlumat verib. Səfir ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dövrdən başlayaraq, Moskvadakı fəaliyyəti və ən nəhayət, xalqın təkidli tələbi ilə Bakıya qayıtması və müstəqil Azərbaycanın Prezidenti seçilməsi, ölkəmizi ağır bəlalardan xilas etməsi haqqında söhbət açıb.

Müasir Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevin ölkəmizi dünyaya tanıtdığını bildirən H.Quliyev deyib ki, Ulu Öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişindən sonra qısa müddətdə siyasi və iqtisadi islahatlar aparılıb, uğurlu nəticələr əldə edilib. Səfir Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər haqqında danışıb.

Səfir qeyd edib ki, Özbəkistanla Azərbaycan arasında dostluq münasibətlərinin yaranması və inkişaf etdirilməsində Heydər Əliyevin müstəsna xidmətləri var. Eyni din, dil, tarix və mədəniyyətə malik iki qardaş xalq arasında münasibətlər hazırda yüksək səviyyədədir və bu istiqamətdə fəaliyyət davam edir.

***

Azərbaycanın **Tacikistandakı** səfirliyində keçirilən mərasimdə səfir Əlimirzamin Əskərov görkəmli dövlət xadiminin həyat yolundan, müasir Azərbaycan dövlətçiliyinin qurulmasında göstərdiyi əvəzedilməz xidmətlərdən danışıb. Bildirib ki, onun səyləri nəticəsində respublikamızda vətəndaş qarşıdurmasının qarşısı alınıb, sabitlik bərpa olunub, ölkə inkişaf yoluna qədəm qoyub.

Heydər Əliyevin uğurlu siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasının və suverenliyinin tam bərqərar olması ilə nəticələndiyini, ölkəmizin sürətlə inkişaf edən, güclü və nüfuzlu dövlətə çevrildiyini vurğulayan səfir, həmçinin Ulu öndərin Azərbaycan–Tacikistan münasibətlərinin inkişafındakı xidmətlərini diqqətə çatdırıb.

***

Ulu öndərin vəfatının 21-ci ildönümü **Gürcüstanda** silsilə tədbirlərlə qeyd olunub. Ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları, Gürcüstandakı Azərbaycanlı İş Adamları Birliyinin İdarə Heyətinin sədri Nəriman Qurbanov, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbərliyi və əməkdaşları Tbilisidəki Heydər Əliyev adına parkda Ümummilli liderin abidəsi önünə əklil və gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Daha sonra Ulu öndərin Kür çayının sağ sahilindəki xatirə lövhəsi və Rustavi şəhərindəki abidəsi ziyarət olunub.

Dünya şöhrətli siyasi xadimin vəfatının 21-ci ildönümü ilə əlaqədar Gürcüstanın müxtəlif bölgələrində də anım tədbirləri, sərgi və dəyirmi masalar təşkil edilib.

***

Dahi şəxsiyyətin xatirəsi ölkəmizdən kənarda da yad edilib. Ölkəmizin **Cənubi Afrika Respublikasındakı** səfirliyində keçirilən mərasimdə səfirliyin əməkdaşları ilə yanaşı, bu ölkədə yaşayan soydaşlarımız, Türkiyənin Pretoriyada akkreditə olunan diplomatları, eləcə də CAR-ın ictimai-siyasi dairələrinin təmsilçiləri iştirak ediblər.

Müvəqqəti işlər vəkili Hüseyn Rəhimli çıxışında Heydər Əliyevin Azərbaycanın dövlətçiliyi tarixində əvəzsiz xidmətlərindən söz açıb, Ulu öndərin həm müstəqilliyimizin qorunub saxlanılmasında, həm də dövlətçiliyimizin möhkəmləndirilməsindəki tarixi rolunu qeyd edib. O, Ümummilli liderin müasir, müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı kimi xalqımızın qəlbində daim yaşayacağını, Heydər Əliyev irsinin gələcək nəsillərə örnək və tədqiqat mövzusu olduğunu bildirib.

Türkiyə səfirliyinin müşaviri Nedim Kaya Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda bir sıra layihələrin icrasında yaxından iştirak etdiyindən söhbət açaraq, Ümummilli lider haqqında xatirələri bölüşüb, onun Azərbaycan dövlətinin inkişafındakı əvəzsiz rolundan bəhs edib.

***

**İsveç Krallığındakı** səfirliyimizdə keçirilən toplantıda çıxış edən səfir Zaur Əhmədov Heydər Əliyevin Azərbaycanın dövlətçiliyi tarixindəki əvəzsiz xidmətlərindən danışıb. O qeyd edib ki, Ümummilli liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Məhz bunun nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə ərazilərimizi işğaldan azad edib.

Həmçinin Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanılması, onun gələcək nəslə ötürülməsi, eləcə də mədəniyyət və incəsənətimizin, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin geniş miqyasda təbliği istiqamətində Birinci vitse-prezident Mehriban Əliyevanın rolu xüsusi vurğulanıb.

***

**Almaniyadakı** səfirliyimiz isə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində “Müasir Azərbaycan Respublikasının banisi və Ümummilli lideri” adlı tədbir təşkil edib. Səfir Nəsimi Ağayev Heydər Əliyevin müasir, müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafındakı misilsiz xidmətlərindən söz açıb. Bildirib ki, 1990-cı illərin əvvəllərində ərazisinin 20 faizi işğal edilən Azərbaycan müstəqilliyin itirilməsi, parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən məhz Heydər Əliyevin sarsılmaz qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində xilas olaraq, dinamik inkişaf yoluna qədəm qoyub.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasının Heydər Əliyevin ən böyük arzusu olduğunu bildirən səfir bu arzunun artıq reallığa çevrildiyini və Ulu öndərin ruhunun şad olduğunu qeyd edib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib. Tədbirin iştirakçılarına Azərbaycanın zəngin tarixi-mədəni irsini əks etdirən nəşrlər təqdim olunub.

***

**Moldovanın** paytaxtı Kişineuda keçirlən toplantıda səfirliyimizin kollektivi, diaspor nümayəndələri və Qarabağ qaziləri Ulu öndərin büstü önünə tər çiçəklər düzüb, Ümummilli liderin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Səfir Ülvi Baxşəliyev Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan xalqının müasir dövlətçilik tarixinin formalaşmasında və inkişafında rolu barədə ətraflı məlumat verib. Bildirib ki, Ulu öndər Azərbaycan–Moldova münasibətlərinin memarıdır.

Azərbaycanın **Fransadakı** səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən tədbirdə səfir Leyla Abdullayeva çıxış edərək bildirib ki, Azərbaycanın bu gün qüdrətli dövlətə çevrilməsinin təməlində Ulu öndər Heydər Əliyevin müdrik, uzaqgörən xarici və daxili siyasəti dayanır.

L.Abdullayeva qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu nəticəsində Azərbaycan beynəlxalq aləmdə layiqli yerini tutub və möhkəmlənib.

Tədbirdə Azərbaycanın siyasi və dövlət xadimi, diplomat, alim, tarix elmləri doktoru Həsən Həsənov Azərbaycan–Fransa münasibətlərinin tarixi, ümummilli liderin Fransaya ilk səfəri, o zamankı Prezident Fransua Mitteranla görüşündən söz açıb. “Mitteran Azərbaycanın bölgədəki yerini və rolunu, iqtisadi potensialını, ən əsası isə Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzunu yüksək dəyərləndirirdi. Çünki Mitteranın SSRİ ilə əlaqələri vardı və Heydər Əliyev Moskvada çalışdığı vaxtlardan onu tanıyırdı” – deyə Həsən Həsənov qeyd edib. O vurğulayıb ki, Heydər Əliyev Azərbaycanı olduğu kimi dünyaya göstərmək, problemlərini, ölkəmizə qarşı təcavüzü beynəlxalq aləmə çatdırmaq istəyirdi. Bu kimi səfərlərin əsas məramı Azərbaycanın real vəziyyətini beynəlxalq aləmə çatdırmaq idi. Ölkəmizin buna böyük ehtiyacı var idi. Heydər Əliyev də bunu hamıdan yaxşı və çox inandırıcı şəkildə edə bilirdi.

*Hazırladı:*
***Q.KƏNGƏRLİ,***
***S.NAZİMOĞLU***
***XQ***

# Bölgələrdə Ulu öndər ehtiramla anıldı









**(əvvəli 9-cu səhifədə)**

## Xankəndi

Böyük siyasi xadim Heydər Əliyevin əziz xatirəsi respublikamızın hər yerində olduğu kimi, Xankəndidə də anılıb. Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qarabağ Universitetinin əməkdaşları, Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin, idarə və təşkilatların rəhbərləri, Xankəndi və Xocalı sakinləri iştirak ediblər.

Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov Xankəndidə Azərbaycan Bayrağının ucaldılmasını həm Heydər Əliyevin 100 illiyinə, həm də xalqımıza ən böyük töhfə adlandırıb. O, diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin sərkərdəlik məharəti ilə bu gün Qarabağ və Şərqi Zəngəzurun azadlığına qovuşması, ərazi suverenliyimizin tam bərpası məhz Heydər Əliyev siyasətinin təntənəsidir.

## Laçın

Azadlığına qovuşmuş dağlar diyarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşkilatçılığı ilə anım günü keçirilib. Mərasimdə xüsusi nümayəndəliyin, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Laçın şəhər, Zabux və Sus kənd tam orta məktəblərinin pedaqoji heyəti, tibb işçiləri, şəhid ailələri, qazilər iştirak ediblər.

Ulu öndərin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib. Sonra Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov çıxış edərək bildirib ki, unudulmaz dahi şəxsiyyətin irsi və ideyaları bizim üçün bir mayakdır. Ümummilli liderin siyasi kursu uğurla davam edir və bu əsasda Azərbaycan Qarabağın işğaldan azad edilməsi kimi tarixi Zəfəri gerçəkləşdirilib.

Məktəblilər dahi şəxsiyyət Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndiriblər. Sonda isə “Heydər Əliyev. Zamanın fövqündə” sənədli filmi nümayiş olunub.

## Şirvan

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ehsan süfrəsi verilib. Mərasimdən öncə dünya səviyyəli böyük siyasətçinin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə həsr olunmuş foto-sərgiyə baxış keçirilib. Ümummilli lider Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətlərindən bəhs edən “Millət atası” filmi nümayiş olunub.

## Lənkəran

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli lider Heydər Əliyevin anım günü Lənkəranda da geniş qeyd edilib. Şəhər rəsmiləri, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, ağsaqqallar, müharibə veteranları, tələbələr, ictimaiyyətin müxtəlif təbəqələrini təmsil edənlər Ulu öndərin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, ona olan sevgi, hörmət və ehtiramlarını bildiriblər.

Mərasim iştirakçıları daha sonra Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Ümummilli liderin həyat və fəaliyyətinə aid muzeyi də ziyarət ediblər. Günorta saatlarında Ümummilli liderın anım günü ilə bağlı “Şah” Şadlıq Sarayında şəhid ailələri, qazilər və müharibə iştirakçılarının da iştirakı ilə ehsan süfrəsi təşkil olunub.

## Şəmkir

Rayon icra hakimiyyətinin rəsmiləri, geniş ictimaiyyət nümayəndələri Heydər Əliyevin Şəmkirin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Daha sonra Ümummilli liderin vəfatı günü ilə əlaqədar rayon ictimaiyyəti üçün ehsan süfrəsi açılıb. Çıxış edən RİH başçısı qeyd edib ki,Ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Vətəni və xalqı qarşısında müstəsna xidmətləri, dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində əvəzsiz rolu həmişə dərin minnətdarlıq hissi ilə yad edilir. Heydər Əliyevin Şəmkirə qayğısı öz bəhrəsini vermiş, Azərbaycanın bu qədim və tarixi bölgəsi ölkəmizin ən inkişaf etmiş bölgələrindən birinə çevrilib.

## Qax

Zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əliyevin əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Qaxda da dərin ehtiramla anılıb. Səhər saatlarından başlayaraq rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, müharibə veteranları, YAP fəalları, ictimaiyyətin nümayəndələri, gənclər Ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsi önündə baş əyiblər. Həmçinin rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar rayonda ehsan süfrəsi təşkil edilmişdir.

## Balakən

Rayonda Ümummilli lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Anım Günü böyük izdihamla keçib. Balakən Rayon İcra Hakimiyyətinin rəsmiləri, hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, qazilər, ziyalılar, YAP rayon təşkilatının fəalları böyük siyasi xadim Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər. Daha sonra anım günü ilə əlaqədar “Balakən” şadlıq evində ehsan mərasimi təşkil olunub.

## Goranboy

Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət, müasir Azərbaycan dövlətçiliyinin və azərbaycançılıq məfkurəsinin banisi Heydər Əliyevin ölməz ruhuna Goranboyda böyük ehtiram duyğuları nümayiş etdirilib. Anım tədbirində, rayon rəhbərləri, geniş ictimaiyyətin nümayəndələri, şəhid ailələri, qazilər, ağsaqqallar və ziyalılar iştirak ediblər.

Qeyd olunub ki, Heydər Əliyev dühasının xidmətləri olan misilsiz nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtarıb, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz edib.

*Hazırladılar:*
***Əli NƏCƏFXANLI,***
***Hamlet QASIMOV,***
***İlqar HƏSƏNOV***
***XQ***

# Xalqın qəlbində və əməllərində yaşayan lider

***Dünən Fəxri xiyabanda böyük izdiham vardı. Vəfatının 21-ci ildönümü ilə əlaqədar ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmək üçün hamı bu məkana üz tutmuşdu. Onlar Ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək məzarı önünə gül dəstələri qoyurdular.***



Bakı ilə yanaşı, Azərbaycanın bütün bölgələrində xalqımızın böyük oğlu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin ildönümü ilə əlaqədar anım tədbirləri keçirildi, sərgi və filmlər nümayiş etdirildi. Fəxri xiyabanı ziyarət edən soydaşlarımızın ürək sözlərini öyrəndik.

**“Xalq qəzeti” ilə təəssüratını bölüşən beynəlxalq münasibətlər** üzrə **analitik Masil Dəmirov dedi:** Azərbaycan torpağı



dünyaya bir çox nadir şəxsiyyətlər bəxş edib. Ölkəmiz üzləşdiyi bütün çətinlikləri mərdliklə və qürurla dəf edərək, hazırda çiçəklənmə və tərəqqi dövrünü yaşayır. Tarix ayrı-ayrı şəxslərin hadisələrdəki rolunu müxtəlif cür əlaqələndirə bilər. Təkzibolunmaz fakt ondan ibarətdir ki, müstəqil və suveren Azərbaycanın əsaslarını ötən əsrin 60-cı illərindən başlayaraq qoyan, 1993-cü ildən 2003-cü illərdə onu möhkəmləndirən məhz Heydər Əliyev olub. Bu gün Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə müasir dünyada söz sahibinə çevrilmiş ölkəsidir.

Yaşadığımız qloballaşma dövründə ayrı-ayrı ölkələrdə yeni formalaşma prosesi, obyektiv olaraq, məhz qlobal proseslərin təsiri altında baş verir. Bu tendensiya son illər özünü daha qabarıq göstərir. Müasir cəmiyyətin və dövlətin əsas vəzifələrindən biri ahıl nəslin təcrübəsini cəmiyyətin gənc üzvlərinin qətiyyəti və fəallığı ilə uzlaşdırmaqdır. Yeni dünyanın düzəni gəncliyin yanaşmasından birbaşa asılıdır. Azərbaycanda gənclər siyasətinin əsasının qoyulması, onun milli-mənəvi dəyərlər əsasında formalaşması və inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyev Azərbaycan gəncliyini cəmiyyətin, bütövlükdə müstəqilliyinin sərvətinə çevirdi.

* * *

**Bakı Dövlət Universitetinin müəllimi Mübariz Göyüşlü** müasir Azərbaycanın banisi Heydər Əliyevin nəhəng dövlətçilik təcrübəsi, siyasi fəhmi və iradəsi ilə dövlətimizin formalaşmasında müstəsna xidmətindən danışdı:

– “Heydər Əliyev sayəsində Azərbaycan dövləti dağılmaqdan, xalqımız isə parçalanmaqdan xilas oldu. Ulu öndərin vəfatından sonra onun irəli sürdüyü ideyalar, dövlətçiliyin qorunması ilə bağlı tövsiyələri Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ulu öndərin əsasını qoyduğu dövlətçilik siyasəti bu gün öz bəhrəsini verir. İlham Əliyev bu siyasəti davam etdirərək, torpaqlarımız işğaldan azad etdi, Azərbaycanı güclü bir dövlətə çevirməyi bacardı. Heydər Əliyevin ideyaları bu gün də dövlətimizin inkişafına xidmət edir.

* * *

“Ömrünü ölkəsinə və xalqına xidmətə həsr edən dahi şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycanın tarixində xilaskar kimi əbədi qalacaq”. **Bunu “Optimist Sosial Problemlərin Həllinə Yardım” İctimai Birliyin sədri Habil Niftalı dedi.** O, daha sonra bildirdi: Heydər Əliyev fəaliyyət göstərdiyi bütün sahələrdə özünü məhz birinci şəxs, lider kimi təsdiq edib: “Ulu öndərin müəllifi olduğu siyasi strategiyanın uğurlu davamı sayəsində xalqımız qələbədən-qələbəyə addımladı, Azərbaycan dünyada böyük söz sahibinə, regionun liderinə çevrildi. Bu gün hər birimiz Heydər Əliyevin şah əsəri olan qüdrətli Azərbaycanın vətəndaşı olmaqdan qürur duyuruq. Heydər Əliyev fenomeninin ən mühüm göstəriciləri Azərbaycançılıq məfkurəsinin, milli ruhun oyanışı, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplərdir”.

* * *

**Siyasi şərhçi Aydın Quliyev** qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycan KP MK-nın Birinci katibi kimi gördüyü böyük işlərin, demək olar ki, əksəriyyətində sanki Azərbaycanın müstəqillik dövrünə hazırlığın əlamətlərini görmək mümkündur:

– “O zaman bütün sahələrdə milli kadrlara önəm verilməsi, xüsusilə hərbi təhsil sahəsində yeni bir mərhələnin açılması, ölkənin sənaye potensialının artırılması üçün çox əhəmiyyətli addımların atılması bir daha sübut edir ki, Azərbaycanın müstəqilliyinə həqiqətən o dövrdən başlayaraq hazırlıq prosesi gedirdi. Doğrudan da, Heydər Əliyev istedadlı strateq, siyasi xadim, milli kadr kimi Azərbaycanın nə zamansa müstəqil olacağını hamıdan əvvəl görür və buna inanırdı. Bu gün onun ruhu həm də buna görə şaddır”.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

**Replika**

# Mirzoyanın gecikən “ümid anı”

**Ümid müsbət xarakterizə olunan hissdir. Həm də bəşər övladını ən çıxılmaz vəziyyətdə də tərk etməyən duyğu, inanmaq istədiyi nəticəni qazanacağına sonuncu istinad nöqtəsidir. Sadəcə, bu hiss boş fərziyyələrə deyil, reallığa söykənməlidir. Onda bu hiss özünü doğruldur. Əks-təqdirdə, o, yanlış təlqinə, özünüaldatmaya çevrilir.**

Necə ki, Ermənistan hakimiyyəti Azərbaycanla sülh sazişinin imzalanması ilə bağlı xeyli müddətdir özünü yalandan ümidləndirməklə, özü-özünə təskinlik verməklə məşğuldur. Ermənistan xarici işlər naziri Aratat Mirzoyan Azərbaycanla sülhə nail olmağın bir addımlığında olduqlarını, hazırda mövcud vəziyyətin onlar üçün “ümid anı”na çevrildiyini ərz edib. O, bu barədə soydaşlarına müjdə verərək, artıq sülh müqaviləsinin 17 maddəsinin 15-i üzrə razılıq əldə edildiyini bildirib. Mirzoyan sülhün kandarı kəsdirdiyinə nikbinliklə dolu bu məlumatı Finlandiyanın “Lannen Media” xəbər agentliyinə müsahibəsində açıqlayıb.



“Səmimi qəlbdən inanıram ki, bizim Cənubi Qafqazdakı münaqişə ilə bağlı səhifəni bağlamaq və regionumuzda sülhü bərqərar etmək imkanımız var. Əminəm ki, bu sülh regionun bütün xalqlarına və ölkələrinə xeyir verəcək”. Hayların baş diplomatı bu sözləri indi deyil, cari ilin iyun ayında demişdi. Ondan sonra da, COP29 ərəfəsində də oxşar nikbin proqnozları dilə gətirmişdi.

Bəs, nə oldu? Mirzoyanın “ümid anı” nədən bu qədər gecikir? Ləngimənin səbəbi, yaxud səbəbləri nədir? “Düşünürəm ki, biz Bakıda keçiriləcək COP29 iqlim sammitinə qədər müzakirələri başa çatdırıb sazişi imzalaya bilərik. Təəssüf ki, bu, baş vermədi, lakin biz indi bunu mümkün qədər tez etməyə hazırıq. Hətta deyə bilərik ki, bu, bizim üçün bir “ümid anı”dır. Bəli, demək istəyirəm ki, biz sülhə çox yaxınıq. İki dövlətin və cəmiyyətin faciəli keçmişinə baxmayaraq, düşmənçilik səhifəsini çevirmək şansı var. Çətin keçmişi unutmalıyıq”.

Bəli, ötüb keçənləri unutmaq, bağışlamaq çətindir. Bakı bədnam qonşuların xalqımıza, 30 il işğal altında saxladıqları torpaqlarımıza qarşı etdikləri vəhşilikləri sülhün, əmin-amanlığın xatirinə unutmağa hazır olduğunu dəfələrlə bəyan edib. Sözdə İrəvan da bununla razılaşdığını ərz edir: “Bölgəmizdə kifayət qədər qan tökülüb və indi gələcəyə baxmaq imkanımız var”. Mirzoyan bu sözləri 2020-ci il müharibəsindən sonra Ermənistanda yaranmış daxili siyasi böhranla bağlı deyib.

“Ölkənin baş naziri, hökuməti və siyasi komandası növbədənkənar parlament seçkiləri keçirmək qərarına gəlib. Biz xalqın yanına gedib iki şeyi soruşduq: daha dərin demokratik islahatları və sülh gündəmini, yəni hökumətin siyasətini dəstəkləyirlərmi? Biz yenə də səs çoxluğunu aldıq. 2026-cı il seçkilərində bu sualı bir daha verəcəyik. Baxmayaraq ki, sorğular da hökumətin siyasətinə dəstəkdən xəbər verir”. Bunu isə hayların baş naziri deyib.

Rəsmi İrəvanın sülh oyunlarının altında nəyin gizləndiyi üzə çıxır, “xoruzun quyruğu” görünür. Onun “xoşməramlı” sülh ritorikasının arxasında qarşıdan gələn seçkilərdə elektoratın etimadını və deməli, səsini qazanmaq planları gizlənib. Əslində, Mirzoyanın bəlağətli sülh açıqlamalarının əsas hədəfi qarşıdakı seçkilərdə qələbə qazanmaqdır.

Hazırda iqtidarın diqqətinin ölkənin təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsinə yönəldiyini deyən hayların baş diplomatı Ermənistanın çiçəklənməsinə, daim müasirləşməsinə, demokratikləşməsinə diqqət yetirdiyini vurğulayır. “Dünya dəyişir. Cəsarətli siyasi qərarlar qəbul etməyin məqamı ola bilər” fikrinin müəllifinin “ümid anı”na olan ümidlərinin tezliklə doğrulacağına biz də inanmaq istərdik. Amma Paşinyan komandası özünün sürüşkən sülh diplomatiyası, siyasi-ideoloji avantürizmi ilə onlara inam limitimizi tükəndirib.

Bakı İrəvandan konkret addımlar gözləyir. Bu addımların nədən ibarət olduğunu təkrarlamağa lüzum qalmayıb.

***İ.HƏSƏNQALA***
***XQ***

# ADA Universiteti Qazax Mərkəzində anım mərasimi

**ADA Universitetinin Qazax Mərkəzində – Müəllimlər Seminariyasında “Bir müəllimin manifesti” təhsil proqramının iştirakçılarının, tələbələrin, eləcə də Qazax və ətraf rayonların məktəblilərinin iştirakı ilə ümummilli lider Heydər Əliyevin Anım Gününə həsr olunmuş xatirə mərasimi keçirilib.**





ADA Universitetinin prorektoru, Qazax Müəllimlər Seminariyasının İdarə Heyətinin üzvü Vəfa Kazdal, ölkəmizin Gürcüstandakı səfirliyinin II katibi Ramiz Hacızadə Ulu öndərin Azərbaycanda və soydaşlarımızın yaşadığı ölkələrdəmilli təhsilin inkişafına göstərdiyi müstəsna xidmətlərdən söz açıblar.

ADA Universitetinin rektoru Hafiz Paşayev və tarix elmləri doktoru, I dərəcəli dövlət müşaviri Dilarə Seyidzadə Ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini söyləyiblər, iştirakçıların suallarını cavablandırıblar.

Sonra səyyah Azər Qəribin Prezident Heydər Əliyevin İtaliyaya rəsmi səfərindən bəhs edən “Bir səfərin izi ilə - İtaliya” filmi nümayişi etdirilib.

İştirakçılar həvəskar rəssam, Qazax Müəllimlər Seminariyasının magistratura proqramının tələbəsi Xəyalə Mustafayevanın Ümummilli liderə həsr olunmuş “Tarix yazan imza” mövzusunda sərgisinə baxıblar.

***XQ***

# FHN-də Ümummilli lider sevgi ilə yad edildi



**Fövqəladə Hallar Nazirliyinin qurumlarında və regional mərkəzlərində xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar tədbirlər keçirilib.**

Əvvəlcə, iştirakçılar Ulu öndərin abidəsi önünə gül dəstələri qoyub, Dahi Rəhbərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.Tədbirlər ümummilli lider Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılıb.

Tədbirlərdə çıxış edənlər dünya şöhrətli siyasətçi, Azərbaycanın xilaskarı ulu öndər Heydər Əliyevin mənalı həyat və fəaliyyətindən ətraflı danışıb, müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafı naminə müstəsna xidmətlərindən bəhs ediblər.

O da vurğulanıb ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi müdrik daxili və xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq münasibətlər məkanında öz sözü, siyasi çəkisi olan bir dövlət kimi tanınır, qəbul edilir. Dövlətimizin başçısının müdrik rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olunub, Azərbaycan tarixinin ən qüdrətli zirvəsinə yüksəlib.

Sonda Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

***XQ***

# Təhsil ocağında xatirə günü



**Bakının Binəqədi rayonundakı Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəbdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş Respublika konfransı keçirilib. Tədbir BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi ilə birlikdə təşkil edilib.**

Məktəbin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Almaz Həsrət ümummilli lideri Heydər Əliyevin xatirəsinin həmişə hörmətlə yad edildiyini söyləyib. O qeyd edib ki, məhz Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin təməllərini qoyub, onun bu günlərə gəlib çatması üçün strateji uzaqgörənliklə çalışıb.

Daha sonra çıxış YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov, Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova və başqaları Ulu öndərin uzaqgörənliyi, onun layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyəti bu gün Azərbaycanı qalib dövlətə çevirdiyini bildiriblər.

BDU-nun kafedra müdiri Knyaz Aslan, dosentlər Rasim Süleymanov, Nailə Mehrəliyeva, BAYRAQDAR MEDİA-nın baş redaktoru, Əməkdar jurnalist Azər Həsrət müvafiq mövzularda məruzələr ediblər.

***XQ***

# Xəritə məntiqi – “Ermənistan yoxdur” mesajı

## *Paşinyanın bildirdikləri və bildirmədikləri*

**(əvvəli 1-ci səhifədə)**

***

Əlqərəz, Ermənistan sabiq SSRİ dövrünün xəritələrini heçə saydığı üçün hazırkı acınacaqlı durumdadır. Ölkə həmin xəritələrə ciddi yanaşsaydı, 1918-ci ildə vəlvələdən, yaxud zəlzələdən əldə etdiyi dövlətçiliyin, Sovet İttifaqı dövründə formal da olsa saxladığı idarəçilik quruluşunun mirasına sahib çıxar, kifayətlənər, əlavə iddialara düşməzdi.

Əslində, indiki durumda müharibə qalibi olan Azərbaycan Ermənistana münasibətdə humanist davranır. Yəni, əzəli torpaqları hesabına formalaşmış dövlətin varlığını sürdürməsinə imkan tanıyır. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra Ermənistana sülh əlini uzadan məhz Azərbaycan olmuşdu. Lakin hadisələrin axarı göstərmişdi və bu gün də göstərir ki, qarşı tərəf sülhdən, barış mühitindən uzaqdır və niyyətini sərsəm əməlləri ilə ortaya qoyur, çeşidli manipulyasiyalara əl atır. Məsələyə bir qədər geniş anlamda yanaşsaq, N.Paşinyanın hazırda diqqətə çatdırdıqları da manipulyasiyadır. Elə isə onun nə dediyinə bir qədər ətraflı nəzər salaq.

***

Bəli, Ermənistanda bildirilir ki, Azərbaycanla delimitasiya və demarkasiya prosesində mövcud olmayan bir ölkənin, yəni SSRİ-nin xəritələrinə istinad yolverilməzdir. Paşinyan isə vurğulayır: “Açığını deməliyəm ki, bu yanaşma Ermənistan üçün çox təhlükəlidir. Çünki SSRİ-nin xəritələrindən imtina dövlətçilikdən və müstəqillikdən imtina demək ola bilər. Biz Sovet Ermənistanı ərazisində müstəqillik əldə etmişik və beynəlxalq ictimaiyyət bizi belə tanıyıb. Beynəlxalq səviyyədə tanınmış ərazimizə sadiq qalmaq mühüm təhlükəsizlik buferidir. Mən dəfələrlə ictimai çıxışlarda demişəm ki, əgər özümüz beynəlxalq səviyyədə tanınmış ərazimizi dəqiq tanımırıqsa, başqalarına bizə istinad etməklə onu tanımamağa imkan veririk. Beynəlxalq səviyyədə tanınmış ərazimizi tam olaraq tanımamaqla, öz qapılarımızı başqalarının üzünə açırıq”.

Ölkəsinin Tavuş vilayətinin Kirants kəndi ərazisində Ermənistanla Azərbaycan sərhədinin demarkasiyası və bu istiqamətdə Ermənistanın suveren ərazisinin güzəştə gedilməsi xüsusundakı ittihamlar barədə danışan Paşinyan həmin ərazidə sərhəd respublikalarının fiksasiyası istiqamətində mühüm addımın atıldığını bildirib: “Biz öz qapılarımızı, dövlətimizin sərhədini, dövlətimizin astanasını bərkitmişik və mən bunu uğur hekayəsi, sıçrayış hesab edirəm. Kirantsa gedin və bu uğuru öz gözlərinizlə görəcəksiniz”.

***

Qeyd edək ki, hazırda Azərbaycanla Ermənistan arasında sərhədlərin yalnız 12 kilometrlik hissəsində dəqiqləşmə aparılıb. Paşinyanın uğur kimi qiymətləndirdiyi məhz budur. Digər hissələrdə isə vəziyyət əvvəllərdə olduğu kimidir, hələlik hansısa irəliləyiş yoxdur. Sözügedən Tavuş vilayətinin Kirants kəndi ilə bağlı delimitasiya işinə gəldikdə, məsələ bu gün də Ermənistanda aqressiv tonda qarşılanır, elə təqdim edilir ki, guya, İrəvan Bakıya güzəştə gedib. Ən pisi isə budur ki, Paşinyan iqtidarı qətiyyət göstərib belə mənfi meyillərin qarşısına çıxmır, əvəzində sülhdən yayınır. Sülhdən yayınma isə sərhədin digər hissələrinin müəyyənləşməsi prosesini dalana dirəyir.

Ümumən, Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası və demarkasiyasında keçmiş SSRİ dövrünün xəritələrinə istinad mövzusu indinin söhbəti deyil. Məsələ bir neçə ildir gündəmdədir. Bu məsələdə rəsmi İrəvanın 1991-ci ilin Alma-Ata Bəyannaməsini ehkamlaşdırdığını görmüşük. Paşinyan hakimiyyəti, eyni zamanda, sabiq SSRİ Baş Qərargahının 1975-ci ildən sonrakı xəritələrinin əsas götürülməli olduğuna dair tezislər də tirajlayıb.

***

Deməli, hazırda sərhədlərin müəyyənləşdirilməsi prosesində keçmiş SSRİ dövrünün xəritələrindən imtinanın yolverilməzliyindən söz açan Paşinyan hansı hədəfə vurduğunu yaxşı bilir. O, bəlkə özü də fərqinə varmadan erməni dövlətinin mövcud olmadığı reallığını diqqətə çatdırır. Ancaq digər vacib məqam da var.

Bir halda ki, SSRİ dövrünün xəritələri əsas götürülür, o zaman məsələyə kompleks yanaşılmalıdır. Keçmiş müttəfiq respublikalar kimi, Azərbaycanın və Ermənistanın SSRİ-yə qoşularkən, malik olduqları ərazilər üzərində dayanılmalıdır. Yəni, bilavasitə 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinad düzgün deyil. Çünki sözügedən sənədə görə, Sovet İttifaqına daxil olan respublikalar bir-birinin ərazi bütövlüklərini və suverenliklərini İttifaqdan ayrılarkən malik olduqları ərazilər daxilində tanıyırdılar. Ermənistanın bu prinsipə məhəl qoymayıb işğalçılıq siyasəti yürütdüyünü kənara qoyuruq. Çünki məsələ barədə söz açdıq. Burada bir başlıca məqam var və həmin məqama söykənərək, ərazi ilə bağlı durumda SSRİ-yə qoşulmanın nəzərə alınmasının vacibliyi amilinə aydınlıq gətirəcəyik.



***

Məlum olduğu kimi, SSRİ dövründə Azərbaycan SSR-in ərazilərindən Ermənistan SSR-ə bəxşişlər verilmişdi. Erməni millətçiləri və sabiq SSRİ rəhbərliyindəki ermənipərəstlər Azərbaycanın satqınları ilə birləşərək, çox böyük qanunsuzlara imza atmışdılar. Mövcud məqamı Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində də qabartmışdı. Dövlətimizin başçısı bildirmişdi ki, Ermənistanın 1970-ci illərin xəritələrini əsas götürməsinin nə metodoloji, nə də siyasi anlamı var. Prezident Əliyev siyasi əsaslarla istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrü, ya da sovetləşmə dövrünü götürməyi irəli sürmüşdü: “Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin, bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, “Ermənistan plyus” qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik”.

Dövlətimizin başçısı sözügedən müsahibəsində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini, daha da azğınlaşdığını və 1920-ci ilin sovetləşməsindən sonra Qərbi Zəngəzurun böyük hissəsinin Azərbaycandan qoparıldığını, həmin ərazinin XX əsrin əvvəlinin xəritələrində əksini tapdığını, belə torpaq hədiyyələrinin illər keçdikcə davam etdiyini, sonuncu xoşagəlməz halın isə 1969-cu ilin mayında qeydə alındığını diqqətə çatdırmışdı. Ölkəmizin lideri, həmçinin bildirmişdi ki, 1969-cu ilədək torpaqlarımızın hissə-hissə Ermənistana verilməsi nəticəsində ərazilərimiz “100 min kvadratkilometrdən – mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam – 86,6 min kvadratkilometrə düşdü”.

Bütün bunlar öz yerində. 1929-cu ildə Azərbaycan SSR-in torpaqları hesabına Ermənistan SSR tərkibində Mehri rayonu yaradılıb. Görəsən, Paşinyan SSRİ xəritələrinə istinadın vacibliyindən söz açarkən, bunu nəzərə alırmı? Bu rayon sovetləşmədən doqquz il, SSRİ-nin formalaşdırılmasından isə beş il sonra yaradılmışdı. Prezident İlham Əliyev müsahibəsində sırf bu məqama toxunmasa da, ancaq onun Naxçıvana yol kontekstində Mehri marşrutunun səmərəliliyindən söz açdığını, hələ Sovetlər Birliyi zamanında həmin ərazidən dəmir yolu xəttinin keçdiyini diqqətə çatdırdığını yada salmalıyıq.

***

Keçək əvvəldə haqqında söz açdığımız məsuliyyət məsələsinə. Söhbət 44 günlük müharibə məğlubu kimi Ermənistanın üzərinə düşən məsuliyyətdən və öhdəlikdən gedir. Hər keçinin öz ayağından asılmalı olduğunu da vurğuladıq. Onu da dedik ki, hazırkı Ermənistan vəlvələdən, yaxud zəlzələdən mövcud olmuş dövlətdir, böyük ölçüdə yanaşsaq, tarixi səhvin, xəyanətin nəticəsidir.

Azərbaycan dövləti soydaşlarımızın hazırkı Ermənistan ərazisində yaşamalarının vacibliyini prioritet seçsə də və ümumən Qərbi Azərbaycana qayıdış konsepsiyası dinc məqsədli olsa da, digər prinsipial məqamlar da var. Prinsipial məqam haqqında söz açdığımız Mehri marşrutudur. Yəni, Naxçıvana yoldur. O yol ki, rəsmi Bakı onun maneəsizliyi məntiqini irəli sürür, heç bir gömrük və sərhəd nəzarəti olmadan açılmasını zəruri sayır.

Deməli, mövcud xüsusda Paşinyanın, yaxud digər erməni rəsmisinin SSRİ dövrü xəritələrinə istinadı yolverilməzdir. Çünki Ermənistan hakimiyyəti tərəfindən əsas götürülən həmin xəritələrin hansı yolla ərsəyə gəldiyini xatırlatdıq. Paşinyan hakimiyyətində bunu dərk etmək, müharibə məğlubu statusu ilə barışmaq istəyən yoxdursa, xəritə anlayışı da olmayacaq. Bu anlayışsız Ermənistanın mövcud olmadığını isə biz demədik, Nikolun özü bildirdi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Separatçı tör-töküntünün növbəti avantürası

**Qarabağ və Şərqi Zəngəzurun 2020-ci ildə baş verən Vətən müharibəsi nəticəsində işğaldan azad olunmasını, öz əzəli və əbədi sahiblərinə qaytarılmasını, həmçinin 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərinin nəticələrini, yəni Azərbaycanın dövlət suverenliyinin bərpa olunmasını heç cür qəbul edə bilməyən, “bəlkə də qaytardılar” xülyası ilə yaşayanlar – Ermənistandakı radikal–revanşist kəsimi təmsil edən şəxslər son vaxtlar xeyli aktivləşiblər. Onlar tez-tez müxtəlif bəhanələrlə bir yerə yığışıb xosunlaşır, mövcud durumu təhlil edir, düşdükləri vəziyyətdən çıxış yolları arayır və gələcək planları müzakirə edirlər.**

Qarabağ məsələsində canfəşanlıq edənlərdən biri parlamentin deputatı Qarnik Danielyandır. O, ölkənin ikinci prezidenti, ötən əsrin 80-ci illərinin sonunda Qarabağın dağlıq hissəsində başlayan etnik separatizmin ən fəal iştirakçılarından olan Xocalı qatili Robert Koçaryanın başçılıq etdiyi “Hayastan” blokunun siyahısı üzrə 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində deputat seçilib. Məlum olduğu kimi, Koçaryan mandat qazansa da, parlamentin işində iştirakdan imtina edib. Onun əvəzinə parlamentdəki “Hayastan” fraksiyasına rəhbərliyi işğalçı müharibənin birbaşa iştirakçısı Seyran Ohanyan həyata keçirir. Partiya mənsubiyyətinə görə, tarixən iki xalq arasına nifaq salınmasında məxsusi rol oynayan “Daşnaksütyun”un üzvü olan 40 yaşlı Danielyan hayların qanunverici orqanında Tavuş vilayətini təmsil edir. Yeri gəlmişkən, qeyd edək ki, Qarnik erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyanın “Müqəddəs mübarizə” adlanan qondarma hərəkatının da fəal iştirakçılarındandır.



O, bugünlərdə jurnalistlərə müsahibəsində “Artsax məsələsi”nin bağlanmadığını iddia edib. Danielyan tipik xəstə hay təxəyyülünü işə salaraq, yenə də bölgədə “etnik təmizləmə və soyqırımı”nın baş verdiyindən dəm vurub. Guya, bunun nəticəsində 150 min (?) erməni “vətənini” itirib. Qarnik deyib ki, bu istiqamətdə hər gün çalışmaq onların borcudur. Onun sözlərinə görə, dekabrın 10-da, saat 12-də “Artsax parlamenti”nin “növbədənkənar iclası” keçirilib. Bu zaman beynəlxalq ictimaiyyətə və ATƏT-in keçmiş Minsk qrupunun üzvü olan ölkələrə çatdırılması üçün “mühüm müraciət” qəbul edilib. İclasa Ermənistan parlamentinin deputatları da qonaq qismində dəvət olunublarmış. “Artsax məsələsi bağlı deyil. Beynəlxalq ictimaiyyətin müxtəlif aktorları bu məsələ ilə bağlı çoxlu bəyanatlar veriblər. Və biz hər şeyi etməliyik ki, Artsax ermənilərinin geri qayıtmaq hüququ gündəmdə olsun. Bu istiqamətdə qarşıda görüləsi hələ çox iş var” – deyə o sərsəmləyib.

Danielyan daha sonra Paşinyan iqtidarını tənqid edib. Hökuməti bu istiqamətdə iş görməməkdə qınayıb: “Yeganə hökumət, ölkə Ermənistan Respublikasıdır ki, bu istiqamətdə heç bir addım atmır. Bu isə böyük təəssüf doğurur. Bütün faciə və maraqlı məsələ ondan ibarətdir ki, Ermənistan hökuməti və hakimiyyət orqanları istisna olmaqla, bir çox ölkələrdə bu barədə danışırlar”.

Beynəlxalq ictimaiyyətə “Artsax”la bağlı bəyanatları nə vaxt göndərəcəklərini soruşduqda deputat deyib: “Tezliklə bu elanlar media orqanlarında açıqlanacaq. Görəcəksiniz ki, çox mühüm bəyanatlar verilib və biz bu istiqamətdə işləyəcəyik”.

Günün sonuna yaxın Danielyanın haqqında bəhs etdiyi bəyanatların nədən ibarət olduğu açıqlanıb. Məlum olub ki, keçmiş qondarma rejimin hələ də özünü buraxmamış əldəqayırma parlamenti beynəlxalq ictimaiyyətə, BMT-yə üzv ölkələrə separatçı rejimin “müstəqilliyinin tanınması” ilə bağlı müraciət ünvanlayıb. Aydın məsələdir ki, müraciətdə baş vermiş hadisələrin mahiyyəti ciddi şəkildə təhrif olunub. Daha doğrusu, hər şey başqa formada təqdim edilib. Müraciətdə hələ 2023-cü il iyulun 27-də dünya ictimaiyyətinə və BMT-yə üzv dövlətlərə qondarma rejimin “müstəqilliyinin tanınması” ilə bağlı çağırış edildiyi xatırladılıb. Bildirilib ki, BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlər və digər beynəlxalq oyunçular, “Artsax parlamenti” tərəfindən qəbul edilmiş müraciətdəki xəbərdarlığa tamamilə biganəlik nümayiş etdiriblər. Proseslərin qarşısını ya adekvat şəkildə ala bilməyiblər, ya da almaq istəməyiblər.

Maraqlıdır, proseslərin hələ, necə deyərlər, isti fazada olduğu dövrdə keçmiş separatçı rejimin tanınması ilə iyulun 27-də edilən müraciətə beynəlxalq ictimaiyyət məhəl qoymayıbsa, indi hansı tədbirləri görəcək? İndiki müraciətlə tanış olduqda adamda onu yazanların reallıq hissini itirdikləri, yaxud başqa planetdə yaşadıqları təəssüratı yaranır. Deyəsən, bu şəxslər regionda yaranmış reallıqlardan bixəbərdirlər. Məgər bu cızma-qaraya imza atanlar elə həmin beynəlxalq ictimaiyyətin, BMT-yə üzv dövlətlərin Qarabağ və Şərqi Zəngəzuru Azərbaycan ərazisi kimi tanıdığını bilmirlər?! Bilmirlər ki, Azərbaycan Respublikası 1992-ci ildə BMT-yə 86,6 min kvadratkilometrlik ərazidə suveren hüquqlara malik olması ilə qəbul edilib. Əgər dünyanın müxtəlif ölkələrində yaşayan hər bir separatçı rejimə “dövlət” qurmaq hüququ tanınsaydı, o zaman Yer kürəsində hansı vəziyyətin yaranacağını təsəvvür etmək çətin olmazdı. Digər tərəfdən erməni xalqı bir dəfə öz müqəddəratını təyin edib. Özü də bu təyinetmə Azərbaycan torpaqları hesabına baş verib. Yenidən bizim ərazilərimizdə ikinci erməni dövlətinin yaranmasına yol verilməyəcəyi Azərbaycan dövlətinin prinsipial mövqeyi idi. Bu mövqeyə əsaslanan siyasət də uğurla həyata keçirildi.

Bu mənada onların müraciətləri heç nəyə lazım olmayan, diqqəti çəkməyən adi kağız parçasıdır. Sadəcə, özlərinin varlıqlarını, fəaliyyət göstərdiklərini, necə deyərlər, nəfəslərinin gedib-gəldiyini göstərmək üçün arada belə avantürist açıqlamalarla çıxış edirlər.

Müraciətdə əksini tapan “hərbi təcavüz, etnik təmizləmə və soyqırımı aksiyaları” sözlərini də, bütövlükdə, separatçıların özlərinə aid etmək lazımdır. Bu əməlləri tarixin müxtəlif dönəmlərində məhz ermənilər bizə qarşı həyata keçirmişlər. İndi isə öz adlarını bizə qoymaq yolunu tuturlar. Amma daha bu oyunlar keçməz. Həmçinin, müraciətdə Azərbaycanın, guya, cəzasız qalması sözləri də, əslində, Ermənistandakı Qarabağ klanına aid edilməlidir. İndi keçmiş separatçı rejimin “qlavarları”nın bir qismi istintaq təcridxanasındadırlar. Prezident İlham Əliyevin bildirdiyi kimi, bizə qarşı qanlı müharibə aparan, vandallıq, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün “keçmiş liderlər”, ondan sonra Qarabağa ixrac edilmiş “baş nazir” və digərləri var. Təkcə o qruplaşmada iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Təxmin etmək çətin deyil ki, cənab İlham Əliyevin nəzərdə tutduğu iki nəfər Ermənistanın ikinci və üçüncü prezidentləri olmuş əlləri qanlı Robert Koçaryan və Serj Sarkisyandır.

Ancaq bütün hallarda separatçı tör-töküntülərin İrəvanda bir yerə yığışmaları, “parlament” adlanan qondarma qurumun iclasını (özü də növbədənkənar–S.H.) keçirmələri onların İrəvanda və dünyanın digər yerlərində dinc dayanmadıqlarını göstərir. Məhz bu kimi halların nəticəsidir ki, bu gün Azərbaycan haqlı olaraq, Ermənistandan konstitusiyasına dəyişiklik etməsini, ölkəmizə qarşı ərazi iddialarını qanunvericilik müstəvisindən yığışdırmağı tələb edir. Azərbaycana qarşı ərazi iddialarından imtina edilməsi ilə bağlı erməni xalqının aydın ifadə edilmiş iradəsi olmadıqca Ermənistandakı istənilən gələcək hökumət 2020-ci ildən önçəki vəziyyətə qayıtmaq üçün gücə əl ata bilər. Ermənilərin nəinki verdikləri sözdən, eləcə də imzalarından imtina etmələri ilk dəfə deyil. Biz bunun nümunələrini çox görmüşük. Uzağa getmək lazım deyil. Nikol Paşinyan İkinci Qarabağ müharibəsinin başa çatmasını rəsmiləşdirən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndi ilə bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrin bərpa ediləcəyinə dair üzərinə götürdüyü öhdəliyi 4 ildən çoxdur ki, yerinə yetirmir. Yaxud, antiterror tədbirlərindən sonra – 2023-cü il sentyabrın 28-də keçmiş separatçı rejimin sonuncu “qlavarı” Samvel Şahramanyan rejimin 2024-cü il yanvarın 1-dən özünü buraxacağına dair “fərman” imzalamışdı. Amma cəmi iki ay sonra İrəvanda etirazçılar önünə çıxan Şahramanyan “xalqın seçdiyi strukturların hansısa fərmanla ləğvinin mümkün olmadığını” bildirdi. Bu baxımdan sülhə nail olmaq üçün Ermənistan konstitusiyasında mütləq dəyişiklik edilməlidir. Bu məsələ həm sülh müqaviləsi, həm də Cənubi Qafqazın gələcək təhlükəsizliyi baxımından fundamental əhəmiyyətə malikdir.

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən “World Panorama” Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** bildirdi ki, Ermənistandakı və Qarabağdakı separatçı qüvvələrin öz əməllərindən əl çəkməyəcəkləri gözlənilən idi. Onun sözlərinə görə, Azərbaycan tərəfi də əvvəldən belə bir gözləntidə olmayıb: “Ermənilərin hər zaman Azərbaycan və Türkiyə torpaqlarında gözü olub. Ötən əsrin 80-ci illərinin sonlarında – SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda mərkəzi hakimiyyətin zəifliyindən istifadə edən ermənilər Qarabağda etnik separatçılığa başladılar. Onlar öz məqsədlərinə müəyyən mənada nail oldular. Şübhə etmirəm ki, Ermənistan güclü dövlət olsaydı, Türkiyəyə qarşı da silahlı hərbi müdaxiləyə başlayardı. Ölkənin keçmiş prezidenti Serj Sarkisyan bir vaxtlar erməni yeniyetmələrə müraciət edərək bildirmişdi ki, biz Qarabağı aldıq, Ağrı dağının yerləşdiyi torpaqları almaq da sizin üzərinizə düşür. Yəni, onların iştahı bu qədər böyük idi”.



Politoloq qeyd etdi ki, Qərbdə müəyyən qüvvələr erməni separatizminə havadarlıq edir və Qarabağ məsələsinin bağlanmadığını bildirirlər. Ermənilərlə sıx münasibətdə olan dövlətlər bu məsələnin gündəmdə qalmasına çalışırlar. Əlbəttə, bu prosesdə onların özlərinin də maraqları var. Onlar Hayastanın indiki iqtidarını da qızışdıraraq, İrəvanın sülhə gəlməsini əngəlləyirlər. Qarabağ məsələsinin müxtəlif Qərb ölkələrinin qanunverici orqanlarında, Avropa Parlamentində müzakirəyə çıxarılması və bədnam qətnamələrin qəbul olunması mənfur niyyətlərdən xəbər verir.

R.Məmmədovanın fikrincə, məkrli siyasət bundan sonra da davam etdiriləcək. Azərbaycan isə belə əsassız iddiaların qarşısını ala bilmək üçün tarixin bütün mərhələlərində güclü olmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Saxta "soyqırımı" ritorikası və Mirzoyanın ikiüzlülüyü

## Yaxud Azərbaycana qarşı subliminal ittiham tonu

**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ikiüzlülüyündən qalmır. Bunu bildirməyimiz heç də təsadüfi deyil. Nəzərə alaq ki, onun şəxsində ikiüzlülük edən elə Ermənistan dövlətinin özüdür. Bu barədə söz açacağıq. Hələlik isə bir sıra məqamlara aydınlıq gətirək.**

***

Baş nazir Nikol Paşinyan bu günlərdə ölkə parlamentindəki çıxışı zamanı "Məzlum millət" düsturu kimi qələmə verdiyi məsələdən danışmışdı. O bildirmişdi ki, ermənilər özlərini beynəlxalq aləmə yazıq qiyafəsində göstərirlər. Bu isə yekunda "Ordu millət" düsturunun meydana çıxması reallığını doğurur. Yəni, məzlumluqdan çıxmaq üçün silaha əl atmaq əsas götürülür.

Nikol yanaşmanın doğru olmadığını vurğulamışdı. O, hətta bir qədər irəli gedərək, Ermənistan üçün güclü ordunun vacibliyini bildirmiş, lakin həmin ordu ilə kimə qarşı döyüşülməsinə diqqət yetirmişdi. Paşinyanın sözlərindən belə çıxmışdı ki, Ermənistan nə qədər güclü hərbi struktura sahib olsa da, qarşısındakı rəqiblər daha güclüdürlər. Heç şübhəsiz, Azərbaycanı və Türkiyəni nəzərdə tutmuşdu.

Bir sözlə, Ermənistanın baş naziri köhnə stereotiplərdən, erməni xislətinin məhsulu olaraq meydana çıxan xəstə təfəkkür və təxəyyüldən uzaq durulmasının zəruriliyini əsaslandırmağa çalışmışdı. Ancaq söz ayrı, əməl ayrı. Görünən budur ki, rəsmi İrəvan köhnə şakərindən daşınmaq fikrində deyil. Ermənistanın Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə dünəndən öz işinə başlamış "Soyqırım və digər cinayətlərə qarşı erkən xəbərdarlıq və erkən reaksiya üçün beynəlxalq mexanizmlərin effektivliyinin gücləndirilməsi" mövzusundakı "Soyqırımı Cinayətinə Qarşı" V qlobal forum da bunu söyləməyə əsas verir. Yeri gəlmişkən, Mirzoyanın ikiüzlülüyü məhz bu forumdakı çıxışı zamanı aydın görünüb.

***

Heç şübhəsiz, belə bir tədbirin təşkili onu deməyə əsas verir ki, Ermənistan saxta soyqırımı məsələsini yenə də özünün dövlət siyasətinin başlıca qayəsi kimi görməkdədir. Elə isə bu siyasətin hansı zəmində meydana çıxmasına nəzər salaq və qeyd edək ki, hələ 1907-ci ildə erməni millətçiləri ABŞ-ın o zamankı Prezidenti Teodor Ruzveltə müraciət ünvanlamış, ondan saxta "erməni soyqırımı"nın tanınmasını və kömək göstərilməsini istəmişdilər. Onlar iddia etmişdilər ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı dövlətində erməni əhaliyə qarşı, guya, soyqırımı həyata keçirilib.

Reallıq ondan ibarətdir ki, qeyd edilən zaman kəsiyində Qərb dövlətləri Osmanlı daxilində nifaq və bölücülük yaratmaq məqsədi ilə erməni amilindən yararlanmışdılar. Bu məqsədlə millətçi təşkilatlar formalaşdırılmışdı. 1883-cü ildə "Hnçak", 1890-cı ildə "Daşnaksütyun" partiyaları kimi terrorçu qruplaşmalar fəaliyyətə başlamışdı. Bu təşkilatlar Osmanlının müxtəlif bölgələrində qətllər, qarətlər törətmişdilər. Onlar, hətta, sadə ermənilərin türklərə nifrətini körükləmək üçün, Osmanlı qiyafəsinə bürünərək öz soydaşlarına qarşı da amansız cinayət əməlləri həyata keçirmişdilər. Lakin Qərb özünün "Şərq məsələsi"nin davamını "Yunan məsələsi"ndə görməyə üstünlük verdikdən sonra, erməni millətçiləri taleyin ümidinə buraxılmışdılar. Yəni, Birləşmiş Ştatların Prezindentinə müraciət bununla bağlı olmuşdu. Əlbəttə, Osmanlı dövlətinin cinayətkar təbəələri cəzalandırması təbii sayılmalıdır. Ancaq məsələdə soyqırımı motivi qətiyyən olmamışdı.

Qərb növbəti dəfə "erməni soyqırımı" məsələsinə 1915-ci ildə üstünlük vermişdi. Həmin vaxt Birinci Dünya müharibəsi gedirdi və erməni millətçiləri bu dəfə Osmanlını arxadan vurmağa girişmişdilər. Belə olduqda Osmanlı öz resursları hesabına erməniləri dövlətin ayrı-ayrı hissələrinə köçürməyə qərar vermişdi. Məqsəd terror yuvalarını dağıtmaq idi. Ancaq zaman keçmiş və Osmanlının məhz reallaşdırdığı profilaktik tədbirlər "soyqırımı" kimi



qiymətləndirilməyə başlanmışdı. Müasir dövrdə isə bu, İrəvanın Ankaraya qarşı siyasətinin, eyni zamanda, Qərbin anti-Türkiyə siyasətinin mühüm tərkib hissəsinə çevrilib.

***

Lakin onu da deyək ki, son zamanlar baş nazir N.Paşinyan administrasiyası "erməni soyqırımı" məsələsini gündəmdən çıxarıb. Hər halda belə bir görüntü var. Hətta Nikol özü ayrı-ayrı çıxışlarında məsələni mübahisələndirməyə üstünlük verib və onun dediklərindən belə nəticəyə gəlinir ki, əslində, "soyqırımı" adlı nə isə baş verməyib. Hərçənd, 2023-cü ildə İrəvanın Laçın dəhlizi məsələsində beynəlxalq miqyasda qaldırdığı vay-şivən ritorikası zəminində saxta iddia ortaya atılmış və bildirilmişdi ki, Azərbaycanın, guya, Laçın dəhlizindən keçidə imkan verməməsi, Qarabağ ermənilərinə qarşı soyqırımı gerçəkləşdirmək niyyətindən qaynaqlanır. Doğrudur, sonradan Ermənistan Azərbaycanla bağlı "soyqırımı" ittihamından uzaq durdu və xüsusən 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra "etnik təmizləmə" şousuna start verərək, məsələni xeyli gündəmdə saxladı.

Hazırda Ermənistan bir qədər fərqli yol seçib. Yəni, rəsmi İrəvan "etnik təmizləmə"ni və "soyqırımı" mövzusunu xaricdəki erməni lobbi və diaspor təşkilatlarının, habelə ermənipərəstlərin, belə demək mümkünsə, ixtiyarına verib. Məsələn, bir müddət əvvəl Fransanı ARTE telekanalı sənədli film yayımlayaraq, orada azərbaycanlıların və türklərin qardaş olduqlarını vurğulayaraq, birincilərin də türklər kimi soyqırımı gerçəkləşdirə biləcəklərinə dair cəfəngiyyata baş vurub...

***

Bəli, guya, Ermənistan dövləti köhnə dəftərləri qapadır, irəli baxır, gələcəyi düşünür və sair. Əslində, belə deyil və fikrimizi əsaslandırma üçün keçək bilavasitə A.Mirzoyanın ikiüzlülüyünə. Əvvəla, onun rəhbərlik etdiyi dövlət qurumunun təşkil etdiyi forumun adı elə seçilib ki, sanki məqsəd saxta erməni həqiqətlərini gündəmə gətirmək yox, ümumən soyqırımı cinayətini bəşəriyyətə qarşı təhdid olaraq qiymətləndirməkdir. Manipulyasiyanın ilk göstəricisi budur. Digər tərəfdən, Mirzoyan forumdakı çıxışında bildirib ki, beynəlxalq ictimaiyyət kütləvi cinayətlərə reaksiyanı onlar törədildikdən sonra verir. Yada salaq ki, Qarabağ erməniləri bölgəni tərk edəndə də bu ritorika gündəmə gəlmiş və Azərbaycan birbaşa hədəf kimi seçilmişdi. İndi ölkəmiz, bir növ, gizli hədəfdir.

Beynəlxalq strukturların reaksiyasının soyqırımı ilə bağlı risk faktorlarına və mövcud vəziyyətə mütənasib olmadığına dair fikirlərini bölüşən erməni XİN rəhbəri, eyni zamanda, bildirib ki, ən mühüm risk faktoru kimi nifrətin yayılması sonda cinayətə gətirib çıxardı. Görəsən, Mirzoyan hansı cinayətdən söz açır? Heç şübhəsiz, onun ikiüzlülüyünün arxasında Azərbaycana qarşı subliminal ittiham var.

***

Nəhayət, bir məqamı da diqqətə çatdıraq. Rəsmi İrəvanın təmsilçiləri, xüsusən, baş nazir N.Paşinyan son zamanlar çox tez-tez Ermənistanın heç bir qonşu dövlətə, o cümlədən, Azərbaycana qarşı ərazi iddiasının olmadığını bildirir. Məsələ ondadır ki, ümumən, hayların soyqırımı iddiası ilə ərazi iddiası mahiyyətcə bir-biri ilə bağlı məsələlədir. Yəni, Nikolun haqqında söz açdığı "məzlum millət" düsturu ona görə meydana çıxıb ki, ermənilər qonşuları hesabına özlərinə torpaq əldə etməyə girişiblər. İstəklərinə çatıblarsa, bunu "Ordu millət" olmaları ilə əsaslandırıblar. "Məqsədlərinə" çatmayanda isə özlərini məzlum kimi qələmə veriblər. Heç cür anlamayıblar ki, başqasının yurd-yuvasına göz tikmək cəzasız qalmayacaq. İndi də eyni xislətdədirlər. Dəyişən heç nə yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Vaşinqton üçün itirilmiş 4 il

**(əvvəli 1-ci səhifədə)**

Təbii sual yaranır: bəs, dörd il bundan əvvəl nə baş verdi ki, Vaşinqton Azərbaycana münasibətində bu cür radikal addımlar atmağa başladı? Dörd il əvvəl baş verənlər tarixi ədalətə, beynəlxalq hüquqa uyğun şəkildə Azərbaycanın haqqı çatan davasının nəticələrindən ibarətdir. Yəni, ölkəmiz 30 il torpaqlarımızı işğal altında saxlayan bədnam qonşulara qarşı 44 günlük müharibədə qalib gəldi, bir il sonra isə Qarabağı separatçılardan təmizlədi. Azərbaycanın Qərb qarşısında "günahı" bundan ibarətdir. Amma, əslində, Azərbaycan öz Zəfəri ilə işğal dönəmində başının altına yastıq qoyan, münaqişəni dondurmağa çalışan məkrli, ikiüzlü ermənipərəst, xaçpərəst "kollektiv Qərb"in günahdan daha böyük cinayətlətini yumuş oldu. Deməli, odunu söndürdüyümüz münaqişə ocağının indi külünü eşələyənlərin cavabını biz dörd il bundan əvvəl vermişik.

* * *

Vaşinqtondakı məşhur Ağ evi ilə vidalaşmalarına bir aydan bir qədər çox vaxtları qalmış demokratların son "nəğmələrini" eşidirk. ABŞ Dövlət katibi Antoni Blinken ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyət barədə özünün növbəti moizəsini bəyan edib. Onun cavabı operativ şəkildə verildi.

"Təəssüf ki, son 4 il ərzində Dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən sözügedən dövr bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan–ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir".

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadənin Antoni Blinkenin Azərbaycan əleyhinə bəyanatına dair şərhində daha sonra Ağ evin baş diplomatı tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış etməsi, ABŞ-ın bütövlükdə Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə düşməsi xüsusi vurğulanır.

XİN-in şərhi "ümidvarıq ki, yeni ABŞ Administrasiyası dövründə Azərbaycan və ABŞ arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri yenidən bərpa olunacaq" nikbin sonluqla bitir.

Son vaxtlar təkcə ABŞ deyil, Avropa İttifaqı (Aİ) tərəfindən Azərbaycanın ünvanına qarayaxma, ideoloji təxribat sayıla biləcək məkrli kampaniya daha geniş "vüsət" almaqdadır. Onların əllərində bayraq etdikləri "fakt" insan haqları, media azadlığı, seçki hüququnun pozulması, jurnalistlərin və hüquq müdafiəçilərinin həbsi kimi reallıqdan uzaq, uydurma tezislərdir. Dekabrın 10-da Beynəlxalq İnsan Haqları Günü münasibətilə ABŞ Dövlət Departamentində "tanınmış" insan haqları müdafiəçilərinə mükafatlar təqdim olunub. Azərbaycana qarşı siyasi təzyiqlərin Ağ ev səviyyəsində koordinasiya edildiyini yaxşı bilirik. Bu qeyri-demokratik, ermənipərəst kampaniyanın başında şəxsən Dövlət katibinin dayandığına da şübhəmiz yoxdur. "Kollektiv Qərb"in, haypərəst səlibçi "çete"nin insan haqlarını bəhanə edib ölkəmizin üstünə yeritmək cəhdləri aşkar görünməkdədir.



44 günlük müharibədən sonra regionda reallığı dəyişən Azərbaycanın regional və qlobal proseslərə fəal qoşulması, bu zaman təşəbbüsü ələ alması Aİ-də, ABŞ-da gərginlik yaradır. Onlar iki qitəni birləşdirən ölkə kimi Azərbaycanın artan nüfuzundan xeyli narahat olublar. Gündəmdəki Zəngəzur dəhlizi kimi perspektiv planı da üstünə gəlsək, "çete"nin ölkəmizə bunca radikal və ədalətsiz münasibətinin motivlərinin üzərinə işıq düşər. Bunlar, eləcə də digər amillər Qərbi hətta beynəlxalq hüquq və məntiqlə uzlaşmayan addımlar atmağa sövq edir.

* * *

Yeri gəlmişkən, ABŞ Dövlət katibinin köməkçisi, departamentin insan hüquqları üzrə nümayəndəsi Dafna Rand sadaladığımız məqamlara münasibətini açıqlayıb. O, aydın formada deyib ki, Vaşinqton Bakıya təzyiqləri artıracaq. Yəni, xanım Rand diplomatik dillə ifadə edib ki, Ağ ev özünün agentura şəbəkəsini siyasi-iqtisadi cəhətdən yemləməkdən heç vaxt əl çəkməyəcək. D. Rand, həmçinin ABŞ-ın Bakıdakı səfirliyinin "fəaliyyətindən" də danışıb.

Oxuculara xatırladaq ki, səfir Mark Libbi keçən həftə Azərbaycanda missiyasını başa vurduğu barədə açıqlama yaydı. Bunun səbəb kimi səhhətində yaranan problemi göstərdi. Fəqət səfirin siyasi səbəblərə görə Bakını tərk etdiyi ehtimalı da var. Deyəsən, Mark Libbi özünə aid olmayan "fəaliyyət müstəvisinə" baş vurub. Onu da yada salaq ki, cari ilin mayında Mark Libbi Şuşaya getməkdən imtina etdiyinə görə gündəmə gəlmişdi. Bununla bağlı suala "kimlərinsə şousunda iştirak etmək istəməməsi" ilə əlaqələndirmişdi. Səfirin Azərbaycan ictimaiyyətində hiddət doğuran sözlərinə Prezident İlham Əliyev elə Şuşadan cavab vermişdi: "Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya, onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır."

**XATIRLATMA:** 2006-cı ilin aprelində ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnış də qəfil ölkəmizi tərk etmişdi. O vaxt Harnışın "persona non-qrata" elan edilmək təhlükəsindən yayınmaq üçün bu addımı atdığı deyilirdi. Çünki səfirin səlahiyyət müddətinin bitməsinə xeyli vaxt qalmışdı. R.Harnışın adı 2005-ci ilin payızında Azərbaycanda keçirilən parlament seçkiləri ərəfəsində baş verən olaylarda hallanmışdı. Azərbaycan hökuməti bu barədə məhz təkzibolunmaz sübutları Ağ evə təqdim etdikdən sonra Rino Harnışın Bakıdan getməsi qaçılmaz olmuşdu.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi icmalçı Tofiq Abbasov** ABŞ



siyasi sistemində ikipartiyalı idarəetmənin nisbi xarakter daşıdığına diqqəti yönəltdi: "Bu siyasi sistemin üstünlüyü mənasız üstünlükdür. Dərinə gedəndə bu iki partiyanın (Demokratlar və Respublikaçılar – red.) siyasi konyukturasında elə ciddi fərq yoxdur. Hazırda çamadan ovqatında olan demokrat Ağ evin Azərbaycana qarşı ikibaşlı, bəzən anlaşılmaz tezislərdən istifadə etməsinin səbəbləri maraqlıdır. Məsələ ondadır ki, bu partiyanın öndə gedən fəalları ultraqlobalistlərin sıralarında təmsil olunurlar. Onların da əsas məqsədi milli suverenitetlərə qarşı mübarizəni gücləndirməkdir. Cəmiyyətlərdə mənəvi aşınma yaratmaq, trans-qeyliyi təbliğ etmək, ən çirkin üsullarla gənclərin beyinlərini yumaq strateji hədəfləridir. Yəni, harada güclü iqtidar elitası, güclü liderlər varsa, silahlarını onlara tuşlayır, təbliğat maşınları qarayaxma, gözdənsalma kampaniyası aparır. Bunun üçün insan haqları mövzusunu daim gündəmə gətirirlər. Əslində, bu cür fəaliyyətlə insan haqları dəyərlərinin abrını tökürlər. Bir halda ki, ABŞ cəmiyyətində bu dəyərlərə üstünlük verilmir, vicdan azadlığı pozulur, irqi, dini zəmində qarşıdurmalar meydana çıxır, kollec və universitetlərdə silahlar işə düşür... Bəs insan haqlarına həssas yanaşma necə oldu? Belə məlum olur ki, daha çox xaricə müraciətlər, bəyanatlar ünvanlamaqla daxildəki qüsurlarını, paxırlarını ört-basdır etməyə, pərdələməyə çalışırlar.

Ümumiyyətlə, dünya təcrübəsində belə bir yanaşma var: əgər hansısa ölkə xarici siyasətində uğur qazanırsa, bunun kökləri daxildə gedən proseslərdən qaynaqlanır. ABŞ-da isə daxili uğurlar yoxdur. O cümlədən insan haqları kontekstində. Demokratiya adı altında dedikləri bu "məhsul", heç də ixrac "məhsulu" deyil. Çünki, o, yolda xarab olur. Bu "məhsul" milli zəmində yetişməli və inkişaf etməlidir. Ultraqlobalistlərin qayəsi odur ki, yerli xalqların, toplumların milli ənənələrini param-parça etsinlər. Onlar bir şeyi unudurlar ki, Azərbaycan güclü dövlətdir və özünün suverenlyini qoruyur, onun qayğısını çəkir. Bu isə onların ürəyincə olmayan bir presedent yaradır. Ona görə də Vaşinqtondan vaxtaşırı Azərbaycanı sıxışdırmaq, problem yaratmaq məqsədilə açıqlamalar, bəyanatlar səsləndirirlər. Bu baxımdan Ceyms O'Braynın məlum canfəşanlığını, Bakıya səfərini və burada layiqli cavabını almasını yada salmaq istərdim. İndi tutduqları həmin xətti davam etdirirlər. Bu isə onlara başucalığı gətirməyəcək. Azərbaycanı qınamaq, tənqid və təhdid etmək sizin yanaşmanızdır. Amma öz yolumuzu gedirik və bu yoldan bizi heç kim döndərə bilməz".

* * *

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** artıq Bayden Administrasiyasının səlahiy-



yətlərini təhvil vermək üzrə olduğunu bildirdi: "Təxminən qırx gündən sonra Ağ evdə bu administrasiya olmayacaq. Yanvarın 20-də andiçmə mərasimi keçiriləcək Donald Tramp özünün yeni komandasını formalaşdıracaq. İndi bütün dövlətlər, o cümlədən Azərbaycan da Tramp Administrasiyası ilə əməkdaşlıq məsələlərinə hazırlaşmalıdırlar. Yeni Dövlət katibi, onun müşavirləri müvafiq ölkələrlə, eləcə də Azərbaycanla təmaslar quracaqlar. Bizim ümidimiz onadır ki, Tramp Administrasiyası Cənubi Qafqazla, Azərbaycanla əməkdaşlığa əhəmiyyət verəcək. Bir sıra istiqamətlər üzrə bu əməkdaşlıq var. Bunlar, əsasən, təhlükəsizlik və enerji sahələridir. Hesab edirəm ki, bu sahələr üzrə Ağ evin yeni komandası ilə dialoq imkanları hərəkətə gətiriləcək.

O ki qaldı, ömrü başa çatmaqda olan Bayden Administrasiyasının Azərbaycanla Ermənistan arasında vasitəçilik təşəbbüslərinə, bunlar, geridə qalmış planlardır. Dövlət katibi Antoni Blinkenin iki ölkənin xarici işlər nazirləri ilə birgə üçtərəfli görüşün keçirilməsi təklifi də o cümlədən. Artıq buna ehtiyac duyulmur.

Əsas odur ki, Vaşinqtonla Bakı arasında ikitərəfli əməkdaşlıq var və bunu davam etdirmək lazımdır. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı dialoq mövcuddur. Bu müstəvidə tərəflərə kənar vasitəçilər, üçüncü tərəfin müdaxiləsi lazım deyil".

Əgər rəsmi Vaşinqton sülh təşəbbüsləri adı altında Bakıya "insan haqları, siyasi məhbuslar" ritorikası ilə siyasi təzyiq göstərmək cəhdlərind`ən əl çəkməyibsə, bu, artıq Baydenin, onun baş diplomatı Blinkenin şəxsi problemidir. Uzağı ayyarımdan sonra onlar bu qayğılardan, eləcə də erməni diasporunun şantajlarından azad olacaqlar.

"Ermənistan və Azərbaycan arasında qarşılıqlı sülh danışıqları gedirsə, burada üçüncü ölkəyə ehtiyac yoxdur". Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. O, haqlı olaraq yersiz sülh təşəbbüsünə baş vuran üçüncü ölkənin bölgədə olmasının münasibətlərin normallaşmasına yanlız zərər yetirəcəyini vurğulayıb.

Qayıdaq ermənipərəst Qərbin Azərbaycanın daxili işlərinə qarışmaq üçün atdığı qeyri-hüquqi və mənəviyyatdan uzaq "demarşlarına". Deyəsən, ABŞ-ın hələlik Dövlət katibi postunu tutan Antoni Blinkenin qərəzlə yüklənmiş məlum bəyanatı da axırıncı olacaq. Azərbaycan cəmiyyəti belə dezinformasiyalar artıq öyrəşib.

Cəmiyyətdə hökm sürən mənəvi ab-havanın sağlam saxlanması milli olduğu qədər də strateji məsələdir. Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində iki məsələyə xüsusi diqqət ayırması heç də təsadüfi deyildi. Birinci məsələ hərbi sənaye kompleksimizin daha sürətlə inkişaf etdirilməsi, ikinci isə gənc nəslin təlim-tərbiyəsinin vacibliyi ilə bağlı idi.

"Bu məsələdə cəmiyyət daim diqqətli olmalıdır. Mən Xankəndidə də bunu dedim: Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə deyərlər, iqlim - bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir. Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq".

Beləliklə, Vaşinqton üçün itirilmiş 4 il başa çatmaq üzrədir. Ümid edirik ki, Donald Tramp sələflərinin buraxdığı səhvləri təkrarlamayacaq və Azərbaycanla əvvəlki kimi, bərabərhüquqlu partnyorluq, qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin bərpasına çalışacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qeyri-neft ixracı – 3,1 milyard dollar gəlir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi “İxrac icmalı”nın dekabr ayı üçün ilkin rəqəmlərini təqdim edib. İcmala əsasən, 2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın qeyri-neft ixracı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3,1 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsulları 12,3 faiz artaraq 923 milyon ABŞ dollarına bərabər olub.**



Cari ilin 11 ayı ərzində şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 65,4 faiz (37,5 milyon dollar), pambıq lifi 52,6 faiz (170 milyon dollar), bitki mənşəli yağlar və piylər 32 faiz (25,5 milyon dollar), qiymətli metallar 29 faiz (189,8 milyon dollar), kimya sənayesi məhsulları 19,6 faiz (265,6 milyon dollar), alüminium və ondan hazırlanan məmulatlar isə 1,5 faiz (182,7 milyon dollar) artıb. Hesabat dövrü ərzində aqrar məhsullar 4,4 faiz (701,7 milyon dollar), aqrar-sənaye məhsulları 58,3faiz (287,3 milyon dollar) çoxalıb. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 15,9 faiz artaraq 988,9 milyon dolları təşkil edib.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu sahədə ən yüksək gəlir pambıq mahlıcı ixracından əldə olunub. Belə ki, son bir ildə bu növ məhsulun ixrac dəyəri 63,3 faiz artaraq 160,4 milyon ABŞ dolları təşkil edib. Nazirliyin məlumatında qeyd olunur ki, aqrar məhsulların ixrac həcmi artdıqca ixracın coğrafiyası da genişlənir. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycandan kənd təsərrüfatı məhsulları, əsasən, ənənəvi bazarlara – Rusiya, Belarus və digər MDB ölkələrinə ixrac olunsa da, ixrac coğrafiyasına yeni ölkələr də daxil olmaqdadır.

Qeyd edək ki, hesabat dövründə Azərbaycanın Avropaya qaz ixracında da müsbət dinamika qeydə alınıb. Energetika Nazirliyindən aldığımız məlumata görə, bu ilin yanvar–noyabr aylarında ölkədə 45,8 milyard kubmetr təbii qaz hasil edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. Qazın 12,1 milyard kubmetri “Azəri-Çıraq-Günəşli”, 25,3 milyard kubmetri “Şahdəniz”, 1,4 milyard kubmetri “Abşeron” yatağı, 7 milyard kubmetri isə Dövlət Neft Şirkəti üzrə hasil olunub. Keçən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında 1,8 milyard kubmetr artım qeydə alınıb.

Hesabat dövründə xaricə qaz satışı 22,9 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çoxdur. Avropaya 11,7 milyard kubmetr (7,8 faiz çox), Türkiyəyə 9 milyard kubmetr (3,4 faiz çox), Gürcüstana isə 2,2 milyard kubmetr (12 faiz az) qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 5,1 milyard kubmetr qaz nəql olunub.

“Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları istismara veriləndən cari il dekabrın 1-dək 648,4 milyon ton neft (qaz kondensatı ilə birlikdə), 462,8 milyard kubmetr qaz hasil edilib. “Azəri-Çıraq-Günəşli”dən 600,1 milyon ton neft, 228,5 milyard kubmetr qaz, “Şahdəniz”dən isə 48,3 milyon tona yaxın kondensat, 234,3 milyard kubmetr qaz çıxarılıb. Bu yataqlardan 646,4 milyon ton neft, 167,6 milyard kubmetr qaz ixraca nəql edilib.

Qeyri-neft sektorunda ixrac əməliyyatları ilə bağlı uğurlu göstəriciləri bir sıra amillər şərtləndirir. Belə ki, son illər respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Bütün bunlarla bərabər, respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri–neft–qaz sənayesində artım neft–qaz sektorundakı artımı üstələyir. Mövcud sahədə əlavə dəyərin 7 faizə yaxın artması, ümumi halda isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunması, həmçinin 2003-cü ildən başlayaraq, ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərcinin, təqribən, 4 dəfə, ixracın 15,6 dəfə yüksəlməsi, iqtisadiyyatın orta artım tempinin dünya üzrə orta səviyyədən 4 faiz çox olması bunun parlaq ifadəsidir.

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə güclənməsi də xarici ticarət dövriyyəsinin əhatə dairəsinin böyüməsinə təkan verib. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən – ilə genişlənib.

Bütün bunlar hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşdığını deməyə əsas verir. Bu istiqamətlər isə idxaldan asılılığın azaldılması, qeyri–neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri–neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və “kölgə iqtisadiyyatı” səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.




## AİB-nin ölkəmizlə bağlı proqnozları yenə nikbindir

**(əvvəli 1-ci səhifədə)**

Hesabatda bildirilib ki, qeyri-neft-qaz sektoru hesabına dövlət investisiyaları ilə dəstəklənən sektorlar Azərbaycan iqtisadiyyatının ilin ötən 3 rübündə 4,7 faiz genişlənməsinə imkan yaradıb: “Eyni dövrdə Gürcüstanda ÜDM artımı kredit və əmək haqqı artımı ilə dəstəklənən güclü istehlak, habelə infrastruktura dövlət xərcləri hesabına 9,8 faizə çatıb. Güclü pul köçürmələri və qızıl ixracı ilə Tacikistan iqtisadiyyatı 8,4 faiz böyüyüb. Sabit investisiya artımı ilə Özbəkistan 2024-cü ilin 9 ayında 6,6 faiz artım qeydə alınıb. Ermənistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan üçün artım proqnozu dəyişməz olaraq qalır”.

Asiya İnkişaf Bankının Qafqaz və Mərkəzi Asiya subregionu üzrə inflyasiya proqozu da nikbindir. Belə ki, qurum 2024-cü il üçün inflyasiya proqnozunu sentyabr proqnozu ilə müqayisədə 6,9 faizdən 6,8 faizə endirib. Bank regionun 2025-ci il üçün inflyasiya proqnozunu isə 6,2 faiz olaraq dəyişməz saxlayıb. Qeyd edilib ki, inflyasiya proqnozunun azaldılması Ermənistan, Gürcüstan, Qırğızıstan və Tacikistanda aşağı inflyasiyanı əks etdirir. Bununla yanaşı, qurum Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistan üçün inflyasiya proqnozlarında hər hansı dəyişikliyin olmadığını bəyan edib.

Xatırladaq ki, Asiya İnkişaf Bankı cari ilin sentyabr ayında Azərbaycanda orta illik inflyasiya tempini 2024-cü il üçün 2,1 faiz, 2025-ci il üçün isə 3,8 faiz səviyyəsində proqnozlaşdırıb.

## 11 ayda 26,5 milyon ton neft

**Bu ilin yanvar–noyabr ayları üzrə operativ məlumatlara əsasən, ölkəmizdə 26,5 milyon ton neft (kondensat ilə birlikdə) hasil edilib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, hasilatın 15,4 milyon tonu “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun 3,8 milyon tonu (kondensat) “Şahdəniz”in, 0,52 milyon tonu (kondensat) isə “Abşeron” yatağının payına düşüb. Hesabat dövründə SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 6,8 milyon ton təşkil edib.

Cari ilin noyabr ayında ölkə üzrə orta gündəlik neft hasilatı 80 min 771 ton təşkil edib. Bunun isə 65 min 885 tonu xam neftin, 14 min 886 tonu orta gündəlik kondensat hasilatının payına düşüb.

Yanvar–noyabr aylarında Azərbaycandan 22,2 milyon ton neft (kondensat ilə birlikdə) ixrac olunub. Bunun da 19,2 milyon tonu konsorsiumların, 3 milyon tonu isə SOCAR-ın payına düşüb.

Nazirliyin məlumatına görə, 2024-cü ilin yanvar-noyabr aylarında ölkə üzrə 5,5 milyon ton neft emal olunub.

## 11 ayda 211,7 milyon manat güzəştli kredit

**2024-cü ilin yanvar-noyabr aylarında Sahibkarlığın İnkişafı Fondu müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlara 211,7 milyon manat güzəştli kredit verib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 43,6 faiz çoxdur. Güzəştli kreditlər 5 min 144 layihənin maliyyələşdirilməsinə ayrılıb.**




Fonddan verilən məlumata görə, sahibkarlar güzəştli kreditlərdən yararlanmaq üçün müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Həmin təşkilatlara isə Sahibkarlığın İnkişafı Fondunun əməkdaşlıq etdiyi 20 bank, 9 bank olmayan kredit təşkilatı və 10 kredit ittifaqı aiddir.

## 50 yeni traktor alınacaq

**“Aqroservis” Açıq Səhmdar Cəmiyyəti 50 yeni traktorun alınması ilə bağlı hazırlıqlara başlayıb. Bu barədə məlumat dövlət satınalmalarının vahid internet portalında yerləşdirilib.**



Qurum sözügedən işlərin icrasını “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinə həvalə edib. Bu məqsədlə zavodla dəyəri 2 milyon 330 min 100 manat olan müqavilə bağlanıb. Xatırladaq ki, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi 2007-ci ildə dövlət qeydiyyatına alınıb.

## Alma bağlarına da subsidiya veriləcək

**Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, 2024-cü il sentyabrın 1-dən Dağlıq Şirvan, Şəki – Zaqatala, Quba–Xaçmaz iqtisadi zonalarında, eyni zamanda, Lerik rayonunda salınacaq intensiv alma bağlarının inkişafı məqsədilə dövlət tərəfindən birdəfəlik əkin subsidiyasının verilməsi qərara alınıb.**



Qeyd edilib ki, 2025-ci il mayın 31-dək ən azı 2 hektarda salınmış, hər hektarda minimum 2450 ting əkilmiş, damcı suvarma sistemi ilə təchiz olunmuş bağların hər hektarına görə fermerlərə 11min birdəfəlik əkin subsidiyası ödəniləcək.

# Azərbaycan neft haslilatı öhdəliklərinə sadiqdir

**Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) 2024-cü ilin noyabr ayında Azərbaycanda gündəlik neft hasilatı üzrə göstəriciləri açıqlayıb. Bu barədə məlumat qurumun aylıq hesabatında yer alıb.**




Hesabata əsasən, noyabr ayında Azərbaycanda gündəlik neft hasilatı orta hesabla 483 min barel səviyyəsində olub ki, bu da oktyabr ayının göstərici ilə müqayisədə 3 min barel azdır. Sənəddə qeyd olunur ki, Azərbaycanda gündəlik neft hasilatı cari ilin avqust ayında 482 min barel, sentyabrda 488 min barel, oktyabrda isə 486 min barel təşkil edib. Bu ilin üçüncü rübündə ölkədə ortalama gündəlik neft hasilatı 486 min barel, ikinci rübündə 475 min barel, birinci rübündə isə 477 min barel təşkil edib. Ümumilikdə isə, cari ilin noyabr ayında Azərbaycanda gün ərzində orta hesabla 80 min 771 ton neft və kondensat hasil olunub. Bunun da 65 min 885 tonunu xam neft, 14 min 886 tonunu isə kondensat təşkil edib.

Xatırladaq ki, “OPEC plus” (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) ölkələri nazirlərinin 38-ci iclasında əldə edilmiş razılaşmaya görə, 2026-cı ilin sonunadək Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel təşkil edir. Bu baxımdan ölkəmiz noyabr ayında “OPEC plus” çərçivəsində razılaşdırılmış kvotasından 68 min barel geridə qalıb. Bu da ölkəmizin “OPEC plus” çərçivəsində gündəlik neft hasilatı ilə bağlı öhdəliklərinə sadiqliyini bir daha sübut edir.

Yeri gəlmişkən, OPEC-in baş katibi Heysəm əl-Qays bu ilin sentyabr ayında qurumun Azərbaycanın COP29-da əməkdaşlıq ruhunu tam dəstəklədiyini, eləcə ölkəmizlə əlaqələrindən məmnunluğunu ifadə edərək deyib: “Azərbaycan 2017-ci ilin əvvəlində Əməkdaşlıq Bəyannaməsi imzalanandan bəri OPEC və qeyri-OPEC istehsalçıları arasında dəyərli tərəfdaşdır. Ölkə təkcə neft bazarının sabitliyinin təşviqində və enerji təhlükəsizliyinin təmin edilməsində deyil, həm də tullantıların azaldılması kimi mühüm məqsədə nail olmaqda əsas oyunçudur”.

Neft İxrac Edən Ölkələr Təşkilatı 2024–2025-ci il üçün ortalama gündəlik qlobal neft tələbatı üzrə proqnozunu azaldıb. OPEC-in hesabatında yer almış məlumata əsasən, gələn il sözügedən göstərici 105,27 milyon barel səviyyəsində proqnozaşdırılır ki, bu da 2024-cü ilin proqnoz göstəricisi ilə müqayisədə 1,45 milyon barel çoxdur. Xatırladaq ki, qurum bu il üçün ortalama gündəlik neft hasilatı proqnozunu öncədən 105,57 milyon barel səviyyəsində müəyyən etmişdi.

OPEC bu il üçün qlobal neft tələbatının 103,82 milyon barel (öncəki proqnoz 104,03 milyon barel idi) səviyyəsində olacağını proqnozlaşdırır. Bu isə 2023-cü ilin göstəricisi ilə müqayisədə 1,61 milyon barel artım deməkdir. Qurumun hesabatına əsasən, ötən il qlobal gündəlik neft tələbatı 102,21 milyon barel səviyyəsində olub ki, bu da illik müqayisədə 2,55 milyon barel artım deməkdir. Qeyd edək ki, OPEC-in məlumatlarına əsasən, 2022-ci ildə qlobal gündəlik neft tələbatı 99,66 milyon barel səviyyəsində olub. Göründüyü kimi, 2022-ci ildə neft tələbatının artım tempi 2,74 milyon barel təşkil edib.

Neft İxrac Edən Ölkələr Təşkilatı özünün son aylıq hesabatında 2024–2025-ci illər üçün “OPEC plus” razılaşmasına daxil olmayan ölkələrdə də ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozunu yeniləyib. Hesabata əsasən, cari il “OPEC plus” razılaşmasına daxil olmayan ölkələrdə ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatının 53,12 milyon barel olacağı ehtimal edilir. Bu isə 2023-cü ilin göstəricisi ilə müqayisədə 1,28 milyon barel çoxdur. Məlumat üçün bildiririk ki, qurumun bu ölkələrlə bağlı öncəki proqnozu 53,07 milyon barel olub.

“OPEC plus”a daxil olmayan ölkələrin 2025-ci il üzrə gündəlik neft hasilatına gəldikdə isə, qurum bu göstəricinin 54,23 milyon barel səviyyəsində proqnozlaşdırıb. Bu da 2024-cü il üçün müəyyənləşdirilmiş 54,17 milyonluq həcmdən 1,11 milyon barel artıqdır. Hesabata əsasən, ötən il bu ölkələrdə ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 51,84 milyon barel səviyyəsində olub.

Qeyd edək ki, “OPEC plus” OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüsdür. Hazırda Azərbaycan “OPEC plus” formatında Neft İxrac Edən Ölkələr Təşkilatı ilə sıx əməkdaşlıq edir. Ölkəmizin OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə fəallaşıb. 2016-cı ilin yanvar ayında Davos Dünya İqtisadi Forumunda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neftin qiymətinin sabitliyinə nail olmaq üçün OPEC-ə üzv olan və olmayan ölkələrin bir araya gələrək yeni beynəlxalq enerji formatının yaradılması ilə bağlı təşəbbüs irəli sürmüş, nəticədə “OPEC plus” formatı təsis edilmişdir.

“OPEC plus”un iştirakçıları isə Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudandır. “OPEC plus” əməkdaşlığının əsas məqsədi dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Qaynar nöqtələr

# Suriya qaçqınları Avropadan qayıdacaqlarmı?




(əvvəli 1-ci səhifədə)

İndi Suriyaya ilk axın Türkiyədə müşahidə olunur. Amma belə məlumatlar da var ki, dini azlıqlar – ələvilər, xristianlar, druzlar, yezidlər Suriyada hakimiyyətə gələn islamçılardan ehtiyat edirlər. Əgər bu tendensiya güclənərsə, Suriyaya gözlənilən genişmiqyaslı geridönüş baş tutmaya bilər. Buna görə də, Avropa yeni reallığa uyğun addım atılmasını zəruri sayır. Fransa, Almaniya, İsveç, Norveç, Danimarka, Yunanıstan, Avstriya və Böyük Britaniya suriyalıların qaçqın statusu üçün müraciətlərinə baxılmasını dayandırdı. Yunanıstan hökumətinin nümayəndəsi Pavlos Marinakis isə açıq şəkildə bildirir ki, Suriyadakı hadisələr bu ölkədən sığınacaq axtaranların "axınının sonu olmalıdır".

Bu gün Aİ-yə qeyri-qanuni miqrasiya yolu Yunanıstandan keçir. Onun son nöqtəsi Qərbi Avropa, xüsusilə də Almaniyadır. Bu ölkənin 2015-ci ildə ən çox suriyalı qaçqını qəbul etdiyi məlumdur. Buna görə də, almanlar  fəal şəkildə qaçqın problemini müzakirə edirlər. Hətta belə təklif səslənir ki, Suriyaya çarter reysi açılsın və qayıtmaq istəyən hər kəsə 1000 avro müavinət verilsin. Berlində hesab edirlər ki, Almaniya, Avstriya və Suriyanın qonşuları Türkiyə və İordaniyanın iştirakı ilə konfransın çağırılmalıdır. Alman siyasətçilərinin fikrincə, konfrans 2025-ci ilin yazında baş tutmalıdır və bu konfransda suriyalıların kütləvi deportasiyası ilə bağlı qərar qəbul edilməlidir. Qərbdə belə düşünürlər ki, Suriyada davamlı sülh hökm sürsə belə, suriyalıların hamısı vətənə qayıtmağa razı olmaya bilər.

Bəs 2015-ci ilin miqrasiya böhranı yenidən baş verə bilərmi? Bu proses Suriyadakı qalıcı sülhün əldə olunması üçün həyata keçiriləcək razılaşmalardan, siyasi-iqtisadi islahatlardan asılı olacaq. Türkiyə başda olmaqla digər ölkələr də Suriya ərazisinin bütövlüyünün qorunub saxlanılmasının tərəfdarı olduqlarını açıqlayırlar. Əlbəttə, Suriyanın gələcəyini proqnozlaşdırmaq çətindir, bununla belə, ekspertlər ölkənin gələcəyi ilə bağlı mümkün ssenarilərdən danışırlar. Mütəxəssislərin fikrincə, ən yaxşı ssenari "Heyət Tahrir əş-Şam" (HTŞ) qruplaşmasının digər mülki siyasi təşkilatların ölkənin idarə olunmasında fəaliyyət göstərməsinə icazə verməsidir. Ancaq təəssüf ki, Suriyadakı çoxsaylı qrupların fərqli gündəmləri var.

Mütəxəssislərin sözlərinə görə, reallıq ondan ibarətdir ki, HTŞ özünü Suriyada sülh yolu ilə keçidə açıq olduğunu göstərir. Lakin vəziyyət son dərəcə xaotikdir. Cənubda Bəşər Əsəd hakimiyyətini heç vaxt tanımayan tayfa qruplaşmalarının Dəməşqdə yaradılacaq qaydalara əməl etmələri ehtimalı azdır. Ölkənin Şərqində də İŞİD terror təşkilatının qalıqları təhlükə yaratmağa davam edir və bu, ABŞ-ın hava hücumlarına səbəb ola bilər.

Bundan başqa, 2011-ci ildən Suriyadan kənarda yaranmış çox sayda müxalifət qrupları və siyasi bloklar var. Bu adların və qrupların Suriyaya qayıdıb siyasi keçid prosesinin bir hissəsi olub-olmayacağı hələ də bəlli deyil. Təbii ki, Türkiyə Suriyanın yenidən parçalanmasına və ölkə ərazisinin yenidən münaqişə zonasına çevrilməsinə icazə verə bilməz. Türkiyə birmənalı şəkildə bildirir ki, Suriyanın yeni hökumətinin sabitliyinə və ya qədim Suriya torpağının bütövlüyünə qarşı istənilən hücuma Suriya xalqı və Ankara qarşı çıxacaq.

Amma həqiqət budur ki, Suriyada cərəyan edən proseslərin gedişini müəyyənləşdirmək indi çox çətindir. Əgər post-Əsəd dövrünün xaosu yenidən alovlansa, miqrantların Suriyaya qayıdışı dayanacaq. Aİ bu ssenarini nəzərdən keçirir. Ancaq bu dəfə "Qoca qitə"də qaçqınlar kvotalara uyğun olaraq ölkələr arasında bölüşdürüləcək. Bu, təbii ki, Aİ-də yeni mübahisələrə səbəb olacaq. Məsələn, Macarıstan və Polşa artıq ukraynalı qaçqınların kifayət qədər olduğunu bəyan edirlər. Yəqin ki, digər Aİ ölkələri də onlara qoşulacaq. Buna görə də, Brüssel uğurlu olacağına zəmanət verilməyən çətin danışıqlar aparmalı olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Müzakirə

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Audiovizual Şuranın təşkilatçılığı ilə "Azərbaycanda radioyayımın dünəni, bugünü və sabahı" mövzusunda seminar keçirilib.**

# Azərbaycanda radioyayım öncül mövqeyə çıxıb

## *15 milyon manatlıq dövlət yardımı yüksək keyfiyyətə təminat yaradıb*

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Audiovizual Şura, "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi, Dövlət Radiotezliklər İdarəsi, eləcə də ümumölkə radio yayımçılarının nümayəndələrinin iştirak etdiyi toplantıda ötən illərdə radioyayım sahəsində görülmüş işlərə, teleradio yayımçılarına göstərilən dövlət dəstəyi nəticəsində əldə olunmuş nailiyyətlərə nəzər salınıb və sahənin gələcək inkişafı ilə bağlı hədəflər müzakirə edilib.

Çıxışlarda müstəqillik dövrünün ilk vaxtlarından hazırkı dövrədək ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində



ölkədə radioyayımın sürətlə inkişaf etdiyi vurğulanıb. Bakı Teleqüllə Kompleksinin yarımçıq qalmış tikintisinin Ulu öndərin birbaşa tapşırığı ilə başa çatdırılması və 1996-cı ildə, bilavasitə onun iştirakı ilə istismara verilməsi qürurla xatırlanıb. Bunun yaratdığı texniki imkanlarla ölkədə televiziya və radioyayımın keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi ilə yanaşı, həmin dövrün qabaqcıl texnologiyası hesab edilən FM radio yayımlarına başlanılması bildirilib.

Qeyd edilib ki, FM radioyayımın ölkədə geniş tətbiqi, kanalların texniki imkanlarının inkişafı, yayım infrastrukturunun genişləndirilməsi sonrakı dövrdə AM radio yayımların dayandırılmasına imkan verib. Bu texnologiya radioyayım üçün illik enerji istehlakının 14 dəfə, illik karbon emissiyasının 18,7 kilotondan 1,3 kilotona qədər azaldılması ilə ekoloji mühitə öz töhfəsini verib.

Seminarda məlumat verilib ki, 2016-cı ildən başlayaraq cəmiyyətin informasiya ehtiyacının ödənilməsi, əhalinin maarifləndirilməsi, ölkədə və beynəlxalq aləmdə Azərbaycan xalqının mədəni irsinin təbliği işində fəal iştirak edən özəl teleradio yayımçılarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə dövlətin maliyyə yardımı göstərməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti  müvafiq sərəncamlar imzalayıb.

Beləliklə, dövlətin bu illər ərzində 5 dəfə olmaqla, ümumilikdə 15 milyon manat həcmində maliyyə yardımı keyfiyyətli radioyayımını təmin edib.

Daha sonra bildirilib ki, ölkə əhalisinin istifadə etdiyi radioyayımların daha geniş ərazidə və keyfiyyətli yayımının təmin edilməsi zərurəti ilə bağlı ölkə Prezidenti İlham Əliyev 24 iyul 2023-cü il tarixində "Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün maliyyə vəsaitinin ayrılması haqqında" sərəncam imzalayıb və bu məqsədlə 13,7 milyon manat vəsait ayrılıb.

Sərəncamın icrası nəticəsində müxtəlif təyinatlı texniki vasitələr alınaraq 17 Radio-Televiziya Yayım Stansiyasında quraşdırılmaqla, eyni zamanda,  infrastrukturun dayanıqlılığının artırılması və müasirləşdirilməsi həyata keçirilməklə bütün ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda ümumölkə radio yayımçılarının proqramlarının yayımının əhaliyə əlçatanlığı təmin edilib. Qeyd edilən sənəddə ümumölkə radio yayımçılarına əlavə dəstək kimi 3 illik istismar xərcinin dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulub ki, bu da radio yayımçılara əlavə dəstək tədbiri olaraq həmin müddət ərzində kommersiya fəaliyyətlərini genişləndirmək imkanı verir.

Nazirlikdən verilən məlumata görə, son 5 ildə radio proqramlarda müxtəlifliyin daha yüksək səviyyədə təmin olunması, həmçinin milli radiotezliklərdən səmərəli istifadənin təşkili məqsədilə Audiovizual Şura tərəfindən müsabiqələr təşkil edilib və nəticədə ümumölkə statuslu yerüstü radio kanalların sayı 11-dən 17-dək artıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 oktyabr 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində rəqəmsal radio yayımının tətbiqi və inkişafı üzrə Tədbirlər Planı" radioyayım sahəsində rəqəmsal yayıma keçid üçün mühüm sənəddir.

Bu planın icrası nəticəsində 2019-cu ildən etibarən Bakı şəhəri və Abşeron yarımadası ərazisində yayımına başlanılmış DAB+ standartlı rəqəmsal radionun ölkənin bütün ərazisinə genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə cari ilin sonunadək Bakı Teleqüllə Kompleksindən aparılan DAB+ radioyayım avadanlıqlarının yeniləri ilə əvəz edilməsi və Ağsu rayonunda yerləşən Gülüstan Radio-Televiziya Yayım Stansiyasından DAB+ yayımın təşkili planlaşdırılır.

Azərbaycan Respublikasında bu sahədə həyata keçirilən ardıcıl dövlət siyasəti əhalinin informasiya təminatının müasir tələblərə uyğun şəkildə təşkilini, həmçinin ölkənin milli təhlükəsizliyinin gücləndirilməsini təmin edir.

Özəl radio yayımçıları müzakirələrdə fəal iştirak etdilər, dövlət tərəfindən göstərilən dəstəyə, yaradılan əlverişli fəaliyyət şəraitinə görə dövlət orqanlarına, xüsusən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Yayımçılar arasında özəl kanalların çoxluq təşkil etdiyi bu sahədə dövlət-özəl tərəfdaşlığının yeni-yeni uğurlarla davamlı inkişafa səbəb olacağına əminlik ifadə edildi.

***Qəzənfər QASIMOV***
***XQ***

# SOSİAL XƏBƏRLƏR

## 576 işsiz peşə qazanıb




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi daha 576 işsiz və işaxtaran şəxsi peşə hazırlığı kurslarına cəlb edib.

Onlardan 155 nəfəri üçün agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı Mərkəzlərində, 421 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub. Əmək bazarının tələblərinə uyğun peşələr üzrə təşkil olunan kurslarda müdavimlərə nəzəri və praktiki biliklər tədris olunur.

Kursları uğurla başa vuran şəxslərin işlə təminatına da dəstək göstəriləcək.

## Fəal məşğulluq layihələri

Agentlik bu ilin yanvar–noyabr aylarında 366 min 900 şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 149 min şəxs münasib işlərlə təmin olunub, 16 min 100 nəfər isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.




Cari ilin 11 ayında 14 min 500 işsiz peşə hazırlığı kurslarına cəlb olunub, 187 min 300 şəxsə peşəyönümlü xidmətlər göstərilib.

## Kiçik təsərrüfatlar çoxalır




Qurum, eyni zamanda, özünüməşğulluq proqramı iştirakçılarının avadanlıqlarla təminatını davam etdirir. Son bir həftədə paytaxt və regionlarda 784 nəfər işsiz bu proqram çərçivəsində aktivlərlə təmin olunub.

Mal və materiallar formasında verilmiş aktivlər hesabına proqram iştirakçıları üçün kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik təsərrüfatlar qurulub.

## Qarabağ DOST əlillərin dostudur

Bərdədədəki Qarabağ Regional DOST Mərkəzindəki "RehaPoint" – Reabilitasiya Məntəqəsində ötən dövrdə 1450-dək əlilə reabilitasiya xidmətləri göstərilib.




Ötən il dekabrın 1-dən fəaliyyətə başlayan məntəqədə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşları əlilliyi olan bölgə sakinlərinə ambulator reabilitasiya xidmətləri göstərirlər. Həmin şəxslər burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətlərindən yararlanır.

Məntəqədə əlillərə ehtiyaclarına uyğun 800-dən çox reabilitasiya vasitəsi verilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan məişət avadanlıqlarının və mərkəzləşdirilmiş kondisioner sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il dekabrın  20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Salyan Nəqliyyat" ASC kreditorlarının nəzərinə!

"Salyan Nəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının 12 noyabr 2024-cü il tarixli qərarı ilə  "Salyan Nəqliyyat" ASC ləğv edilmişdir.

Bununla əlaqədar olaraq "Salyan Nəqliyyat" ASC-nin kreditorları 2025-ci il yanvarın 25-nə  qədər cəmiyyətin təsviyəçisinə (əlaqə nömrəsi – 050 213-26-29) müraciət edə bilərlər.

"Salyan Nəqliyyat" ASC-nin təsviyəçisi Fazil Ləzgiyev.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 275 (30679) 13 dekabr 2024-cü il, cümə

# “Bakı küçələrində Messimaniya”, “İldırımsürətli səfər”, “Azarkeşlərin çılğınlığı”

*Argentina mediası Lionel Messinin Azərbaycana səfəri barədə belə yazır*





**Futbol əfsanəsi Lionel Messi və “İnter Mayami”dəki oyundaşları Luis Suares, Serxio Buskets və Jordi Albanın Azərbaycana səfəri Argentina mediasının da diqqətindən yayınmayıb. Argentinalı jurnalistlər ulduz futbolçunun Bakı macərasının maraqlı məqamlarına toxunublar.**

"La Nacion" Messinin Azərbaycana gəlib-getməsini "ildırımsürətli səfər" adlandıraraq belə bir məlumat yayıb: "Messi qeyri-adi bölgəyə səyahəti ilə hər kəsi təəccübləndirib. Argentinalı üç ən yaxşı dostu və komanda yoldaşı ilə birlikdə Qərbi Asiya və Şərqi Avropa arasında yerləşən ölkədə olub".

"Ole" argentinalı futbolçunun ölkəmizə səfəri ilə bağlı yazını "Messi Azərbaycanda nə edir: azarkeşlərin çılğınlığı" başlığı ilə təqdim edib.

Məqalədə deyilir: "Hansı ölkəyə getməsindən asılı olmayaraq, dünyanın istənilən yerində Messi həmişə çılğınlıq yaradır. Azərbaycan da istisna olmayıb. Orada məskunlaşacaqları hotelə gedərkən onları böyük azarkeş izdihamı qarşılayıb. “İnter Mayami”nin oyunçularının hansı hoteldə qalacaqları məlum olanda oradakı bütün mövcud otaqlar rezervasiya edilib. Bu, "10 nömrə" yə olan sevginin hansı səviyyəyə çata biləcəyinə dair daha bir sübutdur".

"Messi Azərbaycanda çılğınlığa səbəb oldu; oğlan uşağı onunla görüşərkən göz yaşlarına boğuldu" yazan "Posta Deportes" sözlərinə belə davam edib: "Messini qucaqlayaraq ağlayan bir uşağın şəkli bütün dünyaya yayılıb".

"Azərbaycan Messimaniya ilə çılğınlıq yaşayır" ("Telemundo") deyən, "Messi Azərbaycana xeyriyyə səfəri ilə sürpriz edib" ("Jornadaonline") fikri ilə çıxış edənlər də olub.

"Bakı küçələrində Messimaniya" - "Clarin"in manşeti isə belədir.

Nəşr yazıya belə davam edir: "Messi üçün UEFA Çempionlar Liqası çoxdan geridə qalıb. Bu turnirin oyun günündə məşhur "10 nömrə" artıq başqa işlər görür. 37 yaşlı dünya çempionu karyerasının son hissəsindən həzz alır, MLS-də oynayır, Argentina ilə 2026-cı il dünya çempionatını xəyal edir, eyni zamanda tədbirlərə qatılmaq üçün rahat oyun təqvimindən yararlanır, hətta dünyanın o biri tərəfinə də gedə bilir.

***

Qısa müddətdə Almaniyada "Adidas"ın ofisinə baş çəkdikdən sonra Messi komanda yoldaşları ilə birlikdə Azərbaycanın paytaxtı Bakıda olub.

Ulduzların qaldığı beşulduzlu hoteldə boş otaqlar tükənib və onların mikroavtobusunu bu yaxınlarda argentinalı Franko Kolapintonun Formula 1-də çıxış etdiyi Bakı küçələrində avtomobil karvanı izləyib.

Qafqazdakı bu həyəcanlı macəradan sonra Leo Mayami və Rosario arasında keçən tətilinə davam edir, ilin sonunu və "İnter Mayami" ilə mövsümöncəsi hazırlığı gözləyir".

Qeyd edək ki, Messi və oyundaşlarının 2025-ci il mövsümündə ilk rəsmi oyunu fevralda CONCACAF Çempionlar kuboku çərçivəsində "Sportinq Kanzas Siti"yə qarşı olacaq.

*Rasim MÖVSÜMZADƏ*

## İdman

## FİFA referilərimiz kimlərdir?

FIFA
For the Game. For the World.

**Azərbaycanı 2025-ci ildə beynəlxalq oyunlarda təmsil edəcək FIFA referilərinin adları bəlli olub.**

Beynəlxalq dərəcəli hakimlərimizin siyahısında dəyişiklik edilməyib. Bu il olduğu kimi, siyahıda 17 ədalət təmsilçisi yer alıb.

**Referilər:** Əliyar Ağayev, Elçin Məsiyev, Kamal Umudlu, Fərida Lütfəliyeva; **referi köməkçiləri:** Zeynal Zeynalov, Akif Əmirəli, Elşad Abdullayev, Pərvin Talıbov, Namiq Hüseynov, Vüsal Məmmədov, Gülnurə Əkbərzadə, Sevda Nuriyeva; **VAR hakimləri:** Əliyar Ağayev, Elçin Məsiyev; **futzal:** Hikmət Qafarlı, Knyaz Əmiraslanov, Əli Cəbrayılov; çimərlik futbolu: İnqilab Məmmədov, Nail Nağıyev.

## UEFA ÇL-də əsas mərhələ başa çatdı

**UEFA Çempionlar Liqasının əsas mərhələsində VI tura yekun vurulub.**



İlk oyunlar İspaniya və Fransada keçirilib. “Atletiko” Slovakiyanın “Slovan” komandasını 3:1, “Lill” isə Avstriyanın “Şturm” klubunu 3:2 hesabı ilə məğlub edib.

Turun maraqla gözlənilən görüşlərində İspaniya “Barselona”sı Almaniyada Dortmund “Borussiya”sına 3:2 hesabı ilə qalib gəlib. İngiltərənin “Mançester Siti” klubu isə İtaliyada “Yuventus”a 0:2 hesabı ilə uduzub.

*S.FİDAN*
*XQ*

# Nobelçilərin “superintellekt” həyəcanı

**Elm üzrə Nobel mükafatı laureatları mətbuat konfransı keçiriblər. Çıxış edənlər süni intellektin sürətli inkişafının gözlənildiyindən çox tez “superintellektə” səbəb ola biləcəyi barədə xəbərdarlıq ediblər. Onlar süni intellektdən təhlükəsiz istifadəni təmin etmək üçün daha sərt tənzimləmə tədbirlərinin zəruriliyini bildiriblər.**




Fizika üzrə 2024-cü il Nobel mükafatı laureatlarından biri olan Ceffri Hinton süni intellektin insan imkanlarını aşan “superintellektə” sürətlə yaxınlaşdığını bildirib. O, bunun gözləniləndən daha qısa vaxtda – növbəti 20 il ərzində baş verə biləcəyini vurğulayıb: “Kommersiya şirkətləri rəqabət aparanda təhlükəsizlik arxa plana keçir. Bu, həqiqətən də silah yarışıdır. Yaxın 20 il ərzində insan qabiliyyətini üstələyən süni intellektin yaradılması ehtimalı 50 faizdir… Biz süni intellektin bəşəriyyətə hakim olması ehtimalını ciddi şəkildə nəzərdən keçirməliyik”.

Eyni zamanda, qeyd edilib ki, süni zəka sahəsində nailiyyətlər tibdə yanlış diaqnozların sayını iki dəfə azaltmağa, həmçinin yeni dərmanların işlənib hazırlanmasını sürətləndirməyə imkan verəcək. Hazırda süni intellekt neyron şəbəkələr sayəsində insanın hərəkətini imitasiya edir, yaşlı insanların tənhalığına qarşı mübarizə aparır, qanunauyğunluğu öyrənir, sürətli əməliyyatların köməyi ilə böyük məlumat həcmlərini birləşdirir, okeanlarda plastikləri aşkarlayır, əmək sahəsində təkrarlanan məsələləri avtomatlaşdırır. “AlphaGeometry” sistemi həndəsədən məsələləri riyaziyyat olimpiadasının çempionu kimi yerinə yetirə bilir. Həyatımızın bütün sahələrinə ayaq açıb. Yəni onun fəaliyyət sahəsi çox genişdir.

Bununla bağlı Hinton hesab edir ki, şirkətlər süni intellekti inkişaf etdirərkən təhlükəsizliyi təmin etmək üçün kifayət qədər güc və pul sərf etmirlər. Onun məlumatına görə, hazırda bu məqsədə ümumi vəsaitin, təxminən, 1 faizi sərf edilir. O, süni intellekt tərtibatçılarını texnologiyanın inkişafı zamanı təhlükəsizliyə önəm verməyə çağırıb. Bunun üçün müvafiq orqanların qanun hazırlamağa və qəbul etməyə çağırıb.

Hinton, həmçinin süni intellektin hərbi istifadəsinin, xüsusən də avtonom silahların adekvat tənzimlənməsinin olmaması ilə bağlı narahatlıqlarını ifadə edərək, hökumətləri bu riskləri həll etmək üçün daha güclü tədbirlər görməyə çağırıb.

Kimya üzrə Nobel mükafatı laureatı Demis Hassabis də Hintonun narahatlığına şərik çıxıb. O, mürəkkəb zülal strukturlarının proqnozlaşdırılması üzrə süni intellekt modeli hazırlayıb və bu sahədə qabaqcıl işinə görə tanınır. Alim xəstəlik və iqlim dəyişikliyi kimi kritik problemləri həll etmək üçün süni intellektin böyük potensialını etiraf edib. Bildirib ki, süni intellekt texnologiyasındakı sürətli irəliləyişlərlə yanaşı, bu sahəni tənzimləyən cevik qaydalar hazırlanmalıdır.

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Daron Əcəmoğlu da söhbətə qoşulub. D.Əcəmoğlu süni intellektin inkişaf etməkdə olan ölkələrə gətirə biləcəyi faydaları qeyd etməklə yanaşı, ona nəzarətinin bir neçə güclü qurumun əlində cəmlənməsini tənqid edib. Xəbərdarlıq edib ki, gücün bu cəmləşməsi zəngin və kasıb ölkələr arasında iqtisadi fərqləri daha da genişləndirəcək.

Beləliklə, süni intellekt sürətlə inkişaf etdiyi üçün Nobel mükafatçıları vaxtında və effektiv tənzimləmənin zəruriliyini qeyd ediblər. Onların ortaq narahatlıqları süni intellektlə əlaqəli risklərin idarə edilməsi ilə bağlı olub. Bildiriblər ki, süni zəkanın faydaları ümumi mənafe üçün istifadə edilməlidir.

*Hazırladı:*
*Pünhan*
*XQ*

# Ekofəalın 2 il sürən aksiyası

**Dünyadakı meşələrin təhlükə altında olması, ağacların məhvi oksigen qıtlığı yaratmaqla insanların rahat nəfəs almasına olduqca mənfi təsir göstərir. Ağacların kəsilməsinin qarşısını almaq üçün 738 gün ağacda yaşayan 23 yaşlı amerikalı gənc Culiya Hillin keçirdiyi 2 illik aksiya olduqca ibrətlidir. Hadisə belə başlayıb.**



1997-ci ildə o, təbiəti qorumaq üçün inanılmaz addım ataraq, Kaliforniya meşələrində 55 metr hündürlüyündə olan nəhəng Sekvoya ağacına dırmaşıb. Orada nə az, nə çox, düz 2 il 4 gün yaşayan Culiya ağac tədarükü firmasına öz etirazını bildirib və qədim ağaclarla zəngin meşələrin qırılmasına mane olub. Sərt hava şəraitinə baxmayaraq, ağacın oyuğunda yaşayan gənc ekofəal primus sobasında yemək bişirib və gündəlik yazıb.

Onu dəfələrlə qorxutmağa çalışıblar, hətta ağacı tərk etməsi üçün bir neçə budağı kəsiblər. Lakin Culiyanın qətiyyətli etirazı nəticəsində şirkət ağacı və ətrafdakı meşə ərazisini qorumağa razılaşıb. Bu hadisədən sonra Culiya ekoloji hərəkatın aparıcı rəmzinə çevrilib. Bu yolla o, insanları təbiəti qorumağa ruhlandırıb.

Onun düşüncəsinə görə, dünyada 1 nəfər də yüksək inam, dözüm və iradə ilə ciddi nəticə əldə edər.

*F.SALMAN*
*XQ*

## Hava



## Yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tututlacağı, gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Gecə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gecəyə doğru arabir güclənəcək. Gecə 6-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-5°, gündüz 7-12° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2853
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00